AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

TƏHSİL İNSTİTUTU

Təhsil İşçilərinin Peşəkar İnkişafı Mərkəzi

# YAZI İŞİNİN TƏŞKİLİ METODİKASI

Könül Aydın Nəhmətova

***Bakı – 2020***

# MÜNDƏRİCAT

**Giriş**

**Fəsil 1. Mətn tərtibi məsələləri**

1.1. Mətn

1.2. Abzas – mikromətn kimi

1.3. Mətnin arxitektonikası

1.4. Mətnin mövzusunu necə müəyyənləşdirməli

1.5. Mətnin ideyası

1.6. Forma və məzmun vəhdəti

1.7. Mətnin xarakteri: nəqli, təsviri, mühakimə

1.8. Plan və onun növləri

1.9. Şagird mətninin yoxlanılması

1.10. Mətn təshihinin sirləri

**Fəsil 2. Mətn təhlili və tərtbi işində səmərəli üsullar**

2.1. TASA – təhlil

2.2. Sinkveyn

2.3. Məntiqi təfəkkürü inkişaf etdirməyin qısa yolu – MİNN

2.4. İkihissəli gündəliyin mövzunun təhlilində rolu

2.5. İNSERT üsulunun düşüncənin yönləndirilməsində rolu

2.6. Tənqidi təfəkkürün inkişafı üçün RAFT üsulu

2.7. "Səbəb-fakt-nəticə" üsulu

2.8. "Yaxşı-pis" üsulu

2.9. "Rəngli sahələr" üsulu

**Fəsil 3. Yazı növləri və onların funksiyası**

**3.1.** Üzündənköçürmə. Əzbər yazı. Nəsrə çevirmə

3.2. İmla

3.3. İmlanın qiymətləndirilməsi

3.4. İfadə, inşa və esse üzrə standartlar

3.5. İfadə

3.6. Müxtəsər ifadə yazı işinin təşkili metodikası

3.7. İnşa yazı metodikası

3.8. Rəy-inşa

3.9. Rəyi necə yazmalı

3.10. İfadə və inşanın qiymətləndirilməsi

3.11. Esse nədir
3.12. Essenin strukturu
3.13. Tezisin növləri
3.14. Arqument nədir?
3.15. Esse yazı işinin təşkili alqoritmi
3.16. Şagird öz yazısında nəyi yoxlamalıdır
3.17. Essenin qiymətləndirilməsi
3.18. Şagird essesi əsasında yoxlama və qiymətləndirmə nümunəsi
3.19. Hekayə necə qurulur
3.20. Əməli yazı yazırıq: “Mən işgüzar adamam”
3.21 Əməli yazıların qiymətləndirmə meyarları. Qiymətləndirmə nümunələri
3.22. Xülasə
3.23. Rəy
3.24. Məruzə
Esse nümunəsi
İstifadə olunmuş ədəbiyyat

## GİRİŞ

Azərbaycan dili fənninin kurikulum çərçivəsində Yazı məzmun xətti üzrə bilik və bacarıqlar ümumi şəkildə aşağıdakı kimi öz əksini tapmışdır:

> “Yazı şagirdlərin duyğu və düşünçələrinin dil normalarına uyğun qaydada nəqli, təsviri və mühakimə xarakterli rabitəli mətnlər formasında ifadəsini təmin edir. Oxu prosesində qazanılan baçarıqlar yazı ünsiyyəti vasitəsilə genişləndirilərək qarşılıqlı əlaqəyə çevrilir. Yazı qoyulmuş hər hansı problem, yaxud mövzu ilə bağlı fikir və mülahizələrin müvafiq formada verilməsini, görülmüş işin hesabatının hazırlanmasını təmin edir. Ədəbi dilin normaları gözlənilməklə şagirdlərin tədqiqatçılıq və təşkilatçılıq bacarıqlarını nümayiş etdirməyə imkan yaradır”.

Yazı bacarıqlarının formalaşması fənnin digər məzmun xətlərindən ayrılıqda mümkün olmadığı üçün “Yazı işinin təşkili metodikası” vəsaitinin hazırlanmasında Azərbaycan dili fənninin yazı, qismən də oxu məzmun xətləri üzrə standartlar nəzərə alınmışdır.

Yazı məzmun xətti üzrə standartların tələbləri əsasında yazı işlərininn aparılmasının əsas vasitələri kimi yaradıcı və qiymətləndirici təlim formaları qəbul edilir. Yaradıcı fəaliyyət hazır biliklərin yazılı-məntiqi emalını tələb edir: planın tərtibi, konspektlərin, tezislərin hazırlanması, ideya və faktiki cəhətdən bir-biri ilə ziddiyyət təşkil etməyən mənbələrin ümumiləşdirilməsi və yaxud ziddiyyət təşkil edən mənbələrin səciyyələndirilməsi və s. Qiymətnləndirici təlim forması anlayışı altında isə şagirdlərin özlərinin və yoldaşlarının yazılı işlərini, yaxud digər müəlliflərin əsərlərini qiymətləndirmələri nəzərdə tutulur. Yuxarıda qeyd edilənlər nəzərə alınaraq metodik vəsaitdə interaktiv təlim prosesinin keyfiyyətli təşkili üçün zəruri olan nəzəri biliklər və bacarıqların formalaşdırılması üçün tövsiyələr əhatə edilmişdir.

Metodik vəsaitin əsas tədqiqat obyektlərindən biri olan inşa, esse kimi yaradıcı yazılar şagirdlərin müxtəlif nitq bacarıqlarının inkişafına təkan verir, ədəbi-estetik baxışını və zövqünü formalaşdırır, hisslərini ifadə etməyə imkan yaradır, yaradıcılığa istiqamətləndirir.

Məlumdur ki, **müasir təhsilin qarşısında duran əsas məsələ yaradıcı təfəkkürə malik şəxsiyyətlər formalaşdırmaqdır**. Təsadüfi deyil ki, təhsil sahəsində uğurlara nail olmuş ölkələr uzun illərdir, tədris prosesində mühakimə xarakterli şifahi və yazılı nitqin inkişafına diqqət ayırır, tələbə və kadr seçiminin qiymətləndirmə vasitələrində də mühakimə xarakterli şifahi və yazılı nitq üzrə qiymətləndirmələrə yer verir.

Yaxşı yazı yazmağın əsasında səmərəli oxuyub anlama durur. PİSA-da nəticələr qazanmaq üçün oxuyub anlamaq bacarığı, tətbiq edərək öyrənmək, analitik düşünmə, tənqidi təfəkkür, esse yazmaq vərdişləri təməl şərtlərdir. Bu şərtlər mexaniki əzbərləmə vərdişləri aşılayan “hə” və

“yox”un alternatividir. Qeyd edilmiş bütün faktorlar Azərbaycan dili və ədəbiyyat müəllimləri üçün “Yazı işinin təşkili metodikası” kmi vəsaitin hazırlanmasına zərurəti üzə çıxarmışdır.

Metodik vəsait üç fəsildən ibarətdir.

1. Mətn dil vahidi kimi

   Yazı növləri üzrə bir sıra tapşırıqların həyata keçirilməsinin əsasında şagirdin mətn haqqında nəzəri bilikləri və mətn tərtibi üzrə praktik bacarıqları durur. Bu məqsədlə vəsaitdə Azərbaycan dili fənninin Oxu məzmun xəttinin bəzi standartlarının tələb etdiyi bilik və metodların öyrənilməsi uyğun görülmüşdür.

2. Mətn tərtibi üzrə səmərəli üsullar

   Azərbaycan dili və Ədəbiyyat dərslərində bədii mətnər əsasında təhlili yazıların yazılması oxuyub-anlama bacarığınn formalaşdırılmasından asılı olduğu üçün tənqidi təfəkkürü formalaşdıran üsullara yer verilmişdir.

3. Yazı növləri

   Azərbaycan dilinin tədrisində əhəmiyyətini qorumaqda olan bir sıra yazı növləri vardır:

   - İmla
   - İfadə
   - İnşa
   - Rəy-inşa
   - Esse
   - Əməli yazılar.

Vəsaitdə şagirdin bacarıqlarının formalaşdırılmasında yazı növlərinin funksiyaları izah olunmuş, yazı işinin təşkili məsələləri işıqlandırılmış, şagird fəaliyyətnin yoxlanılması, qiymətləndirlməsi meyarları müəyyənləşdirilmişdir.

Vəsaitdən səmərəli istifadə edən müəllim:

- Mətn haqqında nəzəri biliklərə yiyələnəcək;
- Mətn tərtibi üzrə işin təşkili üzrə metodikasını mənimsəyəcək;
- Yazı işlərinin aparılmasında səmərəli təlim üsulları ilə tanış olacaq;
- Yazı növləri haqqında nəzəri biliklərlə tanış olacaq;
- Yazı işlərinin təşkili alqoritmini öyrənəcək;
- Yazı işlərinin qiymətləndirmə meyarları ilə tanış olacaq.

## FƏSİL 1. MƏTN TƏRTİBİ MƏSƏLƏLƏRİ

### MƏTN NƏDİR

| **Sinif** | **Standart №** | Bilik və bacarıq |
|---|---|---|
| **V** | **3.1.2** | Mövzu ilə bağlı topladığı materiallar əsasında mətn hazırlayır. |

Oxu və yazı məzmun xətləri üzrə standartlar mətn tərtibi üzrə bilik və bacarıqları ehtiva edir. Şagirdin oxu və yazı vərdişləri mətn vasitəsilə formalaşdırılır. Həmçinin şagirdin yazılı fəaliyyətinin məhsulu mətn olur.. Buna görə də yazı işinin təşkili metodkasında mətn tərtibi məsələlərinin xüsusi yeri vardır.

Mətn nə deməkdir? Mətn anlayışının ən geniş yayılmış tərifləri aşağıda verilmişdir:

Mətn – leksik və qrammatik cəhətdən bağlı olan cümlələrin eyni fikir və mövzu ətrafında birləşməsidir

Digər xarakterlərini də nəzər alaraq deyə bilərik:

Mətn ən böyük nitq vahididir.

Mətn - böyük və ya kiçik həcmdə, bitkin məzmuna və formaya malik şifahi və ya yazılı ünsiyyət vasitəsidir.

Mətn anlayışının izahında mübahisəli bir məqam mətnin ən azı neçə cümlədən ibarət olmasıdır. Mütəxəssislərin əksəriyyəti mətnin ən azı iki cümlədən ibarət olduğunu düşünürlər. Lakin atalar sözlərini, aforizmləri, şüarları nəzərə aldıqda geniş yayılmasına baxmayaraq, bu fikirlə razılaşmamaq olar. Məsələyə başqa bir aspektdən də baxaq. Bədii janrlar daim dəyişməkdə, yeniləri yaranmaqdadır. Müasir ədəbiyyatda yaranan yeni janrlar - bir sətilik şeir, bir cümləlik hekayələr də mətnə malikdir. Lakin məktəb praktikasında şagirdlər hər gün müəyyən həcmdə müxtəlif xarakterli və üsluba malik mətnlər oxuyur, özləri də esse, inşa, hekayə kimi yazı növlərində mətn tərtib edirlər. **Mətnin əsas əlamətləri** aşağıdakılardır:

- Mətndə cümlələr məna və qrammatik cəhətdən bağlı olur.
- Mətnin başlığı var və yaxud ona başlıq vermək mümkündür.
- Mətn 3 hissədən ibarətdir: giriş, əsas, nəticə.
- Mətndə bütün cümlələr eyni mövzuya aiddir.
- Məzmununa görə mətnin xarakteri olur: nəqli, təsviri, mühakimə və qarışıq (nəqli-təsviri, təsviri-mühakimə və s.).

Nədən bəhs olunursa, o, **mətnin mövzusunu t**əşkil edir. Mətnin mövzusu onun başlığında da öz ifadəsini tapa bilir.

Mətnin mövzusunu müəyyənləşdirmək üçün belə bir sual verilə bilər: Mətndə nədən bəhs edilir?

**Mətnin ideyası** – müəllifin demək istədiyi fikirdir, bu, mətnin yazılmasının əsas məqsədidir. Müəllif ideyanı önə çəkmək istədikdə ona epiqraf verə bilər.

Mətnin ideyasını müəyyənləşdirmək üçün isə şagirdlərə belə bir sual vermək olar:

Müəllif nəyə çağırış edir?

Mətn abzas adlanan hissələrə ayrılır. Abzas mətn daxilindəki bitkin hissələrdir. Abzaslar bir məsələdən digərinə keçid edilən zaman qoyulur. Buna görə də hər bir abzasın öz mikromətni olur.

## MƏTNIN ARXİTEKTONİKASI

| **Sinif** | **Standart №** | Bilik və bacarıq |
|---|---|---|
| **V** | **3.1.3** | Mətnin tərkib hissələrini (giriş, əsas hissə və nəticə) əlaqələndirir. |
| **IX** | **3.1.3** | Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə özünün və başqasının yazısını təkmilləşdirir. |

Sintaktik bütövü mətn adlandırmağa əsas verən onun zahiri elementləri (başlıq, epiqraf, ithaf) və kompozisiyasıdır. Bunlar bir yerdə mətnin arxitektonikasını təşkil edir.

**Başlıq** (sərlövhə) mətnin əsas zahiri elementlərindən biridir, mətnin yuxarısında qrafik şəkildə (boşluqla, şriftlə və hətta ayrıca səhifədə yerləşdirilməklə) fərqləndirilir, müstəqil mövqeyinə görə mövzuya ilgək rolunu oynayır.

Başlıq – bir və ya iki sözlə ifadə olunaraq mətnin məzmununu çox qısa şəkildə xülasələşdirdiyi və bütövlükdə təqdimetmə funksiyası daşıdığı üçün vacib element hesab olunur.

Bununla yanaşı, başlıq digər funksiyaları da yerinə yetirir. Zahiri kompozisiya və daxili kompozisiyaya görə iki qrupa ayrılır.

**Başlığın zahiri (struktural) funksiyaları** bunlardır.

− qrafik fərqləndirici (mətnin quruluşunun təşkili, fəsil, paraqraflara ayrılması);

− nominativ (mətnin adlandırılması);

− reklam (diqqəti mətnə çəkmək);

− kompozision (mətnin məna hissələrinə ayrılması);

− ekspressiv-apelyativ (oxucunu mövzuya hazırlamaq).

Başlıqda mətnin məna sxeminin müxtəlif ünsürləri (əsas fikir, mövzu, aparıcı tezis, praqmatik əsas, vəziyyətin dəyərləndirilməsi, məlumatın fonu) öz əksini tapa bilər. Bu baxımdan **başlıqların məzmunca** aşağıdakı **növləri** fərqləndirilir:

− tematik (mətndə nədən/kimdən bəhs edilir: “Qaraca qız”);

− məlumatlandırıcı (mövzu haqqında ümumi şəkildə təsəvvür yaradır: “Gün keçdi” /Azərbaycan filmi);

− emosional-qiymətləndirici (mətnin intonasiyasını əks etdirir: (“Heydərbabaya salam”/ M.Şəhriyar);

− paradoksal (uyğun olmayan anlayışların bir yerdə verir: (“Adamlar və siçanlar” / Con Steynbek, “Şalvarlı bulud”/A.Mayakovski);

− problematik  (mətnin problematik sualını ifadə edir: “Onu bağışlamaq olarmı?”/Azərbaycan filmi, “Kimdir müqəssir?”/A.İ.Gertsen)

− təşviqedici  (fəaliyyətə səsləyir: “Atları yəhərləyin!”/Azərbaycan filmi);

− transformasiyalı (allüziya, sözləri dəyişdirilmiş sitat-mənbə: «Və Gün doğdu!»/E.Heminquey);

− təsnifatlaşdırıcı (mətnin janrını müəyyənləşdirir, işgüzar üsluba xasıdr. Bədii əsərlərdə də istifadə oluna bilir. “Naməlum qadının məktubu”/Stefan Sveyq);

− sitat-başlıq (müəyyən mənbədən, başqasının əsərindən və ya mətnin öz içindən bir fikri sərlövhəyə çıxarır: “Yeyərsən qaz ətini, görərsən ləzzətini”/N.Vəzirov).

Başlıqlar biristiqamətli və kompleks olmaqla iki yerə bölünür. Biristiqamətli başlıqlar mətnin bir elementini (ideya, mövzu, obraz, məkan, zaman və s. – bunlardan birini), kompleks başlıqlar isə ya bir neçə elementi və yaxud bütöv məğzi ifadə edir.

Əsərin adından və ya hissələrin başlığından sonra alt hissədə yerləşdirilən müəyyən bir aforizm və ya fikir epiqraf adlanır. Epiqrafın altında mənsub olduğu şəxsin imzası və ya aid olduğu mənbənin adı  yazılır.  Epiqraf əsərin ideyası  ilə bağı olur.

Mətnin kompozisiya elementlərindən biri də **ithaf**dır. “İthaf” ərəb dilində “hədiyyə etmə”, “töhfə” mənasındadır. Mətndəki funksiyası əsərin kiminsə xatirəsinə həsr olunması haqqında informasiya verməkdir. Daha çox bədii mətnlərdə istifadə edilən elementdir. Linqvistikada və ədəbiyyatşünaslıqda ən az diqqət ayrılan bu anlayış müasir elmi diskursda da artıq təsadfi təzahür deyil, əksinə, müasir əsərləri əvvəlkilərdən fərqləndirən bir detala çevrilmişdir. Əvvəllər monoqrafiya və vəsait müəllifləri obyektivlik prinsipinə uyğun olaraq epiqrafdan istifadə etmirdilər, müasir elmi plüralizm dövründə  fərdi yanaşma əhəmiyyətli hesab olunduğu üçün  müəllifin şəxsi mövqeyi  mətnin tərtibində və mündəricatında öz əksini tapmağa başlamışdır.

İthafın məqsədi konkret bir mətni mədəni kontekstə - elmi və ya ədəbi-bədii məktəbə, araşdırma tarixi və ya müəllifin şəxsi mühitinə daxil etməkdir. Buna görə də ithaf  ictimai əhəmiyyət kəsb edir (müəllif haqqında, ünvanladığı şəxs və onlar arasındakı münasibət haqqında informasiya verir) və konkret bir kommunikativ vəzifəni icra edir - müəllifin minnətdarlıq, təşəkkür,önəmini anlatmaq istəyini  ifadə edir .

Mətnin hissələrinin məntiqi ardıcıllıqla və əlaqəli şəkildə düzülməsi **kompozisiya** adlanır. Üslub və janrından asılı olmayaraq kompozisiyanın üç ənənəvi hissəsi var:

− giriş (başlanğıc, təqdimat)

−  əsas hissə (mətnin özəyi)

− nəticə (qənaət, hökm).

Hissələrin belə adlandırılması şərtidir və ardıcıllığı janrdan və üslubdan asılıdır. Çünki kompozisiya olaraq üçhissəli növ deyilən anlayış yoxdur. Kompozisiyanın növləri aşağıdakıladır:

− düzxətli (gedişat - hadisə, fikir, proses və s. ardıcıllıqla açılır);

− spiralvari və ya konsentrik (mövzunu işıqlandırdıqdan sonra müəllif onun üzərinə əsaslı şəkildə qayıdır);

− dairəvi (müəllif əsərin sonunda mətnin giriş hissəsinə qayııdr və oxucuya mühüm vəziyyətləri, əsas hadisələri xatırladır).

**Giriş –** mövzunun açılması, oxucunun mətləblə tanış edilməsidir. Girişin müxtəlif tipləri var:

− tarixi (mövzu ilə bağlı hadisənin nəqli);

− bioqrafik (təhkiyəçinin öz bioqrafiyasından və ya başqalarının boqrafiyasından faktlara istinad etməsi);

− analitik (baza anlayışlarının müəyyənlşdirilməsi);

− müqayisəli (əks nəzər nöqtələrinə baxış);

− ictimai (ümumi xarakterin mühakiməsi, fəlsəfi, siyasi və ya iqtisadi görüşlərlə bağlı situasiyaların və ya mövzuların analizi);

**Əsas hissə** də özlüyündə üç hissədən ibarət kompozisiyaya malikdir, lakin bu struktur janr və üslubdan asılıdır. Belə ki, bədii əsərlərdə əsas hissə konfliktin yaranması, inkişafı və sonra isə kulminasiya (qəhrəmanlar arasında ən gərgin an), nəhayət, hadisələrin açılması hissələrindən ibarətdir. Elmi mətnlərdə isə fərqli hissələrdir: mövzunun çatdırılması və ya müəllif mövqeyinin işıqlandırılması, arqumentləşdirmə, dəlilər gətirmə və nəticənin çıxarılması.

Mətnlərdə, xüsusilə publisistik əsərlərdə vacib hissələrdən biri **nəticə**dir. Psixoloqlar hesab edirlər ki, ən çox yadda qalan son sözlərdir. Buna görə də nəticə lakonik və aydın olmalıdır. Nəticənin aşağıdakı formaları var:

− əsas vəziyyətlərin və qənaətlərin təkrarlanması;

− deyilənlərin ümumiləşdirilməsi;

− nəticənin göstəriləmsi;

− girişdə qoyulmuş sualın cavablandırılması;

− problemin həlli;

− auditoruyaya diləklərin çatdırılması;

− fəaliyyətə çağırış;

− sitat.

Mətnin arxitektonikası, başqa sözlə, təməl tikinti materialları haqqında bilikləri mənimsəməklə şagirdlər istənilən oxu materialını sərbəst şəkildə anlayıb təhlil edə biləcək, mətn tərtibi məsələlərinin həllində faydalanacaqlar.

## ABZAS – MİKROMƏTN KİMİ

| **Sinif** | **Standart №** | Bilik və bacarıq |
|---|---|---|
| **VI** | **3.1.3** | Mətnin hissələrini, abzaslarını əlaqələndirir. |

Abzas bir əsas fikri ifadə edən cümlələr qrupu və ya bütöv fikri ifadə edən bir cümlədir. Mətndə bir hissənin abzas olmasını cümlələrin sayı və quruluşu müəyyənləşdirmir. Məsələn, bəzi yazı üslublarında, xüsusilə publisistik üslubda abzas bir cümlədən də ibarət ola bilər. Biz o cümləni “aparıcı fikir” və yaxud “tezis” adlandıracağıq, çünki abzasın digər cümlələri həmin fikir ətrafında birləşir.

***Abzasda nəyi ifadə edəcəyimizi necə müəyyənləşdirməliyik?***

Abzasın təşkili üçün fikir, arqument və dəlillərinizi seçməlisiniz. Siz oxucuya hansı əsas fikri çatdırmaq istəyirsiniz? Abzasda informasiyalar əsas fikrinizlə bağlı olmalıdır. Başqa sözlə, oxucu hiss etməlidir ki, hər bir abzasda tezis və informasiyalar arasında qırılmaz əlaqə var. Tezis mətni yaradan toxuma bənzəyir. Bu proses bir toxumdan mükəmməl bir orqanizmin yaranması kimi, əsas ideyadan qaynaqlanaraq bütöv mətni əhatə edən fikirlər sisteminin təşkilidir.

Abzasların yazılması və əlaqələndirilməsi göydələnin tikilməsinə bənzəyir. Tikinti üçün mütləq sağlam bir fundament qoyulmalıdır. İstənilən çıxıntı, bünövrənin pozuntu və ya zədələri bütöv mətnin dağılmasına gətirib çıxara bilər.

Abzasın yazılmasında aşağıdakı prinsiplər nəzərə alınmalıdır:

**Vahidlik**: abzasda bütün cümlələr aparıcı fikir ilə əlaqəli olmalıdır (abzasın tematik cümləsi ilə). Aydındır ki, bu da özlüyündə tezislə bağlıdır: bütün cümlələr əsas ideya və ya mətnin tezisi ilə əlaqəli olur.

**Rabitəlilik**. Cümlələr məntiqi ardıcıllıqla verilir, fikirlər mətnin planı əsasında inkişaf etdirlir.

**Fikrin inkişaf etdirilməsi**: abzaslarda verilən hər bir fikir adekvat olaraq izah edilir, sübut və dəlillərlə dəstəklənərək bütövlükdə mətnin əsas ideyasının açılmasına xidmət edir.

***Abzasda fikir hansı formada çatdırılır?***

Abzası təşkil etməyin müxtəlif üsulları var. Seçəcəyiniz üsul abzasların aparıcı fikrindən asılıdır. Şagirdləri aşağıdakı təqdimetmə formaları ilə tanış etmək olar:

Təhkiyə: Hadisəni danışın. Xronoloji qaydada əvvəldən sona qədər nəql edin.

Təsvir. Nəyin necə görünməsi, qoxusu, dadı və ya hiss edilməsi haqqında konkret tsəvvür yaradın. Bu, mətni təzahürlərin təsviri əsasında qurmaq deməkdir.

Proses. Nəyin necə fəaliyyət göstərməsinii izah edin. Ardıcıllığı saylar və ara sözlər vasitəsilə ifadə etmək olar: birinci, ikinci, üçüncü; əvvəlcə, sonra, nəhayət və s.

Təsnifat. Təzahürləri səciyyələndirin.

İllüstrasiya. Situasiyaları nümunə göstərin və onların sizin fikrinizlə əlaqəsini izah edin.

**Mətndəki dialoqlarda abzası necə müəyyənləşdirmək olar?**

Abzas həm tipoqrafiya termindir, həm də mətnşünaslıq. Tipoqrafiya termini olaraq abzas mətndə yeni sətri bildirir, mətnşünaslıq anlayışı kimi - məna vahidini. Yəni dialoqda bitkin bir nitq parçası abzas hesab olunur.

Əgər dialoq müəllif təhkiyəsindən kənarda bitkin bir hissə təşkil edə bilirsə, ayrıca bir abzas hesab etmək olar. Amma müəllif təhkiyəsindən kənarda məna vahidi ola bilməyən dialoqu abzas kimi fərqləndirmək olmaz. Bu zaman yalnız müəllif sözü ilə bərabər bir hissə kimi götürülə bilər.

## MƏTNİN MÖVZUSUNU NECƏ MÜƏYYƏNLƏŞDİMƏK OLAR

| **Sinif** | **Standart №** | Bilik və bacarıq |
|---|---|---|
| **VIII** | **3.1.1** | Mövzuya uyğun müxtəlif tipli (nəqli, təsviri, mühakimə) mətnlər yazır |
| **IX** | **3.1.1** | Verilmiş mövzuya uyğun müxtəlif xarakterli və formalı mətnlər yazır. |

Mətnin mövzusunu müəyyənləşdirmək üçün şagirdlərlə aşağıdakı fəaliyyət alqoritmini tətbiq etmək olar:

1. Başlığa diqqət edin. Burada mətndə bəhs olunanlar haqqında eyham ola bilər. Bu, xüsusilə müəllifin birbaşa mətləbə keçdiyi kiçik hekayə və ya məqalələrə aiddir. Nəzərə alın ki, başlıq assosiativ, metaforik və ya paradoksal ola bilər.

3. Mətnin açar cümlələrini yazın. Bunun üçün hər bir abzasda mətnin məzmununu əks etdirən əhəmiyyətli, vacib cümlələri seçin.

4. Qısaldın. Bu cümlələrdən bütün artıq olanları (təfərrüatlar, izahlar, epizodlar) silin. Nəticədə ancaq çox vacib açar sözlər və ifadələr qalmalıdır.

5. İfadələri əhəmiyyətinə görə sıralayın. Mətnin əsas mövzusunu müəyyənləşdirmək üçün onları sütunda əhəmiyyətlilik dərəcəsinə görə sıralamaq lazımdır. Birinci növbədə o sözü yazmaq lazımdır ki, ondan istifadə etmədikdə mətndə nədən bəhs olunduğunu müəyyənləşdirmək mümkün deyil.

6. Mətnin məzmununu üç-dörd kəlmə ilə iifadə edin. Əsas öncəki mərhələdə seçdiyimiz sözləri götürəcəyik. İdeyadan fərqli olaraq mövzu ən son həddə qədər qısa ifadə olunmalıdır.

Onu cümləyə çevirməyə çalışmayın, ən ideal forma üç-dörd kəlmədən ibarət söz birləşməsidir (məsələn, “Bağışlamağı necə öyrənməli” və ya “Musiqinin emosional təsiri”).

## MƏTNİN İDEYASI

Mətnin problemi – müəllifin cavab vermək istədiyi sualdır. İdeya isə bu suala verilən cavabdır.

Publisitik yazılarda müəllif mövqeyi aydın verilir və onu müəyyənləşdirmək asan olur.

Bədii əsərlərdə müəllif mövqeyi birbaşa əks olunmaya bilər. Burada daha çox onun necə ifadə olunduğuna fikir vermək lazımdır: birbaşa, yoxsa dolayısı ilə; ifadə vasitələri; dəyərləndirmə; əlçatanlıq; sadəlik və s.

Şagirdləri müəllifin əsəri yazmaqda məqsədini müəyyənləşdirmək üzərində düşünməyə sövq edə bilərsiniz.

Yazıçı əsəri nə üçün yazıb?

- Problematik bir məsələni nəzərə çarpdırmaq;
- Oxucuya emosional təsir göstərmək;
- Özünə həmfikir tapmaq;
- Məlumatlandırmaq;
- Hər hansı bir təşəbbüsə çağırış etmək və s.

Müəllif mətninin ideyasını müəyyənləşdirərkən şagirdi müxtəlif qəlib-ifadələrlə tanış etmək olar:

Müəllif hesab edir ki, .....

Müəllif iddia edir ki, .....

Müəllif inanır ki, ...........və onun bu fikrinin əsası var.

Müəllif oxucunu inandırmaq istəyir ki. ....

Birmənalı olaraq, müəlllifin ideyası odur ki, ....

Müəllif oxucunu ..... fikri üzərində düşünməyə sövq edir.

Müəllif oxucuya çatdırmaq istəyir ki, ....................

Problemi həll edərək müəllif bu qənaətə gəlir ki, ..................

…............ – məncə, bu fikirlər müəllifin ideyasını əks etdirir.

…............... – bu fikir müəllifin ideyasını dəqiq ifadə edir.

Müəllifin mövqeyi aydındır, ..................................

## FORMA VƏ MƏZMUN VƏHDƏTİ

| Sinif | Standart № | Bilik və bacarıq |
|---|---|---|
| IX | 3.1.1 | Verilmiş mövzuya uyğun müxtəlif tipli (nəqli, təsviri, mühakimə) və formalı (inşa, esse, hekayə) mətnlər yazır. |

Mətnin tərtibinin mühüm problemlərindən biri də məzmun və forma vəhdətinin təşkilidir. Həyatda nəinki bədii ədəbiyyat nümunələrinin, incəsənət əsərlərinin, elmi əsərlərin, hətta hər bir obyektin, predmetin məzmun və forması vardır. Məzmun və forma elə dialektik vəhdətdədir ki, forma məzmunsuz, məzmun isə formasız təsəvvürə gəlmir.

Əsərin dəyəri onun məzmunu ilə ölçülür. Forma isə məzmunu təqdim etmək vasitəsidir. Bir-birindən təcrid edilmiş şəkildə nə məzmun, nə də forma vardır.

Mətnin kompozisiyasından tutmuş onun kərpicləri olan bədii detallara, bədii təsvir və ifadə vasitələrinədək bütün poetik fıqurlar forma elementləri kimi təzahür edir, məzmunun açılmasına zəmin yaradır.

Əsərin ideyası birbaşa məzmunla bağlı olsa da, o, bədii formanın müəyyənləşməsində də mühüm rol oynayır. Məzmun münasib üslub və formada ifadə olunduqda sənət əsərinə çevrilir. Əsərin əsas ideyasi məzmunda öz əksini tapsa da, yalnız uğurlu bədii forma vasitəsi ilə açıla bilər.

## MƏTNİN XARAKTERI: NƏQLİ, TƏSVİRİ, MÜHAKİMƏ

| Sinif | Standart № | Bilik və bacarıq |
|---|---|---|
| VIII | 3.1.1 | Mövzuya uyğun müxtəlif tipli (nəqli, təsviri, mühakimə) mətnlər yazır. |
| IX | 3.1.1 | Verilmiş mövzuya uyğun müxtəlif tipli (nəqli, təsviri, mühakimə) və formalı (inşa, esse, hekayə) mətnlər yazır. |

Xarakterindən asılı olaraq mətnlər üç əsas növə ayrılır: nəqli, təsviri, mühakimə xarakterli mətnlər.

Nəqli mətnlərdə ardıcıl baş vermiş hərəkət və hadisələrdən bəhs edilir. Mətnin nəqli xarakterini müəyyənləşdirmək üçün onun məzmunundan bu suallara cavab axtarmaq olar:

Kim? Və ya Nə? Nə zaman? Harada? Necə? Nə edir? (baş vermişdir).

*“Məktəbdə (harada?) tibbi müayinə zamanı (nə zaman?) həkim (kim?) birinci sinif şagirdindən (kimdən?) soruşur (nə edir?):*

*— Burun və qulaqlarından şikayətin var?*

*— Var. Paltarımı geyinəndə mənə mane olur.”*

Təsviri mətnlərdə obyektin, predmetin əlamətləri, keyfiyyətləri, müxtəlif təzahürlər, psixoloji, mənəvi durumlar öz təsvirini tapır. Belə mətnləri müəyəynləşdirmək üçün mətnə daha çox aşağıdakı sualları verilir:

Necə? Nə cür? Nə qədər? Hansı tərzdə?

*“**Cənnət quşları (Paradisaeidae)***

*Erkək və dişisi arasında böyük (necə?) fərqlər vardır. Erkəkləri çox rəngarəng (necə?) olur. Qəribə uçuşları ilə dişinin diqqətini çəkir.*

*Növlərin çoxunda quyruq uzun və rənglidir. (necədir?)”*

Mühakimə xarakterli mətnlərdə nə isə izah edilir və ya sübut olunur. Hərəkətlərin, hadisələrin, təzahürlərin səbəblərindən danışılır, onlar arasındakı əlaqələr şərh edilir.

Niyə? Nə üçün? (hərəkətlər, hadisələr, təzahürlər)

*“Başqalarını anlamaq üçün bədii ədəbiyyat oxumaq vacibdir (Nə üçün?). Bədii ədəbiyyat – hərflərdən və bir ovuc durğu işarələrindən yaratdığımız mətnlərdir. Lakin biz bu mətnləri oxuduqda təsəvvürümüzdə bir dünya yaradırıq, orada məskunlaşırıq və ətrafa özgə gözü ilə baxırıq. Əvvəllər anlamadıqlarımızı dərk edirik. Dərk edirik ki, xarici dünya da bizik. Biz başqa bir insan oluruq. (niyə?)»*

Mətnlər qarışıq tipli də olur: nəqli-təsviri, nəqli-mühakimə, təsviri-mühakimə və s.

Fikrlərimizi belə ümumiləşdirə bilərik:

Nəqli mətnlər danışır.

Təsviri mətnlər göstərir.

Mühakimə xarakterli mətnlər əsaslandırır.

## PLAN VƏ ONUN NÖVLƏRİ

Mətn əsasında plan tərtibi Azərbaycan dili fənninin Oxu və Yazı məzmun xətləri, ədəbiyyat fənninin isə Ədəbiyyat və həyat həqiqətləri məzmun xətti üzrə standartlarına əsasən reallaşdırılır. Azərbaycan dili fənni üzrə plan tərtibinə dair alt standartları nəzərdən keçirək.

| Sinif | Standart | Bilik və bacarıqlar |
|---|---|---|
| I | 2.2.7 | Mətni mənaca bitkin hissələrə ayırır, şəkilli planını tutur. |
| II | 2.2.3<br>2.2.5 | Mətnin hissələrinə başlıqlar verməklə sadə plan tutur.<br>Mətnin məzmununu tərtib etdiyi plana uyğun nəql edir. |
| III | 2.2.3 | Mətnin geniş planını tutur. |
| IV | 2.2.3 | Verilmiş mətni genişləndirmək və davam etdirmək məqsədi ilə geniş plan tutur. |
| VII | 3.1.3 | Qurduğu plan əsasında mətnin hissələrini məntiqi cəhətdən əlaqələndirir. |
| X | 2.2.2 | Mətnin hissələrini tezislər şəklində ifadə edir. |

Ədəbiyyat fənni üzrə isə plan tərtibi ilə bağlı alt standartlarda dəyişən əsasın bədii janrlardır.

**Ədəbiyyat fənni, V sinif, standart 1.1.3.** Sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (yığcam və geniş) nağıl edir.

**Plan nədir və nə üçün lazımdır?**

Plan – mətnin əsas məna vahidlərinin məntiqi və ardıcıl sadalanmasının formuludur. Planın tərtibi mətnin hazırlanmasında və ya nəql edilməsində böyük əhəmiyyət kəsb edir. Planın bəndləri müəllifi mətnin ideyasına doğru istiqamətləndirir.

Plan tərtib etmək üçün mətni müəyyən fikir və məntiqi bütövlüyə malik mikromətnlərə ayırmaq lazımdır. Bir qayda olaraq, bunlar abzaslardır. Mikromətnlər bir abzasdan başlayaraq bir neçə abzası əhatə edə bilər. Mikromətnlər də məna vahidləridir. Mikromətnlərdən aparıcı fikri seçməklə onun əsasında planın bəndlərini formalaşdırırsınız.

Plan:

- mətnin məzmununu açır;
- fikrin / hadisənin inkişaf ardıcıllığını əks etdirir;
- mətnin məzmununu yaddaşda möhkəmlədir;
- mətnin müxtəsər məzmunu üzərində işi sürətləndirir;
- müəllif üslubunun saxlanılmasına kömək edir;
- diqqəti istiqamətləndirir.

Planın tərtibi prosesi müəyyən mərhələlərlə aparılır:

- əsərin oxunması;
- mətnin məna vahidlərinə ayrılması;

- hər bir məna vahidinin qısa adlandırılması və ya onlara sual verilməsi, yaxud əsas fikrin çıxarılması.

Planın bəndlərinin tərtibini müəyyən vahid forma əsasında aparmaq lazımdır:

- sual cümləsi formasında;
- tezis formasında;
- başlıq formasında;
- sitat formasında.

Hər bir plan formasının öz tətbiqetmə texnikası var:

- Məna vahidinə sual verməklə sual planı tərtib edə bilərsiniz.
- Suallara qısaca cavab verməklə tezis planı yaza bilərsiniz.
- Mikromətnlərdə açar söz və söz birləşmələrinin altından xətt çəkməklə başlıq plan əldə edərsiniz.

Mikromətnlərdəki əsas fikri ifadə edən cümləni və söz birləşmələrini seçməklə sitat plan hazırlaya bilərsiniz.

Sevinc Nuruqızının “Cənnətdə görüşərik” hekayəsi əsasında plan tərtibi nümunələrini nəzərdən keçirək.

***CƏNNƏTDƏ GÖRÜŞƏRİK***

*Hava çoxdan qaralmışdı. Sükut içində olan qaranlığı arabir düşmən mövqeyindən açılan atəş səsləri və uçuşan mərmilərin işığı pozurdu. Haradasa İsa-musa quşu hər zamankı kədərli nəğməsini oxuyurdu: ”İsa, tapdın?.. Musa, yox”. Mübariz bu səssizliyi və qaranlığı içinə çəkmiş kimi qəmli və susqun idi. Sonra qəfildən həzin bir meh əsdi. İyun istisi bu mehin gətirdiyi sərinliyə və yovşan ətrinə asanlıqla təslim oldu. Haradasa “Qarabağ şikəstəsi” səsləndi. Səs çox uzaqdan gəldi. Qaranlığı və sükutu yara-yara irəlilədi. Yovşan ətrinə qarışıb Mübarizin bütün ruhuna hakim kəsildi...*

*Könlüm keçir Qarabağdan,*
*Gah o dağdan, gah bu dağdan...*

*...Mübariz qəti qərarını verdi. Bu gecə viran qalan Qarabağın qisasını düşməndən alacaqdı. O özü... Təkbaşına... Qarabağ uğrunda son savaşa qalxacaq. “Vətən haqqı, bu yaralı Vətənimin canına and içirəm ki, bu gecə düşmən qarşımda diz çökəcək”, – deyib qərarını qətiləşdirdi. Çibindən bir parça kağız və qələm çıxartdı. Son savaşa qalxmamışdan son məktubunu yazdı:*

*“Canım, atam və anam. Məndən sarı darıxmayın. İnşallah, Cənnətdə görüşəcəyik. Mənim üçün bol-bol dua edin. Vətənin dar günündə artıq ürəyim dözmür. Allaha xatir bunu etməliyəm. Ən azından ürəyim sərinlik tapar. Şəhid olanadək bu şərəfsizlərin üzərinə gedəcəyəm. Şəhid olsam,*

*ağlamayın. Əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim. Allaha ibadətlərinizi dəqiq yerinə yetirin. Çoxlu sədəqə verin. Seyid nəvəsi olaraq bunu etməliyəm. Allah böyükdür. Vətən sağ olsun. Oğlunuz Mübariz… Haqqınızı halal edin".*

*Yazdığı məktubu yaşaran gözlərinə sıxdı. Göz yaşlarını heç özünə yaraşdırmadı. Sonra öz-özünə dedi: "Sevinc göz yaşlarıdır. Nə zamandır gözlədiyim gün gəlib". Darağını patronla doldurduğu silahını çiyninə aldı, qumbaraları ciblərinə qoydu... "YA VƏTƏN", – deyib, ayağa qalxdı...*

*O, minalanmış sahə ilə irəliləyirdi. Arxaya baxmırdı. Ana torpaq onu minalardan məharətlə qoruyurdu. Arzu etdiyi qisas anına qovuşdurmaq üçün...*

*Düşmən qəfil basılmışdı. Zənn edirdilər ki, böyük bir ordu hücuma keçib. Mübariz şimşək kimi gah orda, gah burda çaxırdı. Bir göz qırpımında dayandığı nöqtəni dəyişir, pərən-pərən düşmüş düşmən əsgərinin başına gülləni dolu kimi yağdırırdı. Önündə baş qoyduğu, diz çökdüyü Ulu Yaradan ona doyunca qisas almaq üçün qanad vermişdi, nədi?! Öz silahındakı güllələr elə ilk həmlədə boşalmışdı. İndi düşmən elə düşmən silahından yağan güllə ilə məhv edilirdi. Atdığı qumbaralar onun şücaətindən vəcdə gəlmiş kimi düşmən mövqelərini dəlik-deşik etmişdir. Mübariz bir silahı boşaldıb, o birini götürürdü...*

*Gecə yarısından başlayan mübarizə xeyli davam etdi... Sonra haradansa xain bir güllə gəldi. Vəhşi bağırtıyla uğuldadı... Uladı... Mübarizin sinəsinə sancıldı. Düşdüyü yeri parçaladı, dağıtdı... Sanki bir dağ çökdü. Ucadan uca bir dağ. Bir qaya paramparça oldu. Şiş ucu göylərə meydan oxuyan bir qaya. Bir oğul yıxıldı – "YA VƏTƏN", – deyib çağırdığının sinəsinə. Yıxıldı… Üzündə təbəssüm, səmaya dirənmiş gözlərində sonsuz sevinc: Allahım! Qürurla ölmək nə böyük xoşbəxtlik imiş. Nə qədər uca zirvə imiş ŞƏHİDLİK ZİRVƏSİ!..*

*Yenə haradansa həmin meh əsdi. Yenə yovşan ətri və "Qarabağ şikəstəsi" qarışıq... İsa-Musa quşunun yorğun nəğməsi son dəfə səslənib susdu: "İsa, tapdın?.. Musa, yox... İsa tapdın?.. Musa..."*

***Sevinc Nuruqızı***

**Plan-başlıq**

1. Qəti qərar
2. Son məktub
3. Hücum
4. Şəhidlik zirvəsi

**Plan-sual**

1. Qəti qərar nə idi?
2. Məktubda nə deyilirdi?
3. Düşmən niyə ordunun hücuma keçdiyini zənn etdi?
4. Mübariz hansı arzusuna çatdı?

**Plan-tezis**

1. Son qərarı təkbaşına qisas almaq idi.
2. Son məktubu halallıq üçün idi.
3. Təkbaşına bir ordu kimi hücuma keçdi.
4. Şəhidlik zirvəsi son mənzili oldu.

**Plan-sitat**

1. "… and içirəm ki, bu gecə düşmən qarşımda diz çökəcək".
2. "İnşallah, Cənətdə görüşərik".
3. "Ulu Yaradan ona doyunca qisas almaq üçün qanad vermişdi, nədi?!"
4. "İsa, tapdın?.. Musa, yox..."

Tərtib edilmiş planları aşağıdakı tələblərə əsasən nəzərdən keçirmək uyğun görülür:

**Forma vahidliyi.** Plan başlıq, tezis və ya sual formalarından biri əsasında tərtib edilməlidir.

**Məntiqilik.** Planın bəndləri aydın və məntiqi ardıcıllıqla verilməlidir.

**Təkrardan qaçma.** Planın bəndləri məzmunca təkrar edilməməlidir.

**Əhatəlilik.** Plan mətndə öz əksini tapan bütün məlumatı əhatə etməlidir.

**Mövzunun inkişafı.** Məna vahidləri mətnin inkişaf xətti üzrə sadalanmalıdır.

**Lakoniiklik.** Planın 5-7 bənddən artıq olması uyğun deyil.

Qarışıq plan da yazmaq mümkündür. Bu, adətən, geniş planlar üçün məqbuldur. Məsələn, əsərin fəsillərinə verilən başlıqlara tezis plan yazmaq olar. Yaxud, başqa bir prinsip gözlənilə bilər. Mətnin ideyasına uyğun planın bəndləri həm plan-başlıq, həm plan-tezis şəklində yazıla bilər. Lakin bütün hallarda plan tərtibi kortəbii aparılmamalı, hər hansı bir prinsipə əsaslanmalıdır.

**ŞAGİRD MƏTNİNİN YOXLANILMASI**

Yazılmış mətn və onunla bağlı emosiyalar təzə və güclü olduğu üçün səhvlərin və uyğunsuzluqların müəyyənləşdirilməsinin çətin olması səbəbindən yazı işini tamamlandığı anda yoxlamaq məqsədəuyğun görülmür. Ona görə də yazı işinin təşkili üçün iki dərsdən istifadə etmək

məsləhət görülür. Müəllim esseyə hazırlıq işini bir dərsdə aparırsa, ertəsi gün essenin yazılması həyata keçirilir. Növbəti həftə dərs essenin yoxlanılmasına sərf edilir.

Mətnin redaktə işi şagird öz yazısını yoxladıqda deyil, yoldaşlarından birinin yoxladğı zaman daha səmərli olur. Lakin bunun üçün şagirdlərdə başqasının mətni ilə davranış mədəniyyəti formalaşdırmaq lazımdır:

- Tənqid şəxsə deyil, yazı mətninə yönəldilir;
- Öncə yazının müsbət cəhətləri dəyərləndirilir, sonra uyğunsuzluqlar qeyd olunur;
- "Səhv" sözündən çəkinib, "uyğunsuzluq" sözündən istifadə olunması tövsiyə olunur;
- Şagirdin tənqidi qeydlərə qarşı öz arqumentlərini gətirmək hüququ tanınır.

Yoxlama zamanı şagirdlər aşağıdakıları dəyərləndirirlər:

– cümlələr necə tərtib edilib, fikri qüvvətləndirmək üçün sözlərin yerinin dəyişilməsinə ehtiyac varmı;

- hadisələrin ardıcıllığı necə verilmişdir, səbəb-nəticə əlaqələri pozulmayıb ki, həmçinin bir epizoddan başqasına keçən zaman əsaslandırılmamış keçidlər yoxdur ki;
- mətn abzaslara düzgün ayrılıbmı;
- mətnin mövzusundan kənar informasiyalara yol verilməyib ki.

Hər bir "müəllif" öz yazısında dəyişikliklər edə bilər, bir sözü başqasıyla əvəzləyə bilər və s.. Mətnin məzmun və strukturunu yoxlayıb uyğunsuzluqları aradan qaldırdqdan sonra şagirdlər düzgün yazı bacarıqlarını yoxlayırlar.

Mətnin üzərində düzəlişlər tamamlandıqdan sonra esseni yenidən köçürürlər. Bu fəaliyyət sinifdə də aparıla bilər, evə də tapşırıla bilər.

Müəllim yalnız sonuncu variantı qiymətlndirir və jurnalda qeydlər edir. Həmçinin yazı işində şagirdin məsuliliyyətiinin dəyərləndirilməsi də səmərəlidir.

## MƏTN TƏSHİHİNİN SİRLƏRİ

Mətni redaktə etmək nə qədər vacibdir? Ernest Heminquey demişdir: "Əksər yazıçılar öz sənətlərinin ən vacib hissəsini gözdən qaçırırlar: yazılarının redaktəsi, yonma. Yazını toreadorun ölümcül nizəsi itiliyində olana qədər yonmaq".

Bunu belə izah edək: yazı işinin son mərhələsini – redaktə işini və mətni təkmilləşdirməyi sürətləndirmək sizin üçün hədəfə çatdığınıza əmin olmaq imkanıdır.

Birinci addım müəyyən bir mövzuda mətn yazmaqdır. Sonra buna nə qədər nail olunduğu müəyyənləşdirilir.

Təcrübələr göstərir ki, çoxları necə redaktə etməli olduqlarını bilmirlər. Çoxları mətnin qaralama variantını yazır, sözlərin düzgünlüyünü və durğu işarələrini yoxlayıb, yazını təhvil

verirlər. Bəs mükəmməl mətn necə olmalıdır? Heminqueyin qeyd etdiyi kimi, nizə itiliyində yazını tərtib etməyin yollarını nəzərdən keçirək.

**Başını kəsin**

İlk növbədə, birinci abzasda nə yazdığınıza baxın. Onu silmək mümkündürmü?

Kiçik mətnlərdə ilk abzasın vacibliyi çox zaman şübhəli olur, lakin onu bütövlükdə silmək tələb edilmir. Sadəcə mətni təkmilləşdirmək  işini ilk sətirlərdən başlamaq tövsiyə olunur.

**Ayağını kəsin**

Yuxarıda qeyd edilmiş məqsədlə nəticə hissəsinin cümlələrinə diqqət etmək lazımdır.

Mətnin son iki abzasını diqqətlə oxuyun. Burada daha çox təkrarçılığa, sözçülüyə yol verilə bilir. Heç bir cümləni mexaniki silmək lazım deyil, sadəcə bu hissəyə daha ciddi tənqidi nəzərlə baxın: bütün qeydlər mətn üçün həqiqətəmi vacibdir?

**Hər altıncı sözü silin**

Kaliforniyadan olan bir redaktor – Skot de Vit "Hər altıncı sözü sil" elektron proqramın həmmüəllifidir. Proqramın əksərən lazım olan sözləri də silməsinə baxmayaraq, bu təcrübə ona göstərdi ki, mətnin redaktəsinə daha ciddi yanaşmaq mümkündür.

Öz mətninizə nəzər salın. Əgər siz hər altıncı və ya beşinci, hətta dördüncü  cümləni silsəniz, nə baş verər? Şübhəsiz, bu zaman siz vacib cümlələri də itirəcəksiniz. Lakin bu təcrübə vasitəsilə daha konkret yazmağın mümkünlüyünə inanacaqsınız. Bu gün oxuculara qısa və sadə mətnlər lazımdır. Mətndə xüsusi funksiyası olmayan bütün cümlələri silin. Əgər bu hər altıncı sözü silməyi tələb edirsə, onu silin!

Hərdən müəlliflər düşünürlər ki, yazdıqları mətni qısaltmaq mümkün deyil. Onu mükəmməl hesab edirlər. Sizə min dollar təklif olunarsa, bunu edərsinizmi? Təbii ki, edəcəksiniz! Sizin mətniniz daşa yazılmayıb. Onu dəyişmək, hissələrini silib, yeni formaya salmaq mümkündür.

Hazır mətni oxuduğunuz zaman "Hər altıncı sözü silin" proqramını xatırlayın. Bu, sizin mətninizi daha təsirli edə bilər. Elmor Leonardın möhtəşəm fikrini yada salaq: "Mən mətni oxuduğum zaman  üstündən keçə bildiyim hissələri silirəm".

**Stiven Kinqin tövsiyəsini nəzərə alın**

Bestsellerlər müəllifi, "dəhşətlər korolu" Stiven Kinq yazdığınız mətnin surətini çıxarıb on dostunuza oxutmağı tövsiyə edir. Onlardan əks əlaqəni – yazınızı redaktə etmələrini xahiş edin. Hər kəs çəkinmədən öz fikrini bildirsin. Siz özünüzü tənqidə məruz qoyursunuz, amma əvəzində ödənişsiz redaktə əldə edəcəksiniz.

Ancaq hər şeyi ürəyinizə çox yaxın buraxmayın. Təsəvvür edin ki, siz araşdırmaçısınız, sadəcə ictimai fikir sorğusu aparırsınız: yazınız kimin xoşuna gəldi? Kim bəyənmədi? Bəyənilməyən nə oldu?

Kinq əks əlaqə zamanı əldə edilən fikirləri qeydə almağı təklif edir. Başqa sözlə, on oxucudan beşi sizin mətnin hansısa bir abzasını anlamayıbsa, onu yenidən yazmaq lazımdır. Əgər başlığınız çoxuna xoş gəlmədisə, onu dəyişin. Əgər siz bir-biri ilə səsləşməyən bir çox rəylər almışsınızsa, narahat olmağa əsas yoxdur – hər kəsi razı salmaq olmur.

**Kimsə yazdığınız mətni səsli oxusun**

Mətnin səlis yazıldığının müəyyənləşdirilməsinin ən səmərəli üsullarından biri budur. Dostunuzdan xahiş edin, sizin mətninizi yanınızda səsli oxusun. Oxu prosesi səhvların görünməsinə kömək edir. Dostunuz oxuyarkən onu dinləyin və onun üzünə davamlı baxın. Əgər o, bir cümləni təkrar oxumağa ehtiyac duydusa və yaxud alnını qırışdırdısa, qaşlarını çatdısa, demək, həmin cümləni redaktə etmək lazımdır.

Yüngül, sadə və aydın mətnlər hipnostik olur, ona görə də səmərə verir.

**Səsli oxuyun**

Öncəki əməliyyatla oxşar olsa da, ondan səmərəli hesab olunmur. Lakin səsli oxuma sizə başqa perspektiv açır. Bu səbəbdən bunu etmək lazımdır. Məsələ ondadır ki, mətni özünüz yazdığınız üçün sözləri necə oxuyacağınızı bilirsiniz. Bu zaman səhvlar gözə çox çarpmaya bilər.

**Ödənişsiz xidmətdən istifadə edin**

Əgər yazarkən siz birbaşa “altı sözdən birini sil” prinsipinə əməl edəcəksinizsə, qrammatikanız avtomatik olaraq yaxşılaşacaq. Tədqiqatlar göstərir ki, redaktə etmək “azarından” qurtularsınızsa, mətni sövq-təbii olaraq qrammatik qaydalara riayət etməklə yazacaqsınız.

**Elektron dəstəklər də sizin köməyinizə çata bilər**

Birincisi, kompüterin qrammatik yoxlama proqramından istifadə edə bilərsiniz.

İkincisi, hər zaman onlayn-resurslardan yararlanmaq, mütəxəssilərə müraciət etmək olar.

**Fasilə verin**

Müəyyən müddətə mətninizi kənara qoyun. Yazdıqlarınızı unudun. Niyə? Sonra öz yazınıza yad bir mətnə baxırmış kimi aydın baxışla baxmaq üçün.

**Kəsmək və yerləşdirmək**

Kompüter olmadığı dövrdə mütəxəssislər çap makinasında yazılmış mətn vərəqlərini abzaslara görə kəsib, müxtəlif ardıcıllıqla düzüb oxuyurdular. Ən uyğun versiyanı seçirdilər.

Təkrar edirik: sizin də mətniniz daş üzərində yazılmayıb. Mətni təkmilləşdirmək üçün abzasların yerini dəyişmək, hər hansı abzası silmək, yenilərini yazmaq mümkündür.

**Kissinceri düşünün**

Kissincer öz köməkçilərindən birinə material yazmağı tapşırır. Köməkçi yazır və göndərir. Ertəsi gün əlyazma yaşıl mürəkkəbli bir qeydlə köməkçinin masasının üzərində olur: “Siz daha yaxşı yaza bilərsiniz”.

Köməkçi mətnin üzərində işləyir və yenidən göndərir. Ertəsi gün o həmin əlyazmanı başqa bir qeydlə masasının üstündə görür: “Siz daha yaxşı yaza bilərsiniz”.

Köməkçi mətni ciddi redaktə edir, bir neçə fakt əlavə etməklə yenidən köçürüb, təkrar-təkrar oxuyub materialı Kissincerə verərək deyir: “Ser, mən əlimdən nə gəlirdisə, etdim”.

Kissincer əlyazmanı alır və deyir: “Bu halda mən bunu oxuyaram”.

Kissincer əvvəlki versiyaları heç oxumamışdı! O, sadəcə köməkçisini mümkün qədər yaxşı işləməyə məcbur etmişdi.

Siz həmişə daha yaxşı edə bilərsiniz.

**Son söz**

Yazını nə zaman bitirməli?

Siz materialın ən parlaq formada cilalanmağına necə əmin olursunuz? Bunu hələ heç kim söyləyə bilməyib. Lakin “bumeranq üsulu”ndan istifadə etmək olar: əlindən gələni edib, sonra məqsədə çatdığını görmək üçün “buraxmaq”.

Materialı hətta illərlə yazmaq olar. Amma lazım deyil! Sizdən asılı olanları edin və yayımlayın. Əks əlaqə mətnin üzərində dəfələrlə işləməkdən daha səmərəli olacaqdır. Albert Eynşteynin fikri üzərində düşünün: “Hər şeyi imkan daxilində sadə etmək lazımdır, amma sadədən zəif deyil”.

## Fəsil 2. MƏTN TƏRTİBİNDƏ SƏMƏRƏLİ ÜSULLAR

### TASA – TƏHLİL

**(Oxuyub-anlama üsulu)**

Mətn əsasında esse və inşa yazı işlərinin aparılması Azərbaycan dili və ədəbiyyat fənlərinin tələblərinə daxil olduğu üçün yazı işinin təşkili metodikası mətnin oxusu ilə üzvi surətdə bağlıdır. Bu sahədə metodik vəsaitlərin azlığını nəzərə alaraq yazı işinin təşkili texnikalarından danışarkən mətnlərin tərtibi ilə bağlı səmərəli üsullarla yanaşı, oxuyub-anlama üsullarından da bəhs etmək məqsədəuyğundur.

Oxuyub-anlama üzrə metodik üsullardan biri TASA – Təhlildir. TASA – “Tezis – Təhlil – Sintez – Açar” sözlərinin abreviaturasıdır. Bu üsulun funksiyası mətnin müxtəlif məqamları üzərində sərbəst düşünməyə kömək etməkdir.

Üsul oxu zamanı üzərində düşünüləcək on ardıcıl sualı əhatə edən cədvəlin tərtibi və tətbiqindən ibarətdir. Cədvəldə öz əksini tapan suallara mümkün qədər rasional cavab vermək tələb olunur. Burada biz hər hansı bir mətnin tezis və antitezislərinin çıxarılması bacarığı ilə qarşılaşırıq.

| Sual | Cavab |
|---|---|
| 1. Hansı mövzu müzakirə edilir? | |
| 2. Mətndə əsas fikir nədən ibarətdir? | |
| 3. Ehtimallarınızı irəli sürün: verilmiş fikrin təsdiq və ya inkarı üçün tərəf müqabiliniz (müəllif) nə söyləyə bilərdi? | |
| 4. Əsas fikir və onun təkzibi nəyi dəstəkləyir? Sübutlarınızı ayrı-ayrı xanalarda sadalayın. | |
| 5. Mətndə anlaşılmaz, çətin, yeni söz və ifadələr işlənibmi? Əgər cavabınız təsdiqdədirsə, həmin sözləri müəyyənləşdirin və izah edin. | |
| 6. Əsas fikrin müdafiəsi və təkzibinin qiymətləndirməsini aparın. Mübahisəli nəticələri, diqqətdən kənarda qalan məqamları, yanlış yekunları və digər zəif hissələri müəyyənləşdirin, | |
| 7. Əsas fikirdə və ya onun sübutlarında boşluqlar, dəyərlərin vurğulanması və ya ideoloji təsir görürsünüzmü? Onları tapın və fikrin obyektivliyinə təsirinin dərəcəsini müəyyənləşdirin. | |
| 8. Əsas tezis mübahisəlidirmi və ya müdafiə üçün uyğundurmu, yaxud uyğun deyil, mürəkkəbliyinə görə anlaşılmaz deyil ki? | |
| 9. Nitqinizi ardıcıllığa uyğun qurun:<br>Baxmayaraq ki, ....(müəllifin əsas fikri), ... ( sizin nəzər nöqtəniz), çünki ... (müəllifin fikrinin obyektivliyinə inanmamağa əsas verən səbəblər).<br>Yaxud:<br>Müəllifə görə, .....(müəllifin əsas fikri), həqiqətən, .... (sizin nəzər nöqtəniz), çünki.... (müəllifin fikrinin obyektivliyinə inanmağa əsas verən səbəblər). | |
| 10. Lazım olarsa, əsas fikrinizi bir daha nəzərdən keçirin və TASA-nın bütün mərhələlərini təkrar edin. | |

Təklif edilən üsul şagirdi mətnə həm oxucu, həm də həmmüəllif qismində yanaşmağa sövq edir ki, bu, ona oxuyub-anlama və sübutlarla iş arasında əlaqəni qurmağa kömək edir. Bundan başqa, TASA oxucunun əsərdəki dəyərlər və fikirlərə xoşməramlı, lakin tənqidi münasibtini formalaşdırır.

TASA-dan istifadə şagirdlərin öxuma və oxuduqlarını qiymətləndirmə bacarığını əhəmiyyətli dərəcədə inkişaf etdirir. Bu isə qrup müzakirəsinə hazırlaşarkən mətndə zəif yerləri aşkarlamaq,

material çatışmazlığını müyəynləşdirmək, yanlış mülahizələr, əsassız istinadlar üzərində işləyərkən özünü aydın şəkildə göstərir. Bununla da, öyrənənlərdə sübut etmə bacarığını formalaşdırır.

**SİNKVEYN**

*Sinkveyn.*

*Obrazlı, qısa.*

*Düşündürür, aydınlaşdırır, izah edir.*

*"Az söylə, söz söylə".*

*Mühakimə.*

Sinkveyn tədris metodu olaraq universal xarakter daşıyır. Onu müxtəlif fənn proqramlarının mövzularına tətbiq etmək olar. Bu metod şagirdləri maraqlandırmağa, öyrənilən materialı daha yaxşı anlamağa və mühakimə yürütməyə kömək edir. Beş sətirlik şeir olan sinkveyni yazmaq asan olduğu üçün onun bütün siniflərdə tətbiqi mümkündür.

Sinkveyn – məlum olan və ya yeni əldə edilmiş məlumatların analizi və sintezi nəticəsində yazılan öyrədici şeirdir.

Təlim prosesində sinkveyndən müxtəlif məqsədlərlə istifadə olunur:

1. Dərsin giriş hissəsində şagirdləri yeni mövzu ilə tanış edərkən;

Şagirdlər təklif olunmuş mövzu üzrə təsəvvürlərini əks etdirən şeir tərtib edirlər. Bu, müəllimə şagirdlərin mövzu ilə tanışlıq dərəcəsini müəyyənləşdirməyə imkan verir. Sonra isə o, yeni məlumatlarla materialın daha doğru mənimsənilməsini təmin edir.

2. Məlumatların müzakirəsi mərhələsində;

Bu mərhələdə sinkveyn tərtib etmək müəllimə şagirdlərin öyrənilən mövzunu necə anladıqlarını təhlil etməyə imkan verir. Dərsi daha maraqlı edir, çünki sinkveyn həm də əyləndirici metoddur.

3. Refleksiya mərhələsində;

Fikirlərin yığcam şəkildə obrazlı ifadəsi müəllimə şagirdlərin öyrənilən materialı mənimsəmə səviyyələrini müəyyənləşdirməyə imkan verir. Sinkveyn refleksiyanın sürətli və güclü alətidir.

4. Yazı işinin təşklilində;

Azərbaycan dili və ədəbiyyat dərslərində müəyyən bədii əsərin təhlili ilə bağlı esse və ya inşanın yazılmasında, hekayə quruculuğunda sinkveyndən plan kimi istifadə etmək olar.

4. Sinkveyndən bütün fənlərin öyrədilməsində istifadə etmək olar;

Sinkveynin tərtibi yaradıcı fəaliyyətdir və çox zaman humanitar fənlərin öyrənilməsində tətbiq edilir. Lakin təlim prosesini zənginləşdirmək, daha maraqlı və interaktiv etmək üçün texniki və təbiət fənlərində də bu metodu tətbiq etmək olar.

**Ədəbiyyat fənni üzrə**

"Qarğa və tülkü" əsərinin obrazlarının xarakterini açan sinkveynlər:

*Qarğa.*

*Ağılsız, müştəbeh*

*inanır, aldanır, uduzur.*

*Tərif qarğaya xoş gəlir.*

*Sadəlövhlük.*

*Tülkü.*

*Bic, fəndgir.*

*Yaltaqlanır, aldadır, qazanır.*

*İstədiyini əldə edə bilir.*

*Hiyləgərlik.*

**Azərbaycan dili fənni üzrə**

*Nitq.*

*Ardıcıl, məntiqli;*

*Düşündürür, ümumiləşdirir, ifadə edir.*

*"Danış, mən səni görüm".*

*Mətn.*

*Yazı.*

*Maraqlı, heyrətamiz.*

*Təəccübləndirir, düşündürür, sevdirir.*

*Yazı - insanın özünüifadə vasitəsidir.*

*Yaradıcılıq.*

**MƏNTİQİ TƏFƏKKÜRÜ İNKİŞAF ETDİRMƏYİN QISA YOLU - MİNN**

**MİNN –** şagirdlərin refleksiya və mühakimə qabiliyyətini formalaşdırmaq üçün səmərəli və optimallığına görə əvəzedilməz olan bu interaktiv üsul Cənubi Afrikalı, hüquq üzrə professor Devid Makkoyd-Meyson tərəfindən yaradılmışdır.

İngiliscə belə yazılır: PRES – Position – Reason – Explanation or Example-Summary. Rus dilinə isə POPS – (Позиция – Обоснование – Примеры - Следствие) kimi tərcümə olunur. Bu texnoloji üsulun əhəmiyyəti ondadır ki, hər hansı mövzuyla bağlı qısa zaman çərçivsində dörd-beş cümlə ilə ətraflı şəkildə şagirdlərə öz mövqelərini bildirmək imkanı verir.

Müəllim dərsin sonunda öyrənilən materialın şagirdlər tərəfindən nə qədər keyfiyyətli mənimsənildiyini yoxlamalıdır. Suallar, sərbəst işlər, testlər bunun üçün ya çox vaxt tələb edir, ya da şagirdin materialı hansı səviyyədə mənimsədiyini müəyyənləşdirməyə imkan vermir. Bu zaman şagirdlərə MİNN formulunun dörd məqamını əks etdirən dörd cümlə yazmaq təklif edilir:

**M** – Mövqe

**İ** – İzah

**N** – Nümunə

**N –** Nəticə

Əgər mətnin yazılması üçün şagirdə struktur təklif edilməsə, bunu texnoloji üsul adlandırmaq olmaz. Bunun üçün də şagirdlərin MİNN-in strukturu ilə tanış edilməsi vacibdir.

**MİNN-in strukturu**

Birinci cümlə (məsələyə öz münasibətini bildirir): ***«Mən düşünürəm ki, .....».***

İkinci cümlə (mövqeyinin səbəbini izah edir): **"Çünki...."**

Üçüncü cümlə (mövqeyinin doğrulunu sübut etmək üçün faktlara, sitatalara, şəxsi təcrübəsinə və s. istinad edir):

**"Mən bunu .................................................. nümunələrlə isbat edə bilərəm".**

Dördüncü cümlə (fikirlərini ümumiləşdirir, qənaətini bir cümlə ilə ifadə edir): **"Bundan çıxış edərək belə qənaətə gəlirəm ki, ...................."**

Beləliklə, müəllim az müddət ərzində şagirdlərin mövzunu qavramasının, faktların, təzahürlərin, hadisələrin dəyərləndirməsi səviyyəsini öyrənmək üçün imkan qazanır.

MİNN üsulu debat və müzakrələrin aparılmasında da istifadə edilir.

MİNN şifahi mühakimə üsulu kimi tətbiq olunmaqla yanaşı, yazı işinin təşkilində də əvəzolunmaz texnologiyadır.

**MİNN formulu – mühakimə xarakterli essenin sxemidir.** Tədris prosesində bu üsulun tətbiqi vasitəsilə esse yazı işinin alqoritmi daha səmərəli və tez mənimsəniləcək. MİNM yuxarı sinif

şagirdlərinin esse yazı işinə hazırlaşması prosesində ən səmərəli üsuldur. Çünki essenin strukturunun əsasında MİNM-in strukturu durur.

| *Essenin strukturu* | *MİNN formulu* | *Şablon* |
|---|---|---|
| 1. Mövzunun məğzinin açıqlanması (tezisin verilməsi);<br>2. Müəllif mövqeyinin səbəbi və arqumentləşdirilməsi (mövzunun nəzəri əsaslarına və əsas anlayışlarına, tarixi faktllar, müasir ictimai həyat, şəxsi təcrübələrə əsaslanaraq);<br>3. Mühakimlərin və arqumentlərin səviyyəsi (ictimai anlayışlarla və terminlərlə ifadə olunan biliklərə, ümuniləşdirilmiş qənaətlrə, əsaslanaraq) və ya məişət təfəkkürünün səviyyəsi (gündəlik həyatda formalaşmış təsəvvürlərə əsaslanaraq);<br>4. Fikirlərin ümumiləşdirilməsi (tezisdə qoyulan problemin həlli yolunun göstərilməsi və ya girişdə qoyulmuş suala cavab verməklə). | **M – Mövqe** (Sizin mövqeyiniz nədən ibarətdir?).<br>**İ - İzah**<br>(Niyə belə düşünürsünüz? Düşüncənizə səbəb olan amilləri göstərirsiniz.)<br><br>**N – Nümunə** (Səbəbləri əks etdirən faktları sadalayırsınız)<br><br>**N – Nəticə** (Mövqeyinizin dəqiq ifadə olunması üçün qənaətinizi açıqlayırsınız). | Mən düşünürəm ki, ....<br><br>Çünki…<br><br>Məsələn. …<br>…<br><br>Belə nəticəyə gəlirəm ki, .... |
| Esse = MİNN | | |

**MİNN üsulunun praktikada istifadəsindən nümunə**

**J.Joresin deyimi haqqında esse**

(Esse MİNN əsasında yazılmışdır)

**«İnqilab – inkişafın barbar üsuludur» (J.Jores).**

Mən J.Joreslə razılaşıram. Zorakılığa və öz xalqı üçün faciəli aqibətlərə əsaslanmış ictimai inkişaflar sivil ola bilməz.

Çünki ilk növbədə, tarixin təbii davamı pozulur. İkincisi, inqilablar dəhşətli ölümlərə səbəb olur, xalqları vətəndaş müharibəsinə sövq edir, taleləri qırır. Çox zaman da bir neçə günə yekunlaşmır.

Nümunə olaraq, Böyük Fransız inqilabının nəticəsində beş illik hakimiyyəti və Rusiyada Oktyabr inqilabının sayəsində yetmiş iki illik rejim altında insanların həyatını düşünmək kifayətdir. Həmçinin inqilab dövrünün "kəşf"ləri və metodları da – saysız-hesabsız olaraq insanların həyatını əlindən almış gilyotinlər, repressiyalar da unudulmazdır. İstənilən inqilabın nəticəsində nə zamansa cəmiyyət yenidən öz inkişafında geriyə - zorən qoparıldığı dövrə dönmüş olur.

Buna görə də Jores, qeydsiz və şərtsiz, haqlıdır. İnsanlıq öz inkişafı üçün təkamül yolunu seçməlidir. Zorakı yolla sosial inkişaf isə demokratiya və sülh uğrunda yaşayan cəmiyyətə deyil, barbarlara məxsusdur.

**İKİHİSSƏLİ GÜNDƏLİYİN MÖVZUNUN TƏHLİLİNDƏ ROLU**

İIkihissəli gündəlik – yazılı nitqi inkişaf etdirən pedaqoji üsuldur.

Mətni araşdırmağa, oxucunun informasiyaları öz təcrübəsi ilə əlaqələndirməklə qavradığını yazılı şəkildə ifadə etməyinə şərait yaradır.

Məqsədi:

- öyrənilən mövzuya maraq yaratmaq;
- yazılı nitqi inkişaf etdirmək;

**Üsulun mərhələli təsviri**

Şagirdlərə öncədən müəyyənləşdirilmiş oxu materialı təqdim edilir.

Hamının mətnlə tanış olduğuna əmin olduqdan sonra dəftər vərəqinin şaquli istiqamətdə iki hissəyə ayrılması xahiş olunur.

Sonra şagirdlərdən sol hissəyə əsərdən bəyəndikləri və ya bəyənmədiklərii sitatları (ideya, fikir) sol hissəyə yazmaları istənilir.

Sağ tərəfdə isə həmin sitatlara şərhlər yazaraq öz seçimlərini və mətndən çıxardıqları nəticəni əsaslandırırlar.

Bu mərhələdə şagirdlərə könüllü olaraq seçdikləri sitatları və onlara verdikləri şərhləri oxumaq təklif olunur. Fikirlərlə tanışlıq prosesində müəllim sual verə bilər, yaxud öz variantını təklif edə bilər, digər alternativləri istəyə bilər.

Növbəti mərhələdə şagirdlər cütlərə və ya kiçik qruplara ayrılaraq eşitdiklərini müzakrə edə bilərlər və yoldaşlarının işində bəyəndiklərini və ya razılaşmadıqları fikirləri qeyd edə bilərlər.

Müəllimə tövsiyə:

Siz öncədən mətnin həcmindən asılı olaraq sitatları (2-3 sitat) seçə bilərsiniz.

Mətni mütləq şəkildə məktəb proqramına uyğun seçmək lazımdr.

Şagirdlərə öz mühakimələrini (müzakirədən sonra) inşa və ya esse şəklində ifadə etməyi təklif etmək olar.

**İNSERT ÜSULUNUN DÜŞÜNCƏNİN YÖNLƏNDİRİLMƏSİNDƏ ROLU**

İNSERT – tənqidi təfəkkürün inkişafının səmərəli texnoloji üsullarından biridir.

Üsulun abreviaturası aşağıdakı mənaları əks etdirir:

İ - İnteractive (interaktiv).

N — Noting (idraki).

S — System  for (sistem).

E — Effective (səmərəli).

R — Reading (oxu).

T — Thinking (və təfəkkür).

Abreviaturanın açılışınının məzmunundan belə bir anlayış alınır: **Oxu və təfəkkür (oxuyub-anlama) üçün səmərəli interaktiv-idraki sistem.**

Buradan çıxış edərək üsula belə tərif vermək olar: İnsert – elmi-publisitik, informativ mətnlərlə iş əsasında tənqidi təfəkkürün oxu və yazı vasitəsilə inkişafının texnoloji üsuludur. İNSERT-i işarələməklə oxu üsulu da adlandırırlar.

**Yadda saxlayın:** İNSERT üsulunun hər bir istənilən bədii mətn üzrə işin təşkilində tətbiqi məqsədəuyğun deyil. Üsuldan daha çox informativ mətnlərin oxusunda istifadə edilir. Avtobioqrafik xarakterli və tarixi-bədii mətnlərin təhlilində də istifadə etmək mümkündür.

**İNSERT dərslərdə necə tətbiq olunur?**

1. Şagirdlər mətn üzərində  xüsusi işarələrlə qeydlər apararaq oxuyurlar:

V — Mən bunu bilirəm;

+ — Bu, mənim üçün yeni məlumatdır;

- — Bu, mənim bildiklərimə ziddir.

? — Bu, mənə aydın deyil, dəqiqləşdirməyə ehtiyacım var.

**Tövsiyə:** mətn üzərində qeydləri adi karandaşla aparmaq lazımdır. Yaxud dərsliyi qaralamamaq üçün mətnin kənarlarında işarələnmiş yapışqanlı vərəqlərdən istifadə etmək olar.

**2. Cədvəl doldurulur:**

| V | + | — | ? |
|---|---|---|---|
| **Şagird artıq məlum olan terminlər, anlayışlar, faktlarla bağlı fikirlərini tezis şəklində yazır.** | Mətndən aldığı yeni məlumatları yazır. | Öncəki bilik və təsəvvürləri ilə uyğun olmayan məlumatları qeyd edir. | Anlaşılmayan və ya dəqiqləşdirilməyə ehtiyacı olan məqamları qeydə alır. |

3. Cədvəl bir neçə şagird tərəfindən müzakirəsiz oxunur (seçmə yolu ilə), hər kəs öz qeydlərini aparır.

4. Mətn təkrar oxunur. Bu mərhələ artıq fəaliyyətin təfəkkür mərhələsidir. Bu zaman cədvələ əlavələr edilə bilər və ya bir sütunda olan fikir digərinə keçirilə bilər.

5. Refleksiya. Bu mərhlədə cədvəldə qeyd edilənlər müzakirə ounur. Biliyin necə toplanmasının təhlili aparılır. Köhnə baxışdan yeni yanaşmalara keçid aydın və əyani olur.

**İNSERT üsulunun tətbiqi**

Üsulun tətbiqinə başlayarkən öncə kiçik mətnlər seçmək uyğundur ki, şagirdlər cədvəllə işləməyə alışırlar.

- Üsulun tətbiqinin ilk günlərində onlardan mətnin tezisini yazmağı deyil, şifahi söyləmələrini xahiş etmək olar. Tezis çıxarmaq vərdişini yaratmaq mütləq şərtdir.
- Cədvəl sütunlar üzrə tamamlanmalıdır. Öncə birinci sütun tamamlandıqdan sonra digərləri ardıcıllıq prinsipi ilə davam etdirilir.
- İbtidai siniflərdə sütunları 3-ə endirmək olar: bilirəm – istəyirəm biləm – bildim (BİBÖ).
- Üsul üzrə iş fərdi olduğu kimi, cütlərlə və ya qrupda aparıla bilər.

**İNSERT üsulundan nə zaman istifadə etməli?**

İNSERT üsulu yeni materialların öyrənilməsində, və ya yeni biliklərin və bacarıqların aktiuallaşdırılması üçün istifadə edilir.

Üsul şagirddən passiv oxu deyil, diqqətli oxuma tələb edir. Şagird əgər əvvəllər mətndə anlamadığı məqamların üzərindən keçirdisə, bu üsul vasitəsilə mətnin hər bir cümləsinə diqqət etmək vərdişinə yiyələnəcək.

Böyük materialın məzmunu üzərində işləyərkən İNSERT-dən istifadı etmək daha səmərəlidir.

**Tənqidi təfəkkürün formalaşdırılmasında İNSERT-in rolu**

Oxu və yazı vasitəsilə tənqidi təfəkkürün formalaşdırılması üzrə dərslərdə İNSERT xüsusi formul üzrə tətbiq edilir: yönləndirmə, anlama, qavrama.

**Yönləndirmə**

- şagirdləri yeni informasiyaların qəbuluna istiqamətləndirir. Ənənəvi dərslərdə bu mərhələ biliklərin aktuallaşdırılması adlanırdı.

**Anlama** — yeni biliklər, yeni anlayış və terminlərlə tanış olma mərhələsidir.

**Qavrama** — yeni biliklərin mənimsənilməsi, baza bilikləri ilə müqayisə, dəyərləndirmə və təhlil mərhələsidir

Hər mərhələ üçün ayrıca üsullar təklif olunur. Məsələn, yönləndirmə mərhələsində klaster, ideyalar səbəti, ehtimallar ağacı, beyin həmləsi üsullarından istifadə etmək olar.

Təfəkkür mərhələsində "Fasilələrlə oxu", "Blum kərpici", "Geniş və dar suallar"", BİBÖ cədvəli kimi üsullardan istifadə etmək olar.

Qavrama mərhləsinə sinkveyn, suallar çobanyastığı, esse kimi üsullar uyğundur.

İNSERT üsulu dərsin hər mərhləsində faydalıdır.

Birincisi, artıq məlum olan bilikləri xatırlamağa, dərsin yönləndirilməsində lazım olan biliklərin aktivləşdirilməsinə kömək edir.

İkincisi, mətndən yeni məlumatları – anlamaq üçün lazım olan bilikləri seçməyə imkan yaradır.

Üçüncüsü, qavrama və ya refleksiya mərhələsinin fəaliyyətinə - informasiyaların müstəqil analizinə, interaktiv müzakirəyə istiqamətləndirir.

Nəticə: İNSERT-i səmərəli tətbiq edə bilmək üçün təlimlərdə mütəmadi istifadə etmək lazımdır. Bəzən müəllimlər bir üsulu tətbiq etdikdən sonra "uşaqlar anlaya bilmirlər", "çox vaxt alır", "səmərəsi yoxdur" bəhanələri ilə tez imtina edirlər. Təbiidir ki, ilk dərslərdə şagirdlər sütunları doldurmaqda, mətni təhlil edərkən tezisləşdirərərk yazmaqda çətinlik çəkəcəklər. Lakin bunlar yeni üsuldan imtina etmək üçün səbəblər deyil. Əvvəlcə kiçik və sadə mətnlərdən başlamaq lazımdır. Cədvəli hətta iki sütundan da ibarət tərtib etmək olar: "Bilirəm", "Öyrəndim". Sonralar mətni mürəkkkəbləşdirə bilərsiniz.

İNSERT – ibtidai siniflərdə şagirdləri böyük mətnlər üzərində işləməyə hazırlamaq üçün səmərəli üsuldur.

## TƏNQİDİ TƏFƏKKÜRÜNİ İNKİŞAFI ÜÇÜN RAFT ÜSULU

**RAFT –** müəyyən mövzuda müxtəlif janr və formalarda yazılı mətnlərin tərtibi üçün istifadə edilən pedaqoji üsuldur. Bu üsul şagirdlərin mövzuya müxtəlif nəzər nöqtələrindən baxmaq və yazılı nitq vərdişlərini formalaşdırır.

RAFT üsulunun əsas vəzifəsi:

- Mühakimə sistemini formalaşdırmaqdır.

Şagirdin:

- diqqətini tədris mövzusuna yönəldir;
- yaradıcılıq qabiliyyətini üzə çıxarır;
- improvizasiya bacarığını formalaşdırır;
- təhlil və dəyərləndirmə bacarığını inkişaf etdirir.

**RAFT-ın açılışı:**

| Rol | Auditoriya | Forma | Tema (Mövzu) |
|---|---|---|---|
| **Rolun müəyyənləşdirilməsi üçün mövzunu kimin aça biləcəyi izah olunur.** | Verilmiş mövzunun kimlərə ünvanladığı izah olunur. | Janr və təhkiyə forması seçilir. | Mövzu seçilir, əsas ideyalar müəyyənləşir. |

**Məşğələyə hazırlıq**

RAFT üsulu üzrə təlimin təşkili seçilmiş mövzu üzrə dərin biliklər, fantaziya və aktyorluq bacarıqları tələb edir. Üsulun işləməsi üçün mövzu həm də maraqlı və aktual olmalıdır.

Məşğələdən öncə cədvəli hazırlamaq lazımdır, bunu cədvəli lövhəyə çəkməklə etmək olar. Dərs boyunca hər bir sütun təhlil olunub doldurulacağı üçün cədvəli hər kəsin görə biləcəyi səviyyədə təqdim etmək vacibdir.

**RAFT üsulunun mərhələləri**

- **Giriş mərhələsi**

Bu mərhələnin əsas məqsədi iştirakçıları prosesə cəlb etmək, fəaliyyəti motivləşdirməkdir. Geniş tətbiq edilən təlim üsulları assosiasiya və beyin həmləsidir.

Seçilmiş rolun icrası üçün şagirdlər bütün mümkün sosial qrupları təklif edirlər. Rolu müəllim də təklif edə bilər. Cədvələ 4-5 mövqe qeyd olunur.

İkinci sütuna mətnin hədəf auditoriyasını təşkil edən insanlar, insan qrupları, təşkilatlar qeyd edilir.

Sonra isə sosial rollara və mümkün oxucu auditoriyalarına ünvanlanacaq yazı üçün uyğun olan janr müəyyyənləşir və növbəti sütunda əks etdirilir.

Sonuncu sütunda mətnin əsas fikirləri və ideyası yazılır.

Cədvəl üzrə işin nəticəsi müəllim tərəfindən dəyərləndirilir.

İştirakçıalar arasında sosial rollar bölüşdürülür və onlar öz mətnlərini tərtib etməyə başlayırlar. Bu zaman onlara seçilmiş obyekti hiss etməyin, anlamağın, personajın üzləşəcəyi şərtləri nəzərə almağın nə qədər vacib olduğunu izah etmək lazımdır.

İş qrupla və ya fərdi aparıla bilər. Tapşırıq yerinə yetirildikdən sonra mətnlərdən bir neçəsi oxunur. Yazılarını oxumaq üçün şagirdlərin seçilməsi könüllü və ya püşk yolu ilə aparıla bilər. Tamamlanmış işlərin çox olmadığı təqdirdə bütün mətn sahiblərini dinləmək olar.

- **Mühakimə mərhələsi**

Şagirdlər dərslikdə olan mətnə baxır və ya əlavə materialla təmin edilirlər. Bu mərhələdə şagirdlər yeni informasiyalar alır, fikirlərini söyləyir və dəftərlərində qeydlərini aparırlar.

- **Refleksiya mərhələsi**

Refleksiya mərhələsi keçilmiş materialın analizini, təhlilini tələb edir. Şagirdlər onlara məlum və yeni olan informasiyaları müzakirə və müqayisə edirlər, eşitdikləri əsasında təhlillər aparırlar. Daha artıq səmərə əldə etmək üçün verilmiş mövzu üzrə əyani vəsaitlərdən istifadə təklif olunur: fotoqrafiya, slayd, nümunələr və s.. Bu, müzakirə olunan obrazın şagirdlərin təsəvvüründə formalaşmasına və əldə edilmiş biliklərin möhkəmlənməsinə kömək edir.

**RAFT üsulunun tətbiqi sahələri**

RAFT üsulunu  müxtəlif fənlərdə istifadə etmək olar. Məsələn:

Tarix dərslərində “feodal”, anlayışlarının izahı, müəyyən təbəqəərin və ictimai qrupların öyrənilməsi;

- ədəbiyyat dərslərində müxtlif bədii əsərlərin obrazlarının təhlili. “yazıçı”, “şair” anlayışlarının mahiyyəti, bədii əsərlər əsasında kiçik ssenarilərin yazılması;
- müxtəlif  peşə sahələri nümayəndələrinin xarakteristikasının  təhlili (jurnalistik, həbçilər. müəllimlər və s.).

**“SƏBƏB-FAKT-NƏTİCƏ” ÜSULU**

Bu üsul faktların səbəb-nəticə əlaqəsini müəyyənləşdirməklə kiçik araşdırma aparmağa şərait yaradır. Perspektivləri açmaqla hadisənin  gedişatını müəyyənləşdirməyə imkan yaradaraq şagirdlərin tapşırığı yerinə yetirmələrinə kömək etdiyi üçün refleksiya mərhəsində tətbiq olunacaq səmərəli üsuldur.

Məntiqi ardıcıllığı  davam etdirmək üçün  komponentlərdən yalnız biri təklif edilir. Şagirdlər verilmiş faktla bağlı səbəbi (və ya səbəbləri) seçirlər və onun nəticəsini müəyyənləşdirirlər, yaxud göstərilmiş səbəbə uyğun faktı və onun nəticəsini araşdırılar.

Nümunə:

Fakt: “Mən imla yazıdan üç aldım”.

Səbəb: Qaydanı öyrənməmişdim.

Nəticə: Bu qayda üzrə bir çox səhvlərə yol verdim. Növbəti imlanı yaxşı yazmaq üçün bu qaydanı öyrənməli və diqtə altında onu  tətbiq etməyi bacarmalıyam (korreksiya ilə bağlı məsələ belə qeyd edilir).

**“YAXŞI-PİS” ÜSULU**

Üsul dərsdə şagirdlərin ziddiyətlər haqqında təsəvvürlərini formalaşdırmaq üçün tətbiq edilir.

Üsulun formalaşdırdığı bacarıqlar:

- şifahi nitqin sərbəst və düşünülmüş ifadəsi;
- obyekti, situasiyanı müxtəlif aspektlərdən qiymətləndirmək;
- səbəb-nəticə əlaqəsinin qurulması;
- mühakimənin məntiqi ardıcıllıqla aparılması;
- İstənilən obyektdə, situasiyada müsbət və mənfi tərəfləri görə bilmək;
- ziddiyyəti həll etmək bacarığı.

Üsuldan ziddiyyətlər əsasında tezislərin yazılması və esse yazı işində ziddiyyətlərin həlli üçün istifadə oluna bilər.

**“RƏNGLİ SAHƏLƏR” ÜSULU**

İnteraktiv təlim üsuludur. Dərsdə yoxlama zamanı interaktivliyin yaradılması məqsədilə tətbiq edilir.

Şagird yoxlama işini yazarkən abzasları müəyyən rənglə seçir. Hər rəng bir mənanı ifadə edir, bu isə müəllimə müəyyən işarədir.

Qırmızı sahə - “Bütün səhvlərimi düzəldin”.

Yaşıl sahə - “Bütün səhvləri qeyd edin. Onları mən özüm düzəltmək istəyirəm”,

Göy sahə - “Səhvlərin sayını qeyd edin, onları mən özüm tapıb düzəldəcəm”.

## Fəsil 3. YAZI NÖVLƏRI VƏ ONLARIN FUNKSİYASI

Azərbaycan dilinin tədrisində yazı tapşırıqlarının məqsəd və vəzifələri fənn kurikulumunda Yazı məzmun xətti üzrə təlim nəticələrində öz əksini tapır.

Yazılı çalışmalar Azərbaycan dili dərsinin bir hissəsində, bəzən isə bütün dərs ərzində yerinə yetirilir, qiymətləndirmə vasitələri kimi istifadə olunur.

**ÜZÜNDƏNKÖÇÜRMƏ**

| Siniflər | Standart | Bilik və bacarıqlar |
|---|---|---|
| **III** | **3.1.2** | Tərkibində yazılışı çətin sözlərin işləndiyi mətni üzündən köçürür. |
| **IV** | **3.1.2** | İxtisar və əlavələr etməklə mətni üzündən köçürür. |

Üzündənköçürmə - ən sadə tədris yazı növüdür. Hərfləri yazmağı və birləşdirməyi bacaran hər bir uşaq artıq üzündənköçürməyə hazır olur. Üzündənköçürməni şüurluluq tələb etməyən mexaniki fəaliyyət kimi başa düşmək olmaz. Üzündənköçürmə yazı işinin təşkili görmə və hərəki orqanların birgə fəaliyyəti nəticəsində orfoqramların daha yaxşı yadda qalmasına səbəb olur, həmçinin şagirdlər sözlərin səs-hərf tərkibinə diqqət yetirirlər. Bu zaman onlar mexaniki şəkildə olsa da, sözlərin düzgün yazılışını mənimsəyir, o sözləri daxili nitq ilə tələffüz edir, həmin sözlərdən şifahi və yazılı nitqlərində istifadə edirlər.

**ƏZBƏR YAZI**

| Sinif | Standart | Bilik və bacarıqlar |
|---|---|---|
| I; II | 3.1.4 | Marağına uyğun seçdiyi kiçikhəcmli nəzm nümunəsini əzbərdən yazır. |

Əzbər yazı şagirdin öz-özünü yoxlama, öz qüvvəsinə inam yaratmaq vasitəsi hesab olunur. Görmə qavrayışına əsasən mənimsənilən orfoqramların yazılışının öyrədilməsində əzbər yazı mühüm rol oynayır.

Əzbər yazı üçün ya şeirin əzbərlənməsi, ya da hər hansı nəsr ilə yazılmış mətndən bir hissənin öyrənilməsi nəzərdə tutulur. Əzbər yazı öz-özünə diktə şəklində yazılır, yəni şagird əzbərlədiyi mətni (şeir, kiçik hekayə, seçilmiş cümlələr, ifadələr, sözlər və s.) öz-özünə, səssiz, daxili nitqlə, bəzən pıçıltı ilə diktə edərək yazır.

Əzbər yazı işini həm ibtidai siniflərdə, həm də yuxarı siniflərdə təşkil etmək məqsədəuyğundur.

**NƏSRƏ ÇEVİRMƏ**

Şagirdlərə şeirin məzmun və ideyasının öyrədilməsində, şifahi və yazılı nitqdə obrazlılığın formalaşdırılmasında yazının bu növü mühüm rol oynayır.

| **Sinif** | **Standart** | **Bilik və bacarıqlar** |
|---|---|---|
| I | 3.1.5 | Kiçikhəcmli nəzm nümunələrinin məzmununu qısa şəkildə yazır. |
| II | 3.1.5 | Əzbər bildiyi nəzm nümunələrinin qısa məzmununu yazır. |
| III | 3.1.3 | Verilmiş mətnin (nəzm, nəsr) qısa məzmununu yazır. |
| IV | 3.1.3 | Verilmiş mətnin (nəzm, nəsr) müfəssəl məzmununu yazır. |

**İMLA**

İmla şifahi nitqlə yazılı nitqi əlaqələndirən inteqrativ yazı növüdür. İmla yazılardan iki **məqsəd**lə istifadə olunur: **öyrətmək və yoxlamaq.**

İmlalar orfoqrafik çalışmaların ən məhsuldar növüdür. Orfoqrafiya və orfoepiya qaydalarının öyrənilməsini təmin edən imlalar Azərbaycan dili fənninin Yazı məzmun xətti üzrə bilik və bacarıqların mənimsənilməsində önəmli tapşırıqdır. İmla üzrə işin düzgün təşkili şagirdlərin savadını artırır, onların müvafiq bilik və bacarıqlara yiyələnmələrini sürətləndirir. Bunun üçün də Azərbaycan dili dərslərində mütəmadi olaraq imlalardan istifadə olunmalıdır. Yalnız bu halda şagirdlər öyrəndikləri orfoqrafik qaydaları dəfələrlə işlətməklə yadda saxlayır, vərdişə çevirirlər.

Savad təlimi dövründə müəllim mütəmadi olaraq imlalardan istifadə etməlidir. Bu zaman şagirdlərin eşitmə qavrayışı hərəki proseslə - yazı ilə əlaqələnir, onlar əvvəlcə, hecaları, sonra sözləri, daha sonra cümlələri müəllimin diqtəsi ilə yazmağa alışırlar. Həmçinin şagirdlərin imla yazılardan sonra onu ilkin mənbə ilə tutuşdurması həm orfoqrafik savadlılığın artmasına, həm də durğu işarələrinin düzgün işlədilməsi üzrə vərdişlərə yiyələnməsinə şərait yaradır.

Azərbaycan dili dərslərində 10-15 dəqiqəlik vaxtın imlalar üçün ayrılması müəllimin uğurlu işini təmin edir.

## İMLANIN NÖVLƏRİ VƏ ONLARIN TƏSNİFATI

**Tədris məqsədinə görə imlanın növləri:**

- öyrədici imla;
- öyrədici-yoxlama imla
- “özünü yoxla”;
- yoxlama imla.

**Mətn formasına görə imlanın növləri:**

- lüğət imlası;
- vahid orfoqram üzrə çətinliklər əsasında imla;
- bir neçə orfoqrafik qayda əsasında imla;
- işlənmə dairəsinə görə və ya leksik-qrammatik qruplara görə sözlərin imlası;
- rabitəli mətn əsasında imla.

**Dinlənilən mətnin yazı xarakterinə görə imla:**

- dinlənilən mətni dəyişmədən imla;
- dinlənilən mətni dəyişərək imla;

Seçmə imla;

- müəyyənləşdirici imla;

- bərpaedici imla.

**Dinlənilən mətnin qrafik təsviri ilə imla;**

- sxem şəklində imla;
- şərti işarələrlə imla;
- rəqəmlərlə imla.

**Dinlənilən mətnin izahının verilmə vaxtına görə imla:**

- xəbərdarlıqlı imla;
- kommentariyalı imla;
- izahlı imla.

**Əlavə tapşırığın mürəkkəblik səviyyəsinə görə imla:**

- yaradıcı imla;
- sərbəst imla;
- mətni davam etdirməklə imla;
- qrammatika üzrə tapşırıqla imla.

**Mətnin qəbul edilməsi formasına görə imla:**

- səsli imla;
- görmə imla;
- əzbər imla.

Hansı imla növünə üstünlük verilməlidir? Cavab birmənalıdır: yalnız bütün imla növlərindən istifadə etməklə dil təlimində və savad artımında yüksək nəticə əldə etmək olar. Çünki bacarıq və vərdişlərin qazanılmasında hər bir imla növünün öz funksiyaları var.

## İMLA YAZDIRMA ÜSULLARI

**Tək cümləli imlalar**

Mətnin cümlələrini nömrələyin. Hər bir şagirdə seçdikləri nömrəyə uyğun cümləni imla şəklində deyin.

Şagirdlər öz cümlələrini bir-biri ilə paylaşır və mətni tərtib edirlər.

**Hərəkətli imla (mətn üzrə)**

Bir mətn seçirsiniz və mətndən cümlələri kəsib sinfin divarlarında yapışdırırsınız. Daha sonra şagirdləri qruplara bölürsünüz. Hər qrupdan lider seçilir.

Qrup üzvləri mətni oxuyub yadlarında saxlamağa çalışırlar, lider isə mətni yazan şəxsdir. Mətni ilk düzgün yaza bilən qrup qalib olur.

**Hərəkətli imla (dinləmə)**

4 nəfər şagird seçib sinifin 4 küncündə yerləşdiririk. Daha sonra qruplardakı şagirdlər bu 4 şagirdə yaxınlaşır və onların diktə etdiyi qısa mətni yadda saxlayıb qrup liderinə deməlidirlər. Ilk düzgün yazan qrup qalib olur.

**Hərəkətli imla (şəkillər ilə)**

Şagirdlər şəkilləri yadda saxlamalıdırlar.

Bu fəaliyyət yadda saxlama bacarığı olan şagirdlər üçün faydalıdır. Burada dəqiqlik tələb olunmur.

## İMLANIN QİYMƏTLƏNDİRİLMƏSİ

İmla yazı işinin təşkilində müasir ədəbi dilin normalaına cavab verən, məzmunu və həcmi nəzərdə tutulmuş sinif üçün uyğun olan mətnlərdən istifadə edilir. İmla mətninə olan tələblər 1-ci cədvəldə əksini tapmşdır.

**Cədvəl 1. İmla mətninə verilən tələblər**

| *Sinif* | *Yoxlama imlalarda kəmiyyətlər* | | | *Lüğət imlasında sözlərin sayı* |
|---|---|---|---|---|
| | *Sözlərin sayı* | *Orfoqram* | *Punktoqram* | |
| 5 | 90-100 | 12 | 3-4 | 15-20 |
| 6 | 100-110 | 16 | 4-5 | 20-25 |
| 7 | 110-120 | 20 | 6-7 | 25-30 |
| 8 | 120-150 | 24 | 10 | 30-35 |
| 9 | 150-170 | 24 | 15 | 35-40 |

***Qeyd:*** Yoxlama imlanın mətninə yalnız o orfoqramlar daxil ola bilər ki, öncəki 2-3 dərs müddətində təkrarlanmış və möhkəmləndirilmiş olsun.

Cədvəl 2-də şagirdlərin mənimsəmə səviyyələri üzrə imlaların qiymətləndirilmə normaları əks olunmuşdur.

**Cədvəl 2. İmlanın qiymətləndirilməsi normaları**

| | *Qiymətləndirmə normaları (səhvlərin sayı)* | | | |
|---|---|---|---|---|
| İmla növü | IV səviyyə | III səviyyə | II səviyyə | I səviyyə |
| Yoxlama | 1 yüngül orfoqrafik səhv + yüngül durğu səhvi<br><br>1/1 | • 2 orfoqraf+2 durğu işarəsi;<br>• 1 orfoqraf+3 durğu işarəsi;<br>• 0 orfoqraf+4 durğu işarəsi;<br>2\2 1\3 0\4 | • 4 orfoqraf+ 4 durğu işarəsi;<br>• 3 orfoqraf + 5 durğu işarəsi;<br>• 0 orfoqraf + 7 durğu işarəsi;<br>• 6 orfoqraf + 6 durğu işarəsi;<br>(əgər eynitipli səhvlər və ya uyğunsuzluqlar)<br>4\4 3\5 0\7 6\6 | • 7 orfoqraf +7 durğu işarəsi;<br>• 6 orfoqraf +8 durğu işarəsi;<br>• 5 orfoqraf+9 durğu işarəsi;<br>• 8 orfoqraf +6 durğu işarəsi<br>7\7 6\ 5\9 8\6 |
| Lüğət üzrə imla | 0 | 1-2 | 3-4 | 7-yə qədər.<br>Bundan artıq olanda 0-la |

***Qeyd:***

• *Üç və ya artıq düzəlişi olan imla 9-10 balla qiymətləndirilmir.*

*Yoxlama imlalarda beş və ya artıq düzəliş olduğu halda qiymət 1 bal aşağı düşür, məsələn "8"-dən "7"-yə. Çoxsaylı düzəlişlərə görə imla qeyri-kafi səviyyəyə aid edilə bilməz.*

"Səhv" və "uyğunsuzluq" anlayışlarının mənasını müəyyənləşdirək.

**Səhv** – ədəbi dil normalarının pozulmasıdır. Bu zaman biz deyirik: "Belə demək / yazmaq olmaz".

**Uyğunsuzluq** – səlis kommunikativ-məqsədəmüvafiq nitqin qurulması ilə bağlı tövsiyələrə əməl olunmamasıdır. Səhvi biz "doğru deyil" mövqeyindən hesaba alırıq, uyğunsuzluğu isə "ifadə oluna biləcək səviyyədən aşağı" kimi qiymətləndiririk. Başqa sözlə, uyğunsuzluq – səhv deyil, nitqin qeyri-səlisliydir.

İmlanın yoxlanılmasında və qiymətləndirilməsində aşağıdakı vəziyyətləri nəzərə almaq lazımdır:

1. **Yanlış yazılsa da, səhv kimi qeydə almamaq.** Bu halda düzəlişlər edilsə də, qiymətin enməsinə təsir göstərmir.

   **Belə yanlış yazılara aid edilir:**

• səs-hərf tərkibinin təhrifi (ş əvəzinə s yazılması)
• dərsdə öyrədilməmiş qaydalar üzrə səhvlər;
• müəllif səhvinə görə yol verilmiş səhvlər;
• öncədən üzərində xüsusi iş aparılmamış, yoxlanılmamış sözlər, qaydalar;
• yalnız bir dəfə cümlənnin sonunda nöqtə qoyulmaması (növbəti cümlə böyük hərflə başlayarsa).

**2. Şagird səhvlərının xarakterləri** (səhvlər və uyğunsuzluqlar)

**İmlada aşağıdakılar səhv hesab edilir:**

a) orfoqrafiya qaydalarının pozulması:
b) hərflərin, sözlərin əvəzlənməsi;
c) durğu işarələrinin qoyulmaması / yanlş qoyulması;
d) qayda ilə yoxlanmayan sözlərin yanlış yazılması.

**Uyğunsuzluqlar:**

- sözdə eyni hərfin qeyri-ixtiyari təkrar olunlması;

- söz sətirdən sətrə keçiriliərkən bir hissəsi birinci tərəfdə yazılıb, digər sətirdə buraxılması;

- cümlədə eyni sözün iki dəfə yazılması;

- sözdə eyni hecanın iki dəfə təkrarlanması;

- sözün sonuncu hərfinin buraxılması;

- milli olmayan xüsusi adların yazılışında yol verilən səhv.

**Durğu işarələrindən istifadə zamanı yol verilən uyğunsuzluqlar:**

- mexaniki olaraq bir durğu işarəsi əvəzinə başqasının qoyulması;
- əlaqəli durğu işarələrindən birinin buraxılması (məsələn, sadalanan sözlər arasında bir vergülün buraxılması, dırnaq işarəsinin bir tərəfdə buraxılması və s.).

**Qeyd:** Səhvlərin qeydə alınmasında iki uyğunsuzluq bir səhv sayılır, lakin bu da balın enməsinə təsir göstərmir. Dəftərin kənarında qeyd olunur: uyğunsuzluq və ya ½.

**3. Təkraralanan və eynitipli səhvlər.**

*Təkrarlanan səhvlər* eyni sözə və ya morfemə, durğu işarəsinə aid səhvlərdır. Belə səhvlər seçilir və düzəldilir, üç belə səhv bir səhv kimi qeyd edilə bilər.

*Eynitipli səhvlər* eyni qaydaya aid səhvlərdır. İlk üç eynitipli səhvin bir səhv kimi qeydə alınması məqsədəuyğundur, növbəti hər birini isə ayrıca bir səhv kimi hesaba almaq lazımdır.

**İmlada əlavə tapşırığın qiymətləndirilməsi**

İmla və əlavə tapşırıqdan (fonetik, leksik, qrammatik) ibarət yoxlama işinin qiymətləndirilməsi kompleks aparılır və yoxlanılan nəticələrə görə meyarlar müəyyənləşdirilir.

Cədvəl 3. **İmla yazı işində əlavə çalışmanın qiymətəndirilməsi meyarı**

| *Səviyyələr* | ***IV*** | ***III*** | ***II*** | ***I*** |
|---|---|---|---|---|
| Tapşırığın yerinə yetirilməsi | Bütün tapşırıqlar düzgün yerinə yetirilmişdir. | Tapşırıq əsasən doğru yerinə yetirilmişdir. (3/4 hissəsi və ya artıq) | Tapşırıq qismən doğru yerinə yetirilmişdir. (ən az 1/2 hissə ) | Tapşırıq ½ hissədən az yerinə yetirilmişdir. |

**İFADƏ, İNŞA VƏ ESSE ÜZRƏ STANDARTLAR**

| **Siniflər** | **Standart №** | **Bilik və bacarıqlar** |
|---|---|---|
| **I** | **3.1.6** | Bir neçə cümlədən ibarət müşahidə xarakterli rabitəli mətn yazır. |
| **II** | **3.1.4** | Müşahidə və təəssüratlar əsasında kiçikhəcmli inşalar yazır. |
| **III** | **3.1.4** | Təsvir və nəqli xarakterli inşalar yazır. |
| **IV** | **3.1.4** | Mühakimə xarakterli kiçikhəcmli rəy-inşa yazır. |
| **V** | **3.1.2** | Mövzu ilə bağlı topladığı materiallar əsasında mətn hazırlayır. |
| **V** | **3.1.3** | Mətnin tərkib hissələrini (giriş, əsas hissə və nəticə) əlaqələndirir. |
| **VI** | **3.1.2** | Mətni mövzuya uyğun fakt və hadisələrlə zənginləşdirir. |
| **VI** | **3.1.3** | Mətnin hissələrini, abzaslarını əlaqələndirir. |
| **VII** | **3.1.2** | Topladığı fakt və hadisələrə münasibət bildirməklə mətni zənginləşdirir. |
| **VII** | **3.1.3** | Qurduğu plan əsasında mətnin hissələrini məntiqi cəhətdən əlaqələndirir. |
| **VIII** | **3.1.1**<br>**3.1.2** | Mövzuya uyğun müxtəlif tipli (nəqli, təsviri, mühakimə) mətnlər yazır<br>Sitatlardan istifadə etməklə fikir və mülahizələrini qüvvətləndirir. |

| | | |
|---|---|---|
| | 3.1.3 | Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə yazıya düzəlişlər edir. |
| **IX** | **3.1.1**<br>**3.1.2**<br>**3.1.3** | Verilmiş mövzuya uyğun müxtəlif xarakterli və formalı mətnlər yazır.<br>Formalaşmış fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır.<br>Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə özünün və başqasının yazısını təkmilləşdirir. |
| **X** | **3.1.1**<br>**3.1.2**<br>**3.1.3** | Mövzuya uyğun üslub seçir.<br>Mövzu ilə bağlı müxtəlif mülahizələri müqayisə etməklə mətni formalaşdırır.<br>Mətnin üslubu üzərində işləməklə yazıya düzəlişlər edir. |
| **XI** | **3.1.1**<br>**3.1.2**<br>**3.1.3** | Üslubi xüsusiyyətləri gözləməklə müxtəlif mətnlər yazır.<br>Müxtəlif yanaşmalara və şəxsi düşüncələrə istinadən əsaslandırılmış mətnlər qurur.<br>Mətni üslubi və struktur cəhətdən təkmilləşdirir. |

**İFADƏ**

**(Mətnin məzmunu üzrə iş)**

İfadə yazı növü şagirdlərin diqqətinin formalaşmasına, yaddaşlarının möhkəmləndirilməsinə, orfoqrafiya vərdişlrinin inkişafına, yazı texnikasının mənimsənilməsinə xidmət edir.

İfadə verilmiş mətnin məzmunu üzrə iş əsasında yazı növü olaraq, imla və inşa arasında mövqe tutur. Bu yazı işinin aparılmasında məqsəd şagirdin rabitəli nitqini formalaşdırmaq, məntiqi düşüncə qabiliyyətini inkişaf etdirməkdir.

Məzmun üzrə işin məqsədi – məzmunun müxtəsər və müfəssəl nəqli, həmçinin bədii-üslub xüsusiyyətlərini öyrətməkdir.

| **Siniflər** | **Standrt №** | **Bilik və bacarıqlar** |
|---|---|---|
| **Sinif** | **Standart** | **Məzmun** |
| III | 3.1.3 | Verilmiş mətnin (nəzm, nəsr) qısa məzmununu yazır. |
| IV | 3.1.3 | Verilmiş mətnin (nəzm, nəsr) müfəssəl məzmununu yazır. |

Tədris yazı növü olaraq ifadə üzrə işin təşkilində mətnin çatdıılması şifahi və yazılı formada aparlır. Yəni mətnin auditoriyaya çatdırılması üsuluna görə ifadə oxuma və dinləmə əsasında, yaxud kombinasiya (mətnin bir hissəsi oxuma, bir hissəsi dinləmə) əsasında yazdırılır.

İfadənin ənənəvi bir üsul olaraq aşağıdakı vəzifələri var:

- şagirdin dinlədiyini yadda saxlamaq bacarığını formalaşdırmaq;
- lüğət bazasını zənginləşdirmək, nitqin qrammatik quruluşunu formalaşdırmaq;
- nitq-təfəkkür mexanizmini inkişaf etdirmək;
- düzgün yazı bacarıqlarını formalaşdırmaq;

- yazdıqlarını yoxlama bacarığını formalaşdırmaq.
- yaddaşı möhkəmləndirmək.

İfadənin təsnifatı müxtəlif əsaslara görə aparılır.

Verilmiş mətnin həcminə görə müfəssəl və müxtəsər formaları olur. Bu növ ifadə konspektləşdirmə bacarığını formalaşdırır.

Mətnin məzmunu üzərində işin təşkilinə görə ifadənin tam, seçmə (mətnin bir mikromətni seçilməklə), tamamlama (şagirdlər mətnin sonluğunu və ya giriş hissəsini təsvir və ya mühakimələrlə tamamlamalıdır) kimi növləri olur. Tamamlama ifadə esse/hekayə elementli ifadə adlanır.

Əlavə tapşırıqlı ifadə də bu növlər sırasınadır. Bu ifadə isə mətnin təhkiyəçisinin – birinci şəxsin (üçüncü şəxsin) dəyişdirilməsi üsulu ilə yazdırılır. Yaradıcı ifadə hesab edilir.

Xarakterinə görə nəqli, təsviri, mühakimə xarakterli ifadələr olur.

Yazdırılma məqsədinə görə öyrədici və yoxlama ifadələr var.

**İfadəni necə yazdırmalı?**

Tədrisdə ifadənin yazdırılmasına hazırlıq belə aparlır:

Müəllim:

— mətni ifadəli oxuyur və yaxud mətni bir şagirdə (yaxud bütövlükdə sinfə) oxudur;

— yeni sözləri və anlayışları izah edir;

— məzmuna görə siniflə müzakirə aparır.

Müzakirənin gedişində müəllim aşağıdakı suallara cavab almağa çalışır:

1) Mətnin əsas fikri nədən ibarətdir?

2) Mətn hansı hissələrə ayrılmşdır?

3) Hissələr arasında hansı əlaqələr var?

4) Əsas fikir hansı vasitələrlə verilmişdir?

Sonra müəllim mətnin hissələri üzrə və ya bütövlükdə nəql edilməsini xahiş edir. Bundan sonra isə mətni təkrar oxuyur və şagirdlər işə başlayırlar.

İfadə yazı bacarığının inkişafında keçid rolunu oynayaraq şagirdi hazır mətnin transformasiyası vasitəsilə fərdi mətnini yazmağa hazırlayır.

İfadənin yazı işinin təşkili metodikasında nəzərə almaq lazımdır ki, dinləmə materialı əsasında ifadə yazmaq böyük diqqət tələb etdiyindən əksər şagirdlər üçün (xüsusilə sualların qoyuluşu) çətinlik yaradır. Buna görə də müəllim şagirdlərin mətni qavramaları və üzərində işləmələri üçün ifadə yazı işini mərhələlər üzrə aparmalıdır.

## MÜXTƏSƏR İFADƏ YAZI İŞİNİN TƏŞKİLİ METODİKASI VƏ QİYMƏTLƏNDİRMƏSİ

Müxtəsər ifadə şagirdin sərbəst yazı bacarıqlarının formalaşmasında əhəmiyyətli rol oynayır. Yuxarı siniflərdə şagirdlər yazı işlərində geniş və təfərrüatlı informasiyaları qısa şəkildə çatdırmaq tələbi ilə daha tez-tez üzləşirlər. Məsələn, esse yazdıqda hadisələrin qısa məzmunundan istifadə edir, bədii əsərlər əsasında inşa yazarkən əsərin məzmununun xülasəsini verməli olurlar və s. Bu vərdişin formalaşması ibtidai siniflərdən başlayaraq müxtəsər ifadə yazı işi təlimlərinin aparılması ilə sıx bağlıdır.

**Mətnin müxtəsər ifadəsi** – mətndən təfərrüatları çıxararaq ən əhəmiyyətli informasiyaları saxlamaq şərti ilə əsas məzmunun qısa çatdırılması deməkdir. Bu zaman daha çox diqqət etmək lazımdır:

- mətnin əsas fikrinin müəyyən edilməsinə,
- mətnin əsas fikrini inkişaf etdirən köməkçi fikirlərə;
- mətnin ideya istiiqamətini müəyyənləşdirən bədii detal və dil xüsusiyyətlərinə.

Məzmunu qısa nəql etməyi bacarmaq mətn üzrə iş üçün ən zəruri vərdişlərdən biridir.

Aşağıda müxtəsər ifadə yazı işinin təşkili və qiymətləndirilməsi alqoritmi öz əksini tapmışdır.

**Şagird üçün tapşırıq**

**(Tapşırıq IV sinif şagirdləri üçün nəzərdə tutulur)**

**Mətni dinləyin və müxtəsər ifadə yazın.**

**Nəzərə alın:**

1. Mətnin hər mikromətninin məzmununu əks etdirmək vacibdir.
2. Təhkiyəni dinlənilən mətndəki şəxsin dilindən aparın.
3. Mətn 110 sözdən ibarətdir, minimum 70 sözlə ifadə edilməlidir. 70-dən az söz olduqda yazı yoxlanılmır.
4. Səliqəli, düzgün və aydın yazın.

**Dinləmə mətni**

**QUŞ DİLİ**

Yenə bir gün anam həyətdə oturub köynək tikirdi. Mən də yanında oturmuşdum. Sərçələr cik-cik edərək həyətə səs salmışdılar. Tut ağacının başında oturmuş sərçə birdən: “Cırrıt!”- edərək səs saldı. Sərçələr o dəqiqə səslərini kəsib özlərini çəpərin içinə soxdular. Mən buna təəccüb edib soruşdum:

- Ana, o sərçə nə dedi?

- Oğlum, o sərçə dedi ki: “Qaçın, tez gizlənin, budur, qırğı gəlir!”

Doğrudan da, bir azdan sonra qırğı göründü. Çil xoruz qışqırıq saldı. Qırğı dayanmayıb keçdi. Mən heyrətdə idim. Təəccüblə soruşdum:

- Ana. Bu quş dilini sən haradan bilirsən? Mən də öyrənə bilərəmmi?

Anam gülərək dedi:

- Niyə bilmirsən?! Quşlara fikir versən, öyrənə bilərsən. Tağı əmioğlun ovçudur. O, quşlar, heyvanlar haqqında çox şey bilir. Ondan soruş, desin.

**Süleyman Sani Axundov**

**Cədvəl 2. Müxtəsər ifadə mətni haqqında informasiya**

| **Mikromətnlərin sıra sayı** | **Mətnin planı** | **Mikromətnin əsas məlumatları** |
|---|---|---|
| 1 | Ananın bacarığı | Ana quşların səsini dinləyib qırğı gələcəyini bildirir. |
| 2 | Ehtimalın doğrulması | Ananın ehtimalı özünü doğruldur, qırğı həyətdə görünür. |
| 3 | Ananın məsləhəti | Ana quşların davranışlarına fikir verməklə onların dilini öyrənməyin mümkün olduğunu deyir. |

**Diqqət:**

Şagird mətni 70-dən az söz olmadığı halda yoxlanır.

Şagird mətnin məzmununu öz sözləri və cümlələri ilə ifadə edə bilər. Şagirdin tezisləri mətn haqqında informasiyada verilmiş cümlələrdən fərqli ifadə oluna bilər.

Şagird mətninin təhkiyəsi verilmiş mətnin təhkiyəsinə uyğun olmalıdır.

Verilmiş mətndə xüsusi adlar istifadə edilibsə, onlar lövhədə yazılmalıdır.

**Şagird mətnini yoxlayarkən nəzərə alınır:**

1) Şagird mətnindəki mikromətnlərin sayı ilə verilmiş mətn haqqında informasiyadakı (Cədvəl 2) mikromətnlərin sayının uyğunluğu;
2) Şagird mətnində mikromətnlərin ardıcıllığının dinlənilən mətnin mikromətnlərinin ardıcıllığına uyğunluğu;
3) Hər bir mikromətndə veilmiş informasiyaların dəqiqliyi.

**Yazı işinin dinləmə mətnin əsas məzmununa uyğunluğu**

Müxtəsər ifadə yazı işinin yoxlanılmasında bu meyar üzrə şagirdin dinlədiyi mətnin bütün əsas mikromətnlərini və önəmli informasiyalarını seçə bilmək, onları təhrifsiz ifadə etmək bacarıqları yoxlanılır. Bu zaman şagirdin mətnin əsas (və ya başlıca) məzmununun nədən ibarət olduğunu anlaması yoxlanılır.

Bu meyar üzrə şagird 2 balı o zaman alır ki, dinlədiyi mətnin məzmununu mətndə verilmiş bütün vacib mikromətnləri nağıl edə bilir.

İfadə yazı işini yoxlamaq məqsədilə mikromətnlər haqqında informasiya cədvəli meyar olaraq müəllim tərəfindən öncədən hazırlanır.

**Mətnin ixtisar olunmuş nümunəsi:**

**QUŞ DİLİ**

Yenə bir gün anam həyətdə oturub köynək tikirdi. Mən də yanında oturmuşdum. Həyətdə cikkildəşən sərçələrdən biri qəfildən bərkdən səs çıxardı. Sərçələr qaçıb çəpərin içində gizləndilər. Mən anamdan sərçənin nə dediyini soruşdum. Anam qırğı gələcəyini dedi.

Doğrudan da, bir azdan qırğı göründü. Çil xoruz qışqırıq saldı. Qırğı ötüb keçdi. Mən heyrətləndim və Anamdan quş dilini necə öyrəndiyini soruşdum.

Anam gülərək dedi ki, quşlara fikir versən, öyrənə bilərsən. Tağı əmimoğlum da ovçudur, o da öyrədə bilər.

**Qiymətləndirmə meyarları**

| **Standart** | **Aspektlər** | **Meyarlar** |
|---|---|---|
| III sinif<br>2.2.5. Mətnin əsas hissələrini seçib nəql edir.<br>III<br>Verilmiş mətnin planını tutur və məzmununu yazır. | İfadənin məzmunu | Mətnin bütün vacib mikromətnlərini əks etdirərək əsas məzmunu qısa ifadə edir. |
| | | Vacib mikromətnlərdən birini buraxmaqla və ya öz təxəyyülünə əsasən yenisini əlavə etməklə mətnin əsas məzmununu qısa ifadə edir. |
| | | Birdən artıq vacib mikromətn buraxmaqla və ya öz təxəyyülünə əsasən yenilərini əlavə etməklə mətnin əsas məzmununu qısa ifadə edir. |
| I sinif<br>2.2.4. Mətndəki əsas fikri müəyyənləşdirir və sadə formada ifadə edir. | Mətnin ixtisarı | Bir və ya artıq üsuldan istifadə etməklə mətnin sona qədər ixtisarını davam etdirir. |

| | | |
|---|---|---|
| II sinif<br>3.1.2. İxtisar və əlavələr etməklə mətni üzündən köçürür.<br>IV sinif<br>2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | | Bir və ya artıq üsuldan istifadə etməklə mətnin ən azı iki abzasını ixtisar edir. |
| | | Bir və ya daha artıq üsuldan istifadə etməklə mətnin bir abzasını ixtisar edir. |
| | | Mətni ixtisar etmək üçün heç bir üsuldan istifadə etmir. |
| II sinif<br>2.2.4.<br>Mətnin mzmununu tərtib etdiyi plana uyğun nəql edir.<br>III sinif<br>2.2.3. Mətnin geniş palnını tutur.<br>III sinif<br>3.1.2. Verilmiş mətnin planını tutur və məzmununu yazır. | Mətnin məna bütövlüyü, ardıcıllıq və rabitəlilik | Şagird mətnində məna bütövlüyü, ardıcıllıq və rabitəlilik qorunur;<br>- məntiqi səhvlərə yol vermir,<br>- verilmiş mətnin ardıcıllığı qorunur;<br>- abzasların ardıcıllığını qoruyur. |
| | | Şagird mətnində məna bütövlüyü, ardıcıllıq və rabitəlilik qorunur, lakin:<br>- bir məntiqi səhvə yol verilir,<br>- bir yerdə abzasların ardıcıllığı pozulur. |
| | | Şagird mətnində verilmiş mətnin məzmunu öz əksini tapsa da:<br>- birdən artıq məntiqi səhvə yol verilir,<br>- iki və daha artıq yerdə abzasların ardıcıllığı pozulur. |
| Müxtəsər imlanın maksimum balı | | |

**Diqqət:**

Qiymətləndirmə cədvəlindən formativ və summativ qiymətləndirmədə istifadə oluna bilər. Qiymətləndirmə prosesində mətnin dil qaydaları da tələblər çərçivəsinə uyğun olaraq nəzərə alınmalıdır. Summativ qiymətləndirmədə meyarlar üzrə ballar ifadə mətninin qiymətləndirmə vasitəsində tutacağı yerə görə müəyyənləşdirilə bilər.

**İNŞA**

| Siniflər | Standrt № | Bilik və bacarıqlar |
|---|---|---|
| **II** | **3.1.4** | Müşahidə və təəssüratlar əsasında kiçikhəcmli inşalar yazır. |
| **III** | **3.1.4** | Təsvir və nəqli xarakterli inşalar yazır. |
| **IV** | **3.1.4** | Mühakimə xarakterli kiçikhəcmli rəy-inşa yazır. |

İnşa şagirdin yazılı nitq bacarıqlarını formalaşdıran tədris yazı növüdür, əsasən, bədii əsərlərin təhlili məqsədilə yazdırılır, şagirdin əsəri elmi-nəzəri aspektdən obyektiv dəyərləndirmə bacarığını formalaşdırır.

Hər bir inşa bir neçə ünsürdən təşkil olunur: başlıq, epiqraf, giriş, əsas hissə, nəticə.

Başlıq mövzu, problematika və elmi tezisə uyğun ola bilər.

İnşaya epiqraf yazmaq mümkündür. Epiqraf inşanın ideyasını ifadə etmək istifadə olunur. O, inşanın yazılmasında əsas şərt olmasa da, uğurlu epiqraf – şagirdin materialı doğru mənimsədiyinin göstəricisidir. Epiqraf olaraq mətndən bir cümlə, yaxud, hər hansı bir aforizmi, atalar sözünü seçmək olar.

Epiqraf mövzu ilə səsləşməli, təsirli və qısa olmalıdır. Epiqrafın verilməsi də mənbəyə istinadən olmalıdır. Həmçinin qrafik təşkilinin də düzgün aparılmasına – mətnin üzərindəki yerinə diqqət edilməlidir.

İnşanın strukturunu giriş, əsas hissə, nəticə təşkil edir. Plan trətibində bu hissələr rum rəqəmləri ilə işarələnməli və hər biri ayrılıqda adlandırılmalıdır.

İnşanı öncə qaralamada yazmalı, təkrar işləndiyi zaman cümlələr əlavə edə biləcək qədər yer qoyulmalıdır.

Girişdə əsərin yazıldığı dövr, əsərin yazılma tarixi, qəhrəmanların prototipləri haqqında danışmaq olar.

Planın əsas hissəsi bir neçə ərəb rəqəmləri ilə sadalanmış punktdan və hərflərlə fərqləndirilmiş alt-punktdan təşkil edilir.

1) Əsərin qəhrəmanının sosial vəziyyəti
2) Portret
3) Xarakter cizgiləri
4) Qəhrəmanın digər obrazlarla ünsiyyəti
5) Digər obrazların əsərin qəhrəmanına münasibəti
6) Onların dövrün ictimai həyatında iştirakı
7) Qəhrəmanın nitqi və ilaxır...

Bütün bunlar mətndən sitatlarla əsaslandırılır.

Nəticədə mətnə əsaslanaraq çıxarışlar etmək, qənaətlərini yazmaq, seçilmiş qəhrəmana öz münasibətini ifadə etmək olar.

Beləliklə, yaxşı inşa yazmaq üçüm əsərin mətnini bilmək, onu ürəyinə yaxın buraxmaq və planlaşdırmanın 4 şərtinə - epiqrafın seçilməsi, girişin, əsas hissənin və nəticənin adlandırılmasına – yəni planın tərtib edilməsinə əməl etmək lazımdır. İstinadlardan dəqiq istifadə etmək tələb olunur. İnşa şagirdin mətni mənimsəmə səviyyəsini, fikrini məntiqi ifadə etmə bacarığını, Azərbaycan dilinin qrammatikası ilə bağlı biliklərini yoxlamaq məqsədi ilə yazdırılır. Bütün bunlar təcrübə və vərdiş sayəsində qazanılır.

İnşanın planlaşdırılmasında şagirdin çətinlikləri:

1) Mövzunun xüsusiyyətıətlərini anlaya bilməmək.

2) Giriş hissədə mövzunu yanlış müəyyənləşdirmək.

3) Əsas hissənin suallarını müəyyənləşdirə bilməmək.

4) Nəticənin inşanın məzmununa uyğun olmaması.

5) Çıxarışların və ümumiləşdirmələrin aparılmaması.

7) Planın yanlış qrafik tərtibi, bəndlərin səliqəsiz nömrələnməsi.

İnşa üçün plan tərtib edilərkən öncə rum rəqəmləri, sonra ərəb rəqəmləri, ardınca hərfi nömrələnmə aparılmalıdır.

Məsələn:

*I.*

*1.1.*

*1.1. a)*

*II.*

*2.1.*

*2.1.b)*

İnşa yazıya öncədən əlavə ədəbiyyatların oxunması şərti ilə hazırlaşmaq tövsiyə olunur. Mətnin yazılmasında da plan tərtibində yol verilən səhvlərdən çəkinmək lazımdır. İnşa yazarkən şagirdlərin yol verdiyi tipik səhvlər bunlardır:

- mövzuya uyğun olmayan materiallardan istifadə etmək;
- materialın təmin olunmaması;
- yazıda ardıcıllığın pozulması;
- hissələrin həcm tələblərinin pozulması;
- məzmunun plana uyğun olmaması;
- eyni fikirlərin təkrarlanması;
- sitatlardan istifadə edə bilməmək (ya həddindən artıq istifadə etmək, yaxud heç istinad etməmək)
- tarixi, ədəbi, bioqrafik faktların təhrifi;
- müasirliklə süni əlaqləndirmə;
- hissələr arasında məntiqi əlaqəsizlik;
- mənbələrdən uyğunsuz istifadə.

Yazı işinin qaralamada tamamlanmasından sonra onu diqqətlə yoxlamalı, bütün fəaliyyətlərin uyğnluğuna əmin olduqdan sonra yeni vərəqə köçürülməlidir.

### *RƏY-İNŞA*

Rəy-inşa tədris prosesində hər hansı bir sənət nümunəsi, mədəni fəaliyyəti dəyərləndirmək üçün yazılan inşa növüdür.

Professional sahədə yeni əsərlərin dəyərləndirilməsi məqsədilə istifadə olunan rəy məktəb praktikasında da oxşar mahiyyət kəsb edir. Rəy şagird mətni, film, ədəbi-bədii gecə, ekskursiya və s. haqqında yazıla bilər, lakin adətən, oxunmuş bədii mətnə münasibəti ifadə etmək üçün yazılır.

Rəyin məqsədi əsərin müsbət və mənfi xüsusiyyətlərini üzə çıxararaq əsəri dəyərləndirilməsidir. Rəyçi öz subyektiv mövqeyindən çıxış etməyinə baxmayaraq, obyektiv qiymətləndirmə mövqeyini də sona qədər qorumalıdır.

Rəydə obyektivliyin qorunması onun üslubunu şərtləndirən əsas xüsusiyyətlərdəndir. Artıq emosionllıq, kəskin dil, kəskin müqayisələr rəyin xüsusiyyətlərinə ziddir. Rəyin obyektivliyini göstərən əsas cəhət dəlillərin gətirilməsidir. Rəy müəllifi əsərə münasibətini mütləq əsaslndırmalıdır. Burada arqumentləşdirməni bədii əsərdən sitatlar, üslub götəricilərinin qeydə alınması, forma, leksika, ahəng haqqında qeydlər təşkil edir**.**

Bədii mətnə rəy yazmaqdan öncə şagirdi esse-təəssürat və rəy-inşanın müqayisəsi ilə tanış etmək lazımdır.

| Aspektlər | Esse-təəssürat | Rəy-inşa |
| --- | --- | --- |
| Yazı növünün əsas xüsusiyyəti | Şagirdin əsər haqqında emosional-qiymətləndirici (ekspressiv) təhlili - şəxsi təəssüratı | Məzmun və forma vəhdəti əsasında bədii əsərin tənqidi analizi - əsərin obyektiv təhlili |
| Məqsədi | Əsər haqqında təəssüratlarını bölüşmək;<br>Bəyəndiyi əsəri diqqətə çatdırmaq;<br>Müzakirədə iştirak etmək. | 1) Bədii əsərin ideya-poetik xüsusiyyətlərini qiymətləndirmək;<br>2) Həmçinin esse-təssüratın məqsədləri |
| Yanaşmanın xüsusiyyəti | Şagird əsərdə qaldırımış problemin ictimai əhəmiyyətini və aktuallığını şəxsi yanaşmaları əsasında izah edir.<br>Arqumentasiya sistemi oxucu təcrübəsi, zövqü və seçimlərinə əsaslanır.<br>Bədii qəhrəmanlar insan xarakteri, tipi kimi nəzərdən keçirilir; personajlar və onların davranışlar əxlaqi-etik, mənəvi cəhətdən dəyərləndirilir.<br>Nəticə şagirdin həyata şəxsi yanaşmasını, onun şəxsi keyfiyyətlərini, əsərdə verilmiş müxtəlif situasiyalara münasibətini əks etdirir. | Rəydə emosional-subyektiv (bəyənildi – bəyənilmədi) deyil, obyektiv dəyərləndirmə aparılır. Oxucu-şagird tənqidçi-araşdırmaçı kimi çıxış edir.<br>Araşdırma obyekti - əsər bədii mətn kimi, müəllifin poetikası, mövqeyi və ifadə vasitələridir (problematika, konflikt, kompozisiya-süjet xüsusiyyətləri, personajlar sistemi, dil və üslub və s.).<br>Şagirdin müstəqil təfəkkürü ifadə formalarından ( mən düşünürəm, ...; mənim fikrimcə, ....) artıq, üslubun fərdiliyi, mühakimələrin dərinliyi, müstəqil assosiasiaya, arqumentlərin inandırıcılığına görə müəyyənləşir.<br>Rəy araşdırmanın tamlığına iddialı deyil, o, əsərin və onun xüsuiyyətlərinin daha parlaq, əhəmiyyətli tərəflərini nəzərə alır.<br>Rəy publisistik ola bilər, polemik xarakter daşıması mümkündür, həmçinin essenin xüsusiyyətlərini özündə əks etdirə bilər. |

| | | |
|---|---|---|
| Məzmunun inkişafı və strukturu | Oxu təəssüratlarının və prosesinin nəqli, əsərlə tanışlığın, tarixçəsi. Əsərin qısa qiymətləndirilməsi ilə bağlı tezis.<br>II. Əsərin dəyərləndirilməsinin arqumentləşdirilməsini ehtiva edən mühakimə:<br>1) Əsər müəllifinin toxunduğu mövzunun və qaldırdığı problemin aktuallığı;<br>2) Əsərdəki ən vacib epizodların xülasəsi (nəqli deyil);<br>3) Personajların davranışlarının dəyərləndirilməsi, onların təsvir edilmiş hadisələrdəki rolu, personajlara və onların taleyinə münasibət;<br>4) Mühakimə qənaətləri (əsərlə bağlı şagirdin fikir və hissləri).<br>III. Oxunmuş əsər yazıçının digər əsərləri də xatırlanmaqla dəyərəndirilə və potensial oxuculara xitab olunaraq müəllifin yaradıcılığı ilə tanışlıq təklif olunmaqla mühakimə ümumiləşdirilə bilər. | I. Rəy üçün səbəbin əsaslandırılması (yenilik, adın “qaytarılması”, yazıçının yeni əsəri, yazıçının yaradıcılığı - ədəbi prosesdə əhəmiyyətli təzahür kimi, yazıçının yaradıcılığı ətrafında polemika, əsərin problematikasının aktuallığı, yazıçının yubileyi və s.). Məktəb təcrübəsində ədəbiyyat dərsliklərindəki bədii mətnlərin tədris əhəmiyyəti baxımından əsaslandırılması məqsədəuyğundur.<br>II. Bir əsərin dəqiq seçilməsi və təhlilinin aparılması mütləq şərtdir. Tezis - araşdırılan mətnin tarixi-mədəni dəyəri barədə fikri ehtiva edir.<br>III. Əsərin ideya-bədii xüsusiyyətlərinin təhlili və dəyərləndirilməsi.<br>1) Adların analizi (semantika, allüziya, assosiasiya)<br>2) Təhkiyənin təşkili üsulları (müəllifin, qəhrəmanın dilindən, “hekayə içində hekayə” və s.) və digər kompozisiya xüsusiyyətləri və onların bədii əhəmiyyəti.<br>3) Problematika, bədii konflikt və onun süjet boyunca inkişafının xarakteristikası.<br>4) Bədii ideyanın ifadəsində personajlar sisteminin təşkili; xarakterlərin yaradılması sənətkarlığı.<br>5) Müəllif mövqeyinin digər ifadə vasitələri (müəllif xarakteristikası, lirik ricətlər, peyzaj və s.) və onların dəyərləndirilməsi.<br>6) Müəllif üslubu və metodunun digər özəllikləri.<br>III. Mətnin bədii keyfiyyətləri və ədəbi prosesdə, ictimai həyatda əhənmiyyəti haqqında qənaət. Polemikaya dəvət. |

## RƏYİ NECƏ YAZMALI

*(metodik tövsiyələr)*

Rəyi yazmağa necə başlamalı? Təəssürat, mühakimə, şəxsi mövqe, ədəbi təhlili bir mətnə necə yerləşdirməli?

Necə başlamaq olmaz? Məntiqi yanaşmaları ilə məşhur olan filoloq V.Şklovski yazırdı:

“Tənqidi məqaləni – “mən kitabı açdım”, “məni maraqlandırdı”, “vərəqlədim”, “baxdım” kimi sözlərlə başlamaq olmaz. Teatr resenziyasını da – “mən teatra gəldim və kresloya əyləşdim” sözləri ilə başlamaq olmaz. Kitabı vərəqləmədən oxumağın mümkün olmadığı kimi, bu da mümkünsüzdür”.

Bəs necə başlamalı? Rəy adətən əsərin biblioqrafik təsviri və qısa məzmunu ilə (iki-üç cümlə) başlayır.

Məzmunun uzun xülasəsi rəyin dəyərini azaldır: birincisi, əsərin özünü oxumaq maraqlı olmayacaq; ikincisi, haqlı olaraq zəif rəyin əsas göstəricisi kimi, əsərin təhlili və interpretasiyasının məzmunun nəqli ilə əvəz edilməsi hesab olunur.

Bəzi rəyçilər qeyri-ənənəvi yoldan istifadə edirlər: onlar başqalarının öz yazılarını bitirdiyi yerdən – qənaətlərindən başlamağa üstünlük verirlər.

Bütün əsərlər oxu prosesində interpretasiya edərək mənasını kəşf etmək istədiyimiz başlıqla başlayır. Başlığa çıxarılmış söz qeyri-ixtiyari mətnin açar sözünə çevrilir. Şagirdlərə bu sualın üzərində düşünməyi təklif edin: əsərin adını oxuduqları zaman təsəvvürlərində hansı şəxsi, mədəni və ya bədii assosiasiyalar yaranır?

Aydındır ki, əsərin adı oxucuda mətnin məzmununun qavranılması ilə bağlı bir çox assosiasiyalar yarada bilər. Yaxşı əsərin adı özlüyündə bir simvol və metafor olduğu üçün çoxmənalı olur.

İlk cümlə və ya birinci abzas. Mətnin ilk abzasını səsli oxumaq və şagirdlərə proqnozlaşdırma aparmağı - davamında nə olacağını, oxucuda hansı gözləntilər yaratdığını söyləməyi təklif etmək olar. Sonra sonuncu abzası oxuyuruq – belə bir finalı gözləyirdinizmi, yoxsa aldadılmış gözləntilər təsiri yaratdı? Birinci cümlədə açar sözlər tapmağa çalışırıq.

* * *

Kompozisiyanın təhlili mətni daha yaxşı anlamaq və interpretasiya etmək üçün səmərəlidir. Kompozisiya üsulları üzərində (antiteza, üzükvari quruluş) düşünmək oxucuya müəllif ideyasına yaxınlaşmağa şərait yaradır. Mətn çox zaman özündə böyük məna daşıyan ardıcıllıqla tərtib edilir. Bu ardıcıllıq heç vaxt təsadüfi olmur.

Mətni hansı hissəərə bölmək olar? Onlar necə yerləşdiriib? Şagirdlərin əsərin hissələrə ayrılması ilə bağlı fikirlərini paylaşmalarına şərait yaradın.

Hər bir uğurlu əsərdə yazıçı öz təkrarolumaz aləmini yaradır. Burada zaman və məkan xüsusi qanunlarla mövcuddur. Düşünək: bu aləmdə dəyərli olan nədir? Bəzən mətndə bu sualın açar sözlərlə verilmiş birbaşa göstəriciləri olur. Müəllif bununla öz oxucularına əsərin ideyası barədə işarə edir.

Əsərdə müəllif tərəfindən yaradılmış aləmə detallar vasitəsilə də nüfuz etmək olar. Hətta feil formaları da təcrübəli oxucuya çox söz söyləyə bilər. Cümlələrin sintaktik quruluşu, sadə və mürəkkəb cümlələrin istifadəsi, giriş sözlər, həmcins üzvlər də rəyçi-oxucu üçün mühakimə vasitələridir.

**Yadda saxla!**

Rəy – hər hansı bir sənət əsərini və ya elmi əsəri təhlil edərək dəyərləndirməkdir.

**Rəy**:

• çoxfunksiyalı (informasiya, əlaqələndirmə, inandırma, təhlil funksiyalarının cəmini yerinə yetirir);

• arqumentləşdirilmiş (əsaslandırma, müəllif mövqeyinin obyektivliyini ifadə etməyi şərtləndirir);

• emosional (tənqidçinin subyektiv, şəxsi zövqü, maraqları nəzərə alına bilir);

• çoxünvanlı (geniş oxucu auditoriyasına ünvanlanır);

• yazılı;

• fərdi (müəllif – konkret şəxsdir);

·• üslubca qarışıq (elmi-publisitik üslubda yazılır) – **yazı növüdür.**

**Rəyin əsas struktur elementləri:**

• əsər haqqında məlumat ( müəllif, əsərin adı, yazılma və nəşr yeri və ili);

·• əsərin ümumi xarakteristik-qiymətləndirilməsi (əsərin qısa məzmunu və süjetin şərhi, kulminasiya anının təsviri, sitat gətirmək və digər üsullar);

• əsərin məzmunu və formasının təhlili;

• əsərin öz müəlifinin yaradıcılığında və bütövlükdə ədəbi prosesdə yeri və rolu;

• oxucunun diqqətinin əsərə yönəldilməsi.

**Bədii əsərə yazılan rəy-inşanın konstruksiyası**

1. **Əsərin təqdimatı:**

   Ümumi xarakteristik-qiymətləndirmə

2. **Məzmunun təhlili**:

• mövzu və əsas ideya;

• süjet;

• obrazlar sistemi (həmçinin müəllif, təhkiyəçi obrazı);

• başlıq və epiqrafın rolu;

• janrın xüsusiyyətləri.

3. **Formanın təhlili:**

· kompozisiya (peyzaj, portet, epizodların rolu);

· dil və üslubun təhlili;

4. **Əsərin ümumi qiymətləndirməsi.** Əsərin bədii-estetik, mənəvi-əxlaqi xüsusiyyətləri dəyərləndirilir, lazım olduqda qeydlər olunur, yaxud tövsiyələr edilir.

**5. Digər oxuculara uğurlar diləmək (müəllifə də mümkündür).** Əsərin mütaliəsinin əhəmiyyəti qeyd olunur, oxunması tövsiyə olunur. Müəllifə gələcək fəaliyyətində uğurlar arzulanır.

**Rəy-inşanın tipik nitq konstruksiyası**

| | |
|---|---|
| **Müəllif haqqında** | Müəllif nəinki yalnız görkəmli yazıçıdır, həmçinin psixoloq, filosofdur....<br>Onun əsərləri (hekayələri, şeirləri) insanda (hissləri, fikirləri) doğurur. |
| **Süjetlə bağlı** | Bu hekayə ........ haqqındadır.<br>Süjet belə qurulmuşdur, ..................<br>Əsas süjet xətti ..........<br>Müəllifin diqqət mərkəzində ...... |
| **Personajlar haqqında** | Təhkiyəçi-qəhrəman izah etmək istəyir ki, ...............<br>Müəllif əsərində ............. qəhrəmanları canlandırmşdır.<br>Qəhrəmanların yaşadığı dünya....<br>Əsas qəhrəman ..................... |
| **Əsər haqqında təəssüratlar** | İlk təssürat............<br>İlk baxışda elə gəlir ki, ................<br>Hekayə atmosferi..............<br>Əsər təsirləndirir (təəccübləndirir)....<br>Müəllifin toxunduğu mövzunun əhatə dairəsi çox genişdir.<br>Əsas mövzu .....<br>Müəllif ............ haqqında yazır.<br>Əsas ..... problemə yer verilmişdir. |

| | |
|---|---|
| | Problematikanı .................. kimi müüəyyənləşdirmək olar. |
| **Müəllif mövqeyi haqqında** | Müəllifin ............ bağlı mövqeyi aydın deyil.<br>Müəllif ....... məqsədəuyğun görür.<br>Müəllif diqqətlə ............... analiz edir.<br>Müəllif .................... açıqlayır.<br>Nəticə gözlənilməzdir.<br>Müəllifin ........... haqqında təkilifi maraqlıdır.<br>Müəllif ehtimal edir (əmindir, inandırıcı olaraq sübut edir). |
| **Ədəbiyyatşünaslıq terminologiyasından istifadə** | Əsərin üslubunu nəzərə alaraq....<br>Kompozisiya uğurludur.<br>Müəllif hekayə əvəzinə ..... janra üstünlük vermişdir.<br>Hekayə poetik dillə yazlmışdır.<br>Qəhrəmanların nitq xarakteristikası maraqlıdır. |
| **Tənqidi qeydlər** | Bütün fikirlərlə razılaşmaq olmaz.<br>Müəlliflə razılaşmaya bilərəm ki, ....<br>İstisna olaraq (Nəzərə almamaq olmaz ki),.............<br>Müəllifdən fərqli olaraq mən düşünürəm ki, ...........<br>Ola bilsin ki, hamısı doğru deyil (doğrudur, dəqiqdir)........<br>Mövzuya laqeyd olmayan oxucunu təəccübləndirməyə bilməz, .....<br>Təsssüf ki, müəllif fikirlərini nümunələrlə əsaslandırmır.<br>Müəllif diqqətdən qaçırır (nəzərə alır)..... |

Şagirdləri **rəyin növləri** haqqında aşağıdakı məlumatlarla tanış etmək olar:

1) Geniş annotasiya – əsərin məzmunu açıqlanır, kompozisiyanın əsas xüsusiyyətləri göstərilir.

2) Kiçik tənqidi və ya publisistik məqalə (adətən, polemik xarakterli) - əsər aktual ictimai və ədəbi problemlərin müzakirəsi üçün nəzərdən keçirilir.

3) Esse-təəssürat – yüksək faizlə rəy müəllifinin əsər haqqında ekspressiv mühakimələri, təhlildən daha çox təəssürata əsaslanan düşüncələrini əhatə edir.

4) Müəllif rəyi - müəllifin öz əsərinə baxışını əhatə edir.

5) Xülasə - tematik, süjet, xronoloji və ya digər əlamətlərə görə qruplaşdırıla bilən bir neçə əsərə yazılmış rəydir.

**Rəyin səviyyələri**

1. Bir əsərə yazıçının ümumi yaradıcılığı kontekstindən kənar rəy;
2. Yazıçının yaradıcılığı kontekstində bir əsərinə rəy;
3. Bir əsərə dövrün ədəbi prosesi kontekstindən rəy.

**Rəy yazılması qaydaları haqqında tövsiyələr:**

- Rəydə bədii əsərin yazı keyfiyyətləri nəzərə alınmalıdır:
  - süjetin cəlbediciliyi,
  - müəllif nitqi ilə əsərin qəhrəmanlarının nitqinin uyğunluğu;
  - üslubun uyğunluğu.
- Rəydə bütün qrammatik səhvlər göstərilməlidir – bu, müəllifin xeyrinədir.
- Müəllifin uğurlarının və bədii tapıntıların qeydə alınması vacibdir – bu, müəllifi yeni əsərlər yaratmağa ruhlandırmaq üçündür.
- Rəy müəllifi əsəri oxuduğu zaman keçirdiyi hissləri qeyd edə bilər.
- Əhatəli və əsaslandırılmış fikirlərlə çıxış edilməlidir. Rəy yazarkən “Bəyənirəm!”, “Buna beş!”, “Əla!” ifadələri ilə qiymətləndirmək uyğun deyil.
- Ədəbi dil normalarına riayət etmək tələb olunur. Fikirləri təkrarlamaq, israr hiss etdirmək uyğun deyil.

**Rəyin yazılmasında tipik səhvlər**

- analiz və interpretasiyanın əvəzinə əsərin məzmununun verilməsi;
- rəyin qısa şərh və qeydlərlə qarışdırılması;
- arqumentlərin göstərilməməsi;
- müəllifin soyadının ata adı ilə, yaxud təxəllüslə əvəzlənməsi (kitabda yazılmadığı halda);
- «orijinallaşma» naminə rəyin çərçivələrini pozmaq;
- rəyçinin mövqeyinin aydın olmaması;
- rəyin ikinci dərəcəli məsələlərlə yüklənməsi (məsələn, təhlül üçün əsas məlumatlardan kənar bioqrafik, tarixi məlumatlar);
- mətnin ideya-tematik xarakeristikasının yarımçıq təhlili;
- ədəbi terminlərdən və anlayışlardan yanlış və ya formal istifadə.

## İFADƏ VƏ İNŞANIN QİYMƏTLƏNDİRİLMƏSİ

İfadə və inşa yazı işlərinin qiymətləndirilməsinin ortaq meyarları var:

• kommunikativ bacarıqlar: mövzunun məğzini açmaq bacarığı, əsas fikri ifadə etmək, materialı rabitəli və ardıcıl çatdırma, onun üçün kompozisiya və ifadə formasının müəyyənləşdirilməsi;

• nitq bacarıqları və ədəbi dil normalarına riayət etmək;

• düzgün yazı vərdişləri – orfoqrafik qaydalara riayət və punktuasiyadan istifadə.

**Cədvəl 4. İfadə və inşanın həcminə verilən tələblər**

| ***Mətnin nümunəvi həcmi*** | **V sinif** | **VI sinif** | ***VII sinif*** | **VIII sinif** | **IX sinif** |
|---|---|---|---|---|---|
| Müfəssəl ifadə (sözlərin sayı) | 100-150 | 150-200 | 200-250 | 250-350 | 350-450 |
| Klassik inşa (səhifələrin sayı) | 0,5-1 | 1-1,5 | 1,5-2 | 2-3 | 3-4 |

**İfadənin qiymətləndirmə meyarları**

| ***Mövzu və məzmun*** | ***Struktur tərtibatı*** | ***Mənbələrlə iş*** | ***Leksik tərtibat*** |
|---|---|---|---|
| — mətnin məzmununun mənbə-mətnə uyğunluğu;<br>— məzmunun nəqli;<br>— məzmun tamlığı. | — Mətnin hissələrə ayrılması;<br>— Məna vahidlərinin abzaslarla fərqləndirilməsi;<br>— Abzas və cümlələr arasında məntiqi əlaqə. | - Mənbə-mətndəki faktların verilməsi;<br>- Dəqiqlik;<br>- Xronoloji ardıcıllığa riayət. | – Leksik tərkib və nitqin qrammatik tərtibatı;<br>– Mənbə-mətnin üslubunun qorunması;<br>– Üslub vahidliyi və nitqin səlisliyi. |

**Yoxlama meyarları üzrə qeydlər:**

Mətni sözbəsöz köçürmək olmaz!

Eyni sözlərin təkrarına yol verməməli (xüsusi adlar, feillər və s.)

Müxtəlif və yalnız öyrənilmiş cümlə növlərindən istifadə etməli.

Şəxs əvəzliklərindən doğru istifadə etməli.

Hazır ifadəni oxuyub yoxlamalı: a) təkrarlardan təmizləməli; b) məntiqi ziddiyyətləri aradan qaldırmalı; c) dəqiq ifadə olunmamış sözləri dəyişməli.

**İfadənin səviyyələr üzrə qiymətləndirilməsi**

| Səviyyə | *Qiymətləndirmənin əsas meyarları*<br>*Məzmun, nitq və struktur* | *Savadlılıq* |
|---|---|---|
| | 1. İşin məzmunu mövzu ilə tam uyğundur.<br>2. Faktiki səhvlər yoxdur, ifadədə mənbə-mətnin 70 faizi saxlanmışdır.<br>3. Ardıcıllığa və rabitəliliyə riayət olunmuşdur.<br>4. Mətn leksik cəhətdən və sintaktik quruluşca zəngindir, sözlər dəqiq istifadə edilmişdir.<br>5. Üslub vahidliyi və mətnin ifadəliliyi qorunur.<br>6. Məzmunda 1 qeyri-dəqiqliyə yol verilmişdir. | Nəzərə alınır: 1 orfoqrafik və ya durğu səhvsı, yaxud qrammatik səhvə yol verilə bilər. |
| II | 1.Yazının məzmunu mövzuya uyğundur, lakin cüzi kənaraçıxma müşahidə edilir.<br>2. İfadənin məzmunu mənbə-mətnə uyğundur. Lakin bir-iki faktiki qeyri-dəqiqliyə yol verilib, mənbə-mətnin 70 faizi saxlanılıb.<br>3. Ardıcıllıqda cüzi pozuntuya yol verilib.<br>4.Nitqin leksik və qrammatik quruluşu qənaətbəxş səviyyədə zəngindir.<br>5. Yazının üslubu vahiddir və kifayət qədər ifadəlidir.<br>6. Məzmunda ən çox 2 səhvə, 3-4 nitq qüsuruna yol verilir. | 2/ 2/ 3. 1/3/3., 0/4/3. Hər bir halda qrammatik səhv 3, orfoqrafiya səhvsı 2-dən çox olmamalıdır. Əgər 3 orfoqrafik səhvdan biri yüngül olarsa, III səviyyəyə uyğun görülə bilər. |
| I | 1. Mövzudan əsaslı dərəcədə kənaraçıxmalar var.<br>2. Yazı işi mənbə-mətnə uyğundur, 3-4 faktiki səhvya yol veilir. İfadənin həcmi mənbə-mətnin 70 faizindən azını təşkil edir.<br>3. İfadənin ardıcıllığında pozuntulara yol verilir.<br>4. Leksika yoxsuldur, sintaktik quruluş yeknəsəkdir.<br>5. Sözlərin yanlış istifadəsinə təsadüf edilir.<br>6. Üslub vahidliyi pozlub, nitq kifayət qədər ifadəli deyil.<br>7. Məzmunla bağlı 4 səhvya və 5 nitq qüsuruna yol verilir. | 0 \5\7<br>1 \ 4-7 \ 4 2 \3-6\4 4 \ 4 \4 3 \ 5 \ 4 |
| | 2. Yazı işi verilmiş mövzuya uyğun deyil.<br>3. Çoxlu faktiki səhvlara yol verilir. İfadənin həcmi mənbə-mətnin ən çoxu 50 faizini təşkil edir.<br>3. Fikirlərin ardıcıllığı və onlar arasında rabitə çox halda pozulur. İfadə verilmiş plana uyğun deyil.<br>4. Dili yeknəsəkdir. Qısa eynitipli cümlələrlə yazılır, sözlərdən yanlş istifadə edilir.<br>5. Üslub vahidliyi pozulmuşdur.<br>6. Məzmunla bağlı 6 və daha artıq səhvya və 7 nitq qüsuruna yol verilir. | 5-dən artıq orfoqrafik səhv, 8-dən yuxarı durğu səhvsı;.5 və daha artıq qrammatik səhv |

**Qeyd:** İnşanın qiymətləndirilməsi meyarları və səviyyələr üzrə göstəriciləri esse ilə uyğundur, "Essenin qiymətləndirilməsi" cədvəlinə baxın.

**İfadə və inşada səhvlər və uyğunsuzluqlar**

Nitqdəki uyğunsuzluqlar göstərir ki, şagird sözləri seçib istifadə etməyi və nitq mədəniyyəti məsələlərini öyrənməyib. Onun seçdiyi ifadə vasitələri fikri dəqiq çatdırmır, təhrif edir, göstərilən faktlara müəlifin münasibətini açıqlamır, ifadə və ya inşanın üslubuna uyğun deyil.

Nitq uyğnsuzluğuna aid ola bilər:

- eyni sözlərin tez-tez təkrarlanması;
- lüğət tərkibinin monotonluğu;
- cümlələrdə sözlərin uğursuz ardıcıllığı;
- müxtlif növ üslubların qarışdırılması;

**Cədvəl 6 İnşa və ifadənin məzmununda yol verilən səhvlərin təsnifatı**

| Faktik səhvlər | Məntiqi səhvlər |
|---|---|
| İfadədə:<br>Məkan, zaman, hadisə yeri, fəaliyyətlərin ardıcıllığı, səbəb-nəticə əlaqələrinin müəyyənləşdirilməsində səhvlərə yol verərək mətnin təhrif olunması.<br><br>İnşada:<br>Hadisə məkanının təhrifi,<br>mənbələrin dəqiq göstərilməməsi,<br>xüsusi adların, tarixlərin təhrifi. | — İfadədə ardıcıllığının pozulması;<br>— İnşanın (ifadənin) hissələrinin və cümlələrinin arasındakı əlaqənin olmaması<br>— öncə verilmiş fikrin yersiz təkrarlanması;<br>— bir mikromətnin digər mikromətn vasitəsilə bölünməsi;<br>— mətnin hissələrinin həcm uyğunsuzluğu və ya zəruri hissənin olmaması;<br>— mətnin hissələrinin yerinin dəyişdirilməsi (ifadə yazı işinin tapşırığı əsasında deyilsə);<br>— təhkiyənin aparıldığı şəxsin məqsədsiz dəyişdirilməsi (təhkiyə birinci şəxsdə aparılırsa, tapşırıq olmadan üçüncü şəxsdə təhkiyəyə dəyişdirilərsə). |

**Nitq səhvləri**

Nitq səhvlərinə sözlərin ifadəsi və mətnin leksik tərtibatında yol verilən səhvlər və uyğunsuzluqlar daxildir. Sözlərin istifadəsindəki səhvlər isə öz növbəsində semantik və üslub səhvlərinə ayrılır.

***Semantik səhvlər:***

• sözdən məfhumuna uyğun istifadə etməmək. *Dəhşətli dərəcədə gözəl*.

• sinonimlərin, yaxın ifadələrin yersiz istifadəsi; məsələn, *Müəllim uşağın küyünə getməməli, onun havasına oynamamalıdır*.

• məntiqi uyğunsuzluq, məsələn,: Günəş qəfildən dağın arxasında görünməz oldu.

• artıq sözlərdən istifadə, məsələn: *budağı aşağı əymək*,

• vacib bir sözün buraxılması, məsələn: *O, ağ örtüyə bürünüb qoltuqda oturaraq səbrlə (traşın) sonunu gözləyirdi.*

• eyniköklü sözlərin üslubi cəhətdən əsassız istifadəsi: xarakterin xarakterik cizgiləri; getdikcə daha yaxına yaxınlaşırdı.

***Leksik uyğunsuzluqlara şamil edilir:***

• müəllif nitqində lazım olmadan dialekt və məişət dilindən istifadə etmək;

• müxtəlif tarixi dövrlərin leksikasının qarışdırılması;

• damğa-sözlərdən istigadə etmək.

***Mətn tərtibində yol verilən qrammatik səhvlər və uyğunsuzluqlar:***

• sintaktik konstruksiyada kasıblıq və monotonluq;

• mətndəki feillərin zamana görə uyğunlaşdırılmaması;

• sözlərin əsassız təkrarlanması;

• şəxs əvəzliklərinin mürəkkəb cümlələrdə və ya mətnin bir hissəsinin əlaqələndirilməsi baxımından doğru işlədilməməsi;

• cümlədə sözlərin ardıcıllığının əsassız pozulması.

## ESSE

**Esse – düşünməyi öyrədən yazı növüdür.**

Esse qədim və maraqlı tarixə malik janrdır. Ədəbiyyatda Monten, Kyerkeqor, Emerson, Kamyunun adı ilə bağlıdır. Janrın yaradıcısı isə Mişel de Monten hesab olunur.

Esse həm də vacib təlim vasitəsidir. Azərbaycan dili və ədəbiyyat dərslərində əsas tədris yazı növü olmaqla yanaşı, digər fənlərin tədrisində də qiymətləndirmə üsulu kimi istifadə edilir.

Essenin qısa xarakteristikasını belə vermək olar: müəllifin şəxsi mövqeyinin əsaslandırılmış şəkildə yazılı ifadəsidir. Bunu nəzərə almaq lazımdır ki, esse ədəbiyyatda ədəbi janr, tədrisdə isə yazı növü kimi istifadə olunur.

Esse qarşıya qoyulmuş sualın bazisi və ya baxılan məsələnin təkzibedilməz mənbəyi rolunda çıxış etmək iddiasında deyil. Bu yazı növü hər hansı məsələ ilə bağlı müəllifin subyektiv qənaətini və təsəvvürlərini ifadə edir. Buna görə də essenin yazı taktikası, müraciət forması tövsiyə xarakteri daşıyır. Mətnin əsas hissəsi şəxsi fikirlərdən ibarət olur.

Göründüyü kimi, esse digər yazı növlərindən fərqli olaraq, daha sərbəst, yaradıcı yazıdır. Essenin məqsədi şagirdin şəxsi mühakimə qabiliyyətini, ən əsası isə hadisələrə, obyektlərə, fikirlərə öz münasibətini, mövqeyini ifadə etməyi formalaşdırmaqdır.

Esse yazmaq tamamilə müstəqil fəaliyyət olduğundan şagirdin yazı bacarığının ali səviyyəsi hesab edilir.

Bu gün müəllimləri düşündürən suallardan biri budur: inşa və essenin fərqi nədən ibarətdir?

Öncə onu nəzərə almaq lazımdır ki, ədəbi-bədii janrlar arasında keçilməz sədlər yoxdur. Lakin hər bir janrı müəyyənləşdirən xüsusiyyətlər var ki, bunlardan çıxış edərək müəyyən qənaətə gəlmək mümkün olur.

Esse və inşa arasındakı fərq, ilk növbədə, onların məqsədlərindədir:

İnşa yazının məqsədi – araşdırma bacarığa bağlı olan şifahi və yazılı nitqi inkişaf etdirməkdir. Esse müəllifinin qarşısında daha fərqli məsələ durur - oxucuları təfəkkürə cəlb etmək.

Essenin əlamətlərini aşağıdakı kimi səciyyələndirə bilərik:

1. Konkret bir mövzunun və ya sualın qoyulması;

Geniş çərçivədə problemlərin analizinə həsr olunmuş əsərlər esse hesab olunmaz.

2. Şəxsi təəssüratların və düşüncələrin ifadə olunması.

Problemi obyektiv işıqlandırmaq, hər hansı bir əsərinin ideyasının dəqiq müəyyənləşdirilməsi essenin məqsədi və vəzifəsi deyil. Başqa sözlə, esse nəyinsə haqqında yeni və subyektiv ifadə olunmuş sözdür və belə əsərlər fəlsəfi, tarixi-bioqrafik, publisistik, ədəbi-tənqidi, elmi-populyar və ya bədii-kütləvi xarakter daşıya bilər. Məsələn, sosial şəbəkələrdə bir mətn yayımlanmışdır. Bunu ibtidai sinif şagirdi olan Rusiya məktəblisi Krılovun "Cırcırama və qarışqa" əsərinə rəy-inşa olaraq yazmışdır. Lakin bu mətn, əslində, esse-təəssürat nümunəsidir.

***Cırcırama və Qarışqa***
***(tərcümə)***

*Çox böyük maraq və təəccüblə İ.A. Krılovun "Cırcırama və Qarışqa" təmsilini oxudum. Mən təmsilin ideyası ilə qətiyyən razı deyiləm. Təmsilin süjeti belədir ki, Cırcırama bütün yayı oxuyur, ehiyatını yığmır, odunları hazırlamır, qış isə həmişəki kimi gözlənilmədən gəlir. Soyuqdan və acından ölməmək üçün Cırcırama dostu Qarışqaya müraciət edir. O, Qarışqadan sadəcə "sığınacaq və istilik" istəyir. Qarışqa isə ona etinasız cavab verir: "Sən get sadəcə əylən".*

*Məncə, təmsilin ideyası belə olmalıdır: əlbəttə ki, qarışqalar şox faydalı heyvanlardır, amma dünyanın daha rəngarəng olması və sadəcə gözəllik üçün kimsə əylənməlidir. Mən Cırcırama və Kəpənəyə sığınacaq verərdim, ehtiyatları isə bölüşmək olar.*

Qeyd etmişdik ki, əsərin ideyasını dəqiq müəyyənləşdirmək essenin məqsəd və vəzifəsinə daxil deyil və bir də esse nəyinsə haqqıda ifadə olunmuş yeni və subyektiv sözdür. Mətndəki bu xüsusiyyətləri nəzərə alaraq, onu yaxşı bir esse nümunəsi kimi dəyərləndirə bilərik.

Deyilənlərdən belə bir çıxarış edirik: Essenin məzmununda ilk öncə müəllifin şəxsiyyti – onun dünyagörüşü, fikirləri və hissləri dəyərləndirilir.

Biz artıq – "Esse nədir?" – sualını müəyyən qədər cavablandırmış olduqsa da, müəllimlərdən bu suala cavab istəyəndə aldığımız ilk fikirlərlərdən biri bu olur ki:

"Essə ən qısa yaradıcı yazı növüdür."

Bu cavab isə essenin həcminə verilən tələbi əks etdirir. Lakin "Nə qədər qısa?" sualı hələ də müəllimlər üçün cavabsız qalır. Essenin həcminə verilən tələb söz və səhifə sayı ilə ölçülməyindən daha çox, məzmunun konkretliyi ilə ölçülməlidir.

Essenin dözmədiyi cəhət – sözçülükdür.

Esse müəyyən sayda sözlərlə məhdudlaşdırılır, buna görə də bu həcmi nəzərə almaq zəruridir. Bu, bəzən nə qədər maraqlı olsa da, müəllifdən müəyyən ideyalardan imtina etməyi tələb edir. Əlavə məsələlər oxucunun diqqətini yayındıra bilər və əsas fikrin kölgədə qalmasına səbəb ola bilər.

Uzun abzaslar – təsirli deyil. Uzun abzaslar müəllifin haqlı olduğunu sübut etməz, qısa abzaslar isə çox zaman daha artıq səmərə verir. Yaxşı olar ki, essedə uzun abzaslarla qısa abzaslar növbələşdirilərək verilsin. Yazı işinin oxu zamanı təsirini yoxlamaq üçün esseni hündürdən oxumaq lazımdır. Əgər hiss olunsa ki, abzas birnəfəsə oxunmur, bu zaman uyğun yerlərdə abzasları hissələrə bölmək olar.

Esseni yazıb tamamladıqdan sonra belə bir sınaqdan keçirmək olar:

Həcminə görə abzasları hərflərlə işarələyin: Q (qısa), O (orta), U (uzun),

Q – 10 sözdən az;

O – 20 sözdən az;

U - 20 söz və daha artıq.

Esse üçün ən uyğun variant hərflərin belə bir düzülüşü olacaq:

OQOUOQ

Essenin tərtibatındakı uyğunsuzluğu isə hərflərin belə düzülüşü əks etdirəcək:

QQQOUUU

Esseni yükləmək olmaz!

**ESSENİN STRUKTURU VƏ KOMPOZİSİYASI**

Esse yazı işinin təşkilində Yazı məzmun xəttinin əksər standartlarının reallaşdırılması mümkün olduğu kimi, aşağıdakı standartların nəzərdə tutduğu bacarıqları daha çox esse yazı növü

ilə formalaşdırmaq mümkündür. Standartların ehtiva etdiyi anlayışlar essenin daxili kompozisiyasını təşkil edir.

| Siniflər | Standrt № | Bilik və bacarıqlar |
|---|---|---|
| VI | 3.1.2 | Mətni mövzuya uyğun fakt və hadisələrlə zənginləşdirir. |
| VII | 3.1.2 | Topladığı fakt və hadisələrə münasibət bildirməklə mətni zənginləşdirir. |
| VIII | 3.1.2 | Sitatlardan istifadə etməklə fikir və mülahizələrini qüvvətləndirir. |
| IX | 3.1.2 | Formalaşmış fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır. |

Esse giriş, əsas və nəticə adlanan 3 hissəyə ayrılır.

İlk abzaslar mətnin giriş hissəsini təşkil edir. Mətnin birinci abzası oxucunu essenin həsr olunduğu mövzu ilə tanış edir. Uzun girişə ehtiyac yoxdur – bir və ya iki abzas kifayət edər.

Əsas hissə  daha çox diqqət tələb edən hissədir. Müəllif burada öz fikrini əsaslandırır.

Nəticə hissəsində essedə verilmiş fikirlər ümumiləşdirilir. Vacibdir ki, yekun qənaət girişdə və əsas hissədə verilmiş fikirləri təkzib etməsin, yaxud yeni fikirlərə yol açmasın.

Mətndə qarşıya qoyulmuş problemlə bağlı tezis irəli sürülür, arqumentlərlə əsaslandırılır.

Tezis – müəllifin şəxsi fikirləridir, mətnin ideyasıdır. Bu fikirləri təsdiq edən sübutlara isə arqument deyilir. Arqumentlər faktlar, həyati situasiyalar, şəxsi təcrübə, elmi mənbələr, mütəfəkkirlərin fikirləri - bunlardan birinə və ya bir neçəsinə istinadla dəstəklənməlidir.

Mətnin hissələrinin, tezis və arqumentlərin ardıcıllığı essenin strukturunu  təşkil edir.

Esse mətninin vahid bir strukturu yoxdur. Geniş yayılmış sxemləri nəzərinizə çatdırırıq:

1. Giriş

Əsas hissə:

Tezis – arqument;

- Tezis – arqument.

Bu halda əvvəlcə fikri ifadə edirik, sonra onu əsaslandırırıq.

Nəticə




2. Giriş

Əsas hissə:

Əks quruluş – (fakt-çıxarış). Arqument verilir, sonra isə tezis çıxarılır. Bu bir neçə dəfə təkrarlana bilər.

- Arqument – tezis
- Arqument – tezis
- ……

Nəticə




3. Giriş

Əsas hissə:

Tezis və bir neçə arqument. Bu halda bir fikri bir neçə dəlil ilə sübut edirik. Tezis bu dəlillərdən həm əvvəl, həm də sonra verilə bilər.

Nəticə




İbtidai sinifdə essenin 3-cü quruluş sxeminə əsasən yazılması daha münasibdir.

Deyilənləri mühakimə-nəqli xarakterli bir esse üzərində izah edək:

**_BÖYÜKLƏR DƏ SƏHV EDİR_**

*Atam elə hesa edir ki, mənə həmişə öyüd-nəsihət verməlidir. Amma mən düşünürəm ki, o, özü də hərdən səhv edir. Övladına inanmayanda (A1), özləri haqsızlıq edib üzr istəməyəndə (A2) valideynlər də səhv edirlər (T).*

*Mən lap balaca olanda atam evə şirniyyat almışdı. İki gündən sonra anam hay-küy saldı ki, şirniyyat yoxa çıxıb. Mən şirniyyatı çox sevirəm. Ona görə də hamı məndən şübhələndi. Nə qədər and içsəm də, inanmadılar. Hamının payını yediyimə görə danladılar.*

*Amma bir gün günahkar olmadığım məlum oldu. Otaqdakı şkafın yerini dəyişəndə gördük ki, şirniyyatlar divarın küncünə yığılıb. Əyilib baxdıq və orada bir deşik gördük. Atam da, anam da anladılar ki, şirniyyatı siçovul daşıyıbmış. (Dəlil 1)*

*Mən ürəyimdə onlardan küsdüm. Çünki səhvlərinə görə heç üzr də istəmədilər. İndi də məni utancaq olduğuma görə danlayırlar Bilmirlər ki, onlar mənə inanmadıqları üçün mən də özümə inanmıram. (Dəlil 2)*

*İndi gördünüzmü ki, valideynlər də səhv edirlər? Onlar bizi hər addımda sözlə tərbiyə edir, amma bəzən hərəkətləri ziyan vurur.*

--

Mətnin giriş hissəsi bir abzasdan ibarətdir. Bu hissənin sonuncu cümləsi mətnin tezisidir və tezis-cümlədə iki arqument gətirilmişdir.

Arqumentlər əsas hissədə faktlarla dəstəklənməlidir. Əsas hissə 3 abzasdan ibarətdir. Bu hissənin ilk iki abzası birinci arqumenti – “övladına inanmamaq valideynlərin səhvidir” arqumentini əsaslandıran situasiyanı təsvir edir.

Tezisdə neçə arqument verilirsə, əsas hissədə ən azı o qədər abzas olmalıdır. Yəni hər arqument ayrıca bir abzasda əsaslandırılmalıdır.

Əsas hissənin üçüncü abzası essenin ikinci arqumentini – "səhv edib üzr istəməmək valideynlərin səhvidir" arqumentini dəstəkləyir və müəllifin şəxsi təəssüratından ibarətdir.

Essedə əsas ideya ilə yanaşı köməkçi fikirlər də öz əksini tapır. Bu fikirlər, adətən, abzasın sonuncu cümləsində verilir.

"Onlar mənə inanmadıqları üçün mən də özümə inanmıram" fikri əsas fikirlə səsləşən köməkçi fikirdir. Valideynlər tərəfindən uşağa inamsızlığın nəticəsi kimi əsaslandırılır.

Esse mətninin tərtibində nəzərə alınmalı məsələlərdən biri tezis və arqumentlərin sayı ilə bağlıdır. İbtidai sinifdə mühakimə xarakterli essenin yazılması üçün bir tezis də kifayətdir. Arqumentlərin sayına gəldikdə, belə bir deyim var:

"Bir arqument azdır, üç arqument çoxdur".

Demək ki, bir tezisin əsaslandırılması üçün iki arqument yetər.

Essenin strukturunda nəzərə alınmalı məsələlərdən biri də hissələrin həcminə verilən tələbdir. Bu öz ifadəsini faizlə tapır:

Giriş – 20 %

Əsas hissə - 60 %

Nəticə - 20%

Verilmiş faizlər şərti xarakter daşıyır. Bunu hesablamaq üçün cümlələri saymağa ehtiyac yoxdur. Bir məsələni diqqətdə saxlamaq yetər: giriş və nəticənin həcmi əsas hissədən az olmalıdır.

## TEZİSİN NÖVLƏRİ

Esse üçün mövzunu şərti olaraq üç qrupa ayırmaq mümkündür:

1. Nominativ cümlə (açar söz) ilə ifadə olunan mövzu;
2. Sual şəklində təklif edilən mövzu;
3. Sitat əsasında mövzu

Bunlardan asılı olaraq mövzunu müxtəlif cür izah etmək olar.

**Açar sözdən başlayaq.** Belə mövzular fikir mənbəyi kimi çıxış edir, lakin konkret bir nəticəni hədəfləmir, istənilən istiqamətdə düşünmək, istənilən tezisi irəli sürmək mümkündür. Əsas odur ki, açar sözlərə istinad olunsun.

**Nümunə:**

Mövzu: Ana məhəbbəti

Tezis: Mən düşünürəm ki, ana məhəbbəti yer üzündə ən güclü hissdir.

Mövzu: Qələbənin dadı

Tezis: Düşünürəm ki, qələbə hər zaman sevinc gətirmir, hərdən acı da dada bilər.

**Sual-mövzu.** Sual açıq (ona bəli və ya xeyr cavabı vermək mümkün olmaz) və ya qapalı formada ( bəli və ya xeyr sözləri ilə cavblandırıla bilər) qoyula bilər.

Əgər mövzu açıq sual şəklində təklif edilirsə, onu cavablandırmaq lazımdır. Cavab özü tezis yerində çıxış edir.

Mövzu: Ədələt və şəxsi mənfəət arasında necə seçim etməli?

Tezis: Hesab edirəm ki, seçim insanın öz vicdanını nə qədər dinləməsindən asılıdır.

Mövzu olaraq qapalı sual verilərsə, o zaman cavabınızı əsaslandırmalısınız (bəli, çünki / xeyr, ona görə ki...) Cavabın əsaslandırılması mütləq şəkildə vacibdir, əks təqdirdə tapşırıq yerinə yetirilməmiş hesab ediləcəkdir.

Mövzu: İnsan hər zaman şəxsi mənfəəti ədalətə qurban vermək lazımdırmı?

Tezis: Bəli. Hesab edirəm ki, yalnız ədalətli seçim yaxşı nəticə verə bilər.

**Sitat-mövzu.**

Birinci halda müəllifin qənaəti ilə fikrən razılaşmaq kifayətdir və onu əsaslandırmaq lazımdır.

**Əsas odur ki!!!,** yazı işində yazmayasınız: “Mən müəlliflə razıyam, ...”. Əgər sizin deməyə başqa bir sözünüz yoxdursa, yazın!

Mövzu: “Gənclik – səhvlər çağıdır.”

Tezis: Düşünürəm ki, insan səhvlərin çoxunu məhz gənclik çağında edir, çünki bu zaman yetkin həyata qədəm qoyur, lakin təcrübəsiz olur.

Mürəkkəb sitatlara da təsadüf olunur ki, bu zaman mənanı anlamaqda və ya arqumentlər gətirməkdə çətinlik çəkmək mümkündür. Bu halda fikri açmalı, özümüz üçün aydın cümləyə çevirməliyik. Sonra isə iki yol var: ya izah tezis ola bilər və ya əldə etdiyimiz cümləyə əsaslanaraq tezis çıxaracağıq.

Mövzu: Sevgi – sehirli çiçəkdir, o qədər cəsarətli olmaq lazımdır ki, uçurumun kənarına gedib onu qopara biləsən.

Sitatın izahı:

Uçurumun kənarı – risq deməkdir.

Çiçəyi qoparmaq – aşiq olmaqdır.

Sevən insan nəyə risq edir? O, sonda qəlbinin qırılmağına, xəyallarının puç olmağına risq edir.

Tezis: Hesab edirəm ki, yalnız cəsarətli insan sevə bilir, çünki o, qəlbini risqə atır.

**TEZİSİN ƏSASLANDIRILMASI: ARQUMENTLƏR VƏ FAKTLAR**

Essenin məzmununu qiymətləndirilməsinin əsas kriteriyalarını belə modelləşdirə bilərik:

İştirakçı əsərqoyulmuş problemə öz münasibətini ifadə edir: müəllifin fikri ilə ya razılaşır və ya razılaşmır.

Arqumentləşdirir: 2-dən az olmayaraq arqument göstərir;

Arqumentləri bədii, publisistik, elmi ədəbiyyat və ya həyat təcrübəsindən seçir.

Həyat təcrübəsi və oxucu təcrübəsi nədir?

Həyat təcrübəsi:

- özünün və ətrafdakıların həyatından real faktlar;
- şəxsi müşahidələr;
- ənənəvi-tarixi təcrübə.

Ətrafdakıların təcrübəsnə istinad edərkən yazıla bilər:

- Yadımdadır ki, anam ( atam, nənəm. babam, müəllimim və s.) danışırdı ki, necə...
- Düşünürəm ki, bu hadisə sizi .............inandıracaq.
- Bu zaman müəllif mövqeyi müəyyənləşdirilib, onun təsdiqinə uyğun misal seçilməlidir.

Şəxsi qənaətlər və müşahidələr əsasında arqumentlərini gətirərkən belə ifadələrdən istifadə edilir:

- Mənim həyatımda buna bənzər vəziyyətlər olub...
- Böyük həyat təcrübəm olmasa da, buna bənzər vəziyyətlə .... ( dostum, sinif yoldaşım, qohumum) həyatında təsadüf etmişəm.

Ənənəvi-tarixi təcrübə görkəmli bir şəxsiyyətin avtoritet fikrinə, davranışına əsaslanır və güclü əsaslnadırmanı təmin etmiş olur.

Avtoritetə istinad

Dəlilər, adətən, "üçüncü tərəfə" – nümunəvi ictimai xadimə - alim, mütəxəsis, siyasi xadim fikirlərinə istinad, məsəl çəkmək, atalar sözündən, aforizlərdən istifadə etməklə gətirilir. Belə arqumentlərin gücü ondadır ki, bu zaman yalnız esse yazı müəllifinə məlum faktlardan deyil, kollektiv bilik bazasına istinad olunur.

Tərəflər kimlərdir?

Problematik sualın esse ilə cavablandırılmasında üç mövqe çıxış edir: müəllif əsəri və ya problematik sualın müəllifi – esse – istinad mənbəyi.

"Üçüncü tərəf" konkret bir şəxs və ya kollektivin, müəllif qrupunun münasibəti ola bilər.

Oxucu təcrübəsi:

- elmi-kütləvi ədəbiyyat;
- tarixi mənbə;
- bədii ədəbiyyat.

Oxucu təcrübəsinə istinad etmək güclü əsaslanadırma deməkdir. Lakin bu təcrübyə yalnız mənbələr, müəllifin adı dəqiq xatırlandığı halda əsaslanmaq lazımdır ki, faktiki səhvlərə yol verilməsin.

Öz fikirlərinə əsaslanıb arqument gətridikdə belə bir qəlibdən istifadə etmək olar: Mən düşünürəm ki, müəllifin toxunduğu problem (aktualdır, əhəmiyyətlidir, bir çoxumuzu düşündürür, geniş ictimaiyyətin diqqətindədir), çünki bir çoxumuz oxşar (suallarla, hadisələrlə, insanlarla, vəziyyətlə) qarşılaşırıq.

Essedə nəzər nöqtəsini ifadə edən sözlər, ifadələr, cümlələr işlətmək vacibdir:

- Mənim fikrimcə, inanrım ki, şübhəsiz ki,
- Müəllif məni problemə yeni nəzər nöqtəsindən baxmağa sövq etdi...
- ola bilər ki, mən yanılıram, amma probeləmə öz münasibətimi ifadə edə bilərm..
- müəllif sanki mənim düşüncələrimi, hisslərimi ifadə edib və s..

**ESSENİN DİGƏR JANRLARDAN FƏRQİ**

Bəzən nəqli esse ilə hekayə qarışdırılır. Essedə epizod həcmcə çox yer tutduğu halda, onu hekayə ilə qarışdırmaq mümkündür. Yanılmamaq üçün bəzi məqamlara diqqət etmək lazımdır.

Hekayədə hadisə obrazlı ifadə olunur. Yəni surətlər canlandırılır, mətnin dili bədii olur, detallara yer verilir və i.a.. Mətn bütövlükdə süjeti ehtiva edir.

Essedə süjetə bənzətditiyiniz epizod hekayə deyil, eləcə, bir hadisənin nəqlidir. Hadisənin nəqlində süjet axtarmaq da lazım deyil, burada mətnin giriş, əsas hissə və nəticə adlandırdığımız hissələri əksini tapır. Hətta hər bir abzasın mətn kimi quruluşu var, yəni üç hissədən ibarətdir. Hadisənin nəqlinin də digər yazı tipləri kimi belə hissələri olur.

Essedə hadisə publisistik dillə ifadə olunur. Bədii təsvir və ifadələrin işlənməsi isə obrazlarla ifadə demək deyil. Obrazlarlı ifadə fikri obrazlarla əks etdirmək, yəni hər bir varlığın, təzahürün əksini, surətini yaratmaq deməkdir.

Hekayə janrında hadisənin məqsədi fikri hiss etdirərək, yaşadaraq anlatmaqdır, essedə epizodun düşündürərək çatdırmaqdır.

Hər bir hadisənin nəqlini janr olaraq hekayə adlandırmaq doğru deyil. Bu, sadəcə, hekayətdir - hadisənin nəqli.

**Nəqli essedə kontaminasiya nədir?**

Kontaminasiya – mətn içində mətn deməkdir.

Nəqli esselərdə mətnə hekayənin daxil edilməsi də kontaminasiyadır.

Kontamunasiya yalnız hekayə içində hekayə, mühakimə içində hekayə deyil, istənilən formada, janrda yazı mətninə başqa bir bitkin mətnin daxil edilməsidir.

Kontamunasiya həm müəllifin özünün digər bir mətnin daxil edilməsi, həm də başqasının əsərindən istifadə yolu ilə yaradıla bilər.

Şagirdlər nəqli esse yazarkən kontaminasiyadan istifadə edirlər. Bu, o deməkdir ki, bir problematik suala cavab vermək üçün bir-iki hadisəyə istinad edir və kiçik bir hekayə şəklində mətnə daxil edirlər. Amma epizod əsasında yazılmış esseni hər zaman kontaminasiya adlandıra bilmərik. Bu zaman mətnin kompozisiyasını təhlil etmək lazımdır. Şagird fikri epizodu müşaiyət edirsə, bu, kontaminasiya deyil.

Nəqli essein strukturunu öyrədərkın bu məsələləri nəzərə almaq lazımdır.

## ESSE YAZI IŞININ TƏŞKİLİ METODİKASI

**Esse yazı ışının təşkili necə aparılır?**

Şagirdlərə fikirlərini sərbəst və məntiqi ardıcıllıqla ifadə etməyi öyrətdikdən sonra verilmiş mövzu üzrə esse yazdırmağa başlamaq olar. Essenin tədrisinin başlıca məqsədi – rabitəli nitqin qurulması üçün fəaliyyətlər sisteminin formalaşdırılmasıdır. Bu sistemə aşağıdakı bacarıqlar daxildir:

- verilmiş mövzunu nəzərə almaq və mətn tərtibi ilə bağlı fəaliyyətləri analiz etmək;
- plan qurmaq və onun əsasında məzmunu əhatə etmək;
- planda müəyyənləşdirilmiş strukturu qura bilmək;
- mətni redaktə etmək – hadisələrin təsvirinin ardıcıllığını, cümlələrin və abzasların rabitəliliyini, informasiyann tamlığını, üslub xüsusiyyətlərini və düzgün yazı qaydalarını yoxlaya bilmək;

Yazı işinin təşkili prosesində bir qayda olaraq mövzunu müəllim verir. Mövzular məişət həyatı, şagirdin məktəb həyatı, onların maraq dairəsi, ictimai, milli və mənəvi, tarixi proseslərlə ilə bağlı olur. Essenin mövzusu olan obyekt və ya təzahürlər şagird üçün maraqlı və tanış olmalıdır. Risk qrupuna daxil olan uşaqlarla işləyərkən esseni həyati məsələlər əsasında deyil, seriya şəkillərin nümayişi,  filmlərə baxmaq, süjetli şəkilləri izləmək, şagirldlərin fəaliyyətləri (məsələn, məktəb həyətində ağac əkmək və ya ekskursiyalar) əsasında yazdırmaq məqsədəuyğun hesab edilir.

Şagirdləri esse yazdırmağa alışdırmaq üçün yazı işi müəyyən ardıcıllıqla aparılır:

1. Motivin izah edilməsi (Mən nə haqqında danışacam?)
2. Ümumi fikrin yaradılması (Necə izah edəcəm?)
3. Yazılacaq mətnin stukturlaşdırılması (Hansı ardıcıllıqla izah edəcəm?)
4. Mətnin tərtibi prosesinin  yoxlanılması ( Bütün faliyyətləri doğru yerinə yetirdimmi?)

**Esse haqqında nəyi bilməliyik?**

Esse yazı işinin əsasını təşkil edən nəzəri məlumatları müəllim fənnin Yazı məzmun xətti üzrə standartların ehtiva etdiyi bilik və bacarıqları nəzərə alaraq müəyyənləşdirir. Aşağıdakı cədvəl siniflər üzrə bu bilik və acarıqların inkişaf dinamikasını əks etdirir.

**Cədvəl 1. Esse və inşa mövzularının tədrisinin əsaslandığı əsas standartlar**

| | V | VI | VII | VIII | IX | X | XI |
|---|---|---|---|---|---|---|---|
| 3.1.1 | Müxtəlif yazı formalarını (ifadə, inşa, hekayə) fərqləndirir. | Müxtəlif yazı tiplərini fərqləndirir. | Verilmiş mövzunu müxtəlif yazı formalarında (ifadə, inşa, hekayə) ifadə edir. | Mövzuya uyğun müxtəlif tipli (nəqli, təsviri, mühakimə) mətnlər yazır. | Verilmiş mövzuya uyğun müxtəlif tipli (nəqli, təsviri, mühakimə) və formalı (inşa, esse, hekayə) mətnlər yazır. | Mövzuya uyğun üslub seçir. | Üslubi xüsusiyyətləri gözləməklə müxtəlif mətnlər yazır. |
| 3.1.2 | Mövzu ilə bağlı topladığı materiallar əsasında mətn hazırlayır. | Mətni mövzuya uyğun fakt və hadisələrlə zənginləşdirir. | Topladığı fakt və hadisələrə münasibət bildirməklə mətni zənginləşdirir. | Sitatlardan istifadə etməklə fikir və mülahizələrini qüvvətləndirir. | Formalaşmış fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır. | Mövzu ilə bağlı müxtəlif mülahizələri müqayisə etməklə mətni formalaşdırır. | Müxtəlif yanaşmalara və şəxsi düşüncələrə istinadən əsaslandırılmış mətnlər qurur. |
| 3.1.3 | Mətnin tərkib hissələrini (giriş, əsas hissə və nəticə) əlaqələndirir. | Mətnin hissələrini, abzaslarını əlaqələndirir. | Qurduğu plan əsasında mətnin hissələrini məntiqi cəhətdən əlaqələndirir. | Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə yazıya düzəlişlər edir. | Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə özünün və başqasının yazısını təkmilləşdirir | Mətnin üslubu üzərində işləməklə yazıya düzəlişlər edir. | Mətni üslubi və struktur cəhətdən təkmilləşdirir. |

Aşağıda verilmiş sxem V-XI siniflər üzrə esse və inşa mövzularının əsas aspektlərini və bu aspektlər üzrə bilik və bacarıqların inkişaf istiqamətini əks etdirir.

**Sxem 1.**

**Mətnin forması və tipi:**

- yazı formasını fərqləndirir  yazı tipini fərqləndirir – yazı formasında ifadə edir- mövzuya uyğun müxtəlif tipli və formalı mətnlər

**İstinad mənbələri üzrə iş**:

materiallar toplayır- fakt və hadisələrlə mətni zənginləşdirir- – sitatlarla fikrini dəstəkləyir – müxtəlif mülahizələri müqayisə edir – müxtəlif yanaşmalar və şəxsi düşüncələrilə fikrini əsaslandırır.

**Mətnin sruktur tərtibi**:

mətnin hissələrini əlaqələndirir – abzasları əlaqələndirir – hissələrə uyğun plan qurur – mətnin rabitəliliyini yoxlayır – strukturu təkmilləşdirir.

**Üslub:** üslub seçir – üsluba uyğun mətn yazır – üslubu təkmilləşdirir.

**Şagird öz yazısında nəyi yoxlamalıdır?**

Şagirdin esse yazı bacarıqlarını inkişaf etdirmək üçün təlimin doğru təşkili mühüm şərtdir. Amma əldə edilən mətnin dəyərləndirilməsinin  məqsədyönlü aparılması və nəticənin təhlili də vacibdir.

Esseni qiymətləndirmək üçün isə öncə onun yoxlanılaması meyarlarını müəyyənləşdirmək lazımdır. Bu meyarlar yalnız müəllimə deyil, həm də şagirdlərə açıq olmalıdır. Çünki yoxlama prosesi şagirdin özünü yoxlamasından başlayır. Buna görə də müəllimlər şagirdləri essenin əsas xüsusiyyətləri və yazı işinə verilən tələbərlə tanış etməlidirlər:

**1. Subyektiv münasibət:** Hər şeydən öncə, xatırlamaq lazımdır ki, esse subyektiv yazı növüdür, şagird məsələlərə öz nəzər nöqtəsindən baxmalı, predmeti subyektiv dəyərləndirməlidir: məhz sənin nə düşündüyün əhəmiyyətlidir.

**2. Faktlar:** Hansı suala cavab verməyinizdən asılı olmayaraq, siz müəyyən məqsədə nail olmalısınız. Bunun üçün isə esse yazdığı zaman müəyyən məqamları nəzərə aldığına əmin olmaq üçün bəzi suallara cavab verməlidir:

- Verilmiş suala cavab verdimmi?
- Fikrimi hansı faktlarla, sitatlarla əsaslandırdım?
- Gətirdiyim dəlillər tutarlı və dəqiqdirmi?

**3. Yazılı nitq vərdişləri:** Esse yazı işində üslub və dil məsələləri qoyulmuş problemin aid olduğu sahədən asılı olaraq müəyəynləşir. Sözlər və onların ifadə vasitələri də buna görə seçiləcəkdir. Yazı növünün ədəbi xarakterini nəzərə alıb, elmi-akademik üslubdan, terminlərdən sui-istifadədən çəkinmək lazımdır. Aydın, səlis nitq, yazı qaydalarına doğru riayət etmək yazı işinin vicib şərtlərindəndir.

**4. Real insan obrazı:** Esseni xarakterizə edən əsas xüsusiyyət şəxsi təəssüratlar, şəxsi mövqe olduğuna görə oxucu bu yazıda real insan obrazını görmək, müəllifin səsini eşitmək istəyəcək. Nəzərə alın ki, gələcəyə hazırladığımız namizədlərin esse yazılarında işəgötürənlər məhz onların özlərini görmək istəyəcəklər. Necə ki deyilir:

***“Biz sənədlərdə rəqəmlərin göstərə bilmədiyini görmək istəyirik, buna görə də ümid edirik ki, onu essedə tapaq. Heç bir halda öz essenizdə bizə özünüz haqqında danışmaq***

***imkanını əldən verməyin. Bu, bizə kömək edəcəkdir ki, müxtəlif göstəricilər toplusunu deyil, tamamilə real insanın namizədliyini nəzərdən keçirək."***

Esse yazıda özünüifadə üçün ağıllı, bilikli görünmək deyil, sadəcə olduğun kimi, insan olmaq lazımdır.

5. **Fərdilik:** Ümumi fikirlərdən ibarət yazıları oxumaq darıxdırıcıdır. Şəxsi olanı, yalnız sizə məxsus olanları yazınızda əks etdirməklə daha maraqlı və cəlbedici olacaqsınız.
6. **Detallar**: Essedə yazılanları nümunələrlə, öz təcrübələrinə isnadla dəstəkləməsi yazı işinin dəyərini artırır. Detallar esseni maraqlı, təkrarolunmaz, özünəməxsus edəcəkdir.
7. **Fərqləndirici cizgilər - maraqlı, yumoristik:** "Qaydaları pozmaqdan" qorxmaq lazım deyil. Ən yaxşısı özün kimi olmaqdır.

Çoxları fərqli fikirləri yazmaqdan çəkinirlər. Amma bilmirlər ki, bununla onların yazısı da, özləri də uduzmuş olur. Əlinizdə olan bütün imkanlardan elə istifadə edin ki, esseniz yaddaqalan olsun.

8. **Düzgünlük:** Qondarma olmaq məntiqsizlikdir. Yaxşı olar ki, hər bir vəziyyəti olduğu kimi əks etdirəsiniz. Düzgün olmaq lazımdır, həm də pozitiv. Özünüzün mənfi xüsusiyyətlərinizdən yazmalı olarkən islah olunan tərəflərinizi də göstərin.
9. **Bədiilik -** yüksək poetik dil demək deyil. İndi "münşəat" heç kimə cəlbedici görünmür. Bunun üçün yumor ən yaxşı vasitədir. "Yumor güclü vasitədir, amma ondan yerində istifadə edin."

## ESSENİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Nəzərə alın!**

Summativ qiymətləndirmə yalnız esse yazdımaqla aparılarsa,100 ballıq qiymətləndirmə şkalasından istifadə etmək olar. Bu zaman tədris vahidində dil qaydaları və mətn tərtibi məsləl əri üzrə təlim nəticələri nəzərə alınaraq əlavə tapşırıqlar verilməlidir.

Şagirdlərin öncədən qiymətləndirmə meyarları ilə tanış edilmələri tövsiyə olunur.

## Essenin qiymətləndirmə rubriki

| Bal | Meyarlar | Qeydlər |
|---|---|---|
| | **A. Mövzu və məzmun vəhdəti** | Aralıq ballar üçün |
| 20-17 | - Mətnin məzmunu verilmiş mövzuya uyğundur.<br>- Məzmun aydındır.<br>- Tezis aydın seçilir.<br>- İdeyanın mətn boyunca inkişafı müşahidə edilir.<br>- Mövzudan kənara çıxmalar müşahidə edilmir. | Məsələn:<br>Bir cümlə mətndə fikrin inkişafına xidmət etmir – 19 bal..<br>Bir abzasın sonunda yekunlaşdırıcı cümlə verilməyib.– 18 bal. Bir yerdə mövzu ilə yaxın əlaqəsi olmayan cümlə işlənib. – 17 bal |
| 16-15 | - Mətnin məzmunu mövzuya uyğundur. - Məzmun aydındır.<br>- Tezis aydın seçilir.<br>- Tezis sona qədər inkişaf etdirilir.<br>- Mövzudan kənara çıxma müşahidə edilir. | Bir abzasda mövzudan kənar faktlara toxunulub. - 16 bal<br>Əsas hissədə bir faktın mövzu ilə əlaqəsi yoxdur. Bir sitat uyğun deyil. – 15 bal |
| 14-9 | - Mətnin məzmununda mövzuya uyğunluq var.<br>- Giriş hissədə verilmiş cümlələrdən tezisi müəyyənləşdirmək mümkündür.<br>- Mövzudan kənara çıxmalar müşahidə edilir. - Fikirlər sona qədər davam etdirilmir. | 3 uyğunsuzluq – 13 bal<br>4 kənara çıxma -12 bal<br>5 uyğunsuluq – 11 bal<br>6 uyğunsuluq- 10 bal<br>7 uyğunsuluq – 9 bal |

| | | |
|---|---|---|
| 8-1 | Mətnin məzmunu mövzuya qismən uyğundur. Fikirlər pərakəndədir. | A bəndinin tələbi ödənmirsə, esse digər bəndlərə görə yoxlanılmır. |
| Bal | **B. Struktur və həcm** | Aralıq ballar üçün |
| 20-17 | - Mətn verilmiş həcm tələbini ödəyir.<br>- Mətnin hissələrinin həcmi tələbə uyğundur.<br>- Mətnin hissələri aydın seçilir.<br>- Tezis giriş hissədə verilir.<br>- Mətn hissələrə və məna vahidlərinə görə abzaslara ayrılır.<br>- Essedə iki arqument, hər arqumentə uyğun 2 fakt verilir. - Hər arqumenti sübut edən abzas yardımçı fikirlə tamamlanır.<br>- Nəticə tezislə səsləşir. | Əsas hissənin bir abzası yardımçı fikirlə tamamlanmayıb.. – 19 bal İki məna vahidi (iki faktın açılması) bir abzasda verilib. – 18 bal Hər iki arqumentin sübutu bir abzasda verilib. – 17 bal |
| 16-15 | - Mətn verilmiş həcm tələbinə uyğundur.<br>- Mətnin hissələrinin həcmi tələbi pozur.<br>- Mətnin hissələri aydın seçilir.<br>- Tezis giriş hissədə verilir.<br>- Mətn hissələrə və məna vahidlərinə görə abzaslara ayrılır.<br>- Essedə iki arqument, hər arqumentə uyğun 1 fakt verilir.<br>- Arqumenti sübut edən abzaslar yardımçı fikirlə tamamlanmır.<br>- Nəticə tezislə səsləşir. | 3 pozuntu – 16 bal<br>4 pozuntu – 15 bal |
| 14-9 | - Mətn verilmiş həcm tələbindən müəyyən fərqlə (tələbə əsasən müəyyənləşir) azdır.<br>-Mətnin hissələrinin həcmi tələbi pozur. | Aralıq ballar səhvlərin sayı və xarakteri nəzərə alınaraq verilməlidir. |

| | | |
|---|---|---|
| | - Mətnin hissələrindən ən azı ikisi verilir (giriş və ya nəticə, əsas hissənin olması şərtdir).<br>- Tezisi giriş hissədə verilmiş fikirlərdən anlamaq olur.<br>- Mətn hissələrə və məna vahidlərinə görə abzaslara ayrılmasında uyğunsuzluqlar müşahidə olunur. Yaxud mətnin ən az iki hissəsi yazılır, lakin abzaslara ayrılmır.<br>- Essedə bir arqument və arqumentə uyğun 1 fakt verilir. - Arqumenti sübut edən abzaslar yardımçı fikirlə tamamlanmır.<br>- Nəticə tezislə zəif səsləşir /səsləşmir. | |
| 8-1 | - Mətn verilmiş həcm tələbindən azdır. - Mətnin hissələri seçilmir.<br>- Abzaslara ayrılmır. Yaxud ayrılmış abzaslar uyğun deyil.<br>- Pərakəndə və mövzu ilə əlaqəsiz fikirlər irəli sürülür.<br>- Rabitəlilik müşahidə edilmir. | |
| | **C. Arqumentləşdirmə** | |
| 20-18 | - Arqumentlər fakt və sitatlarla dəstəklənir. - Fakt və sitatlar məzmuna uyğundur. | Ən az 2 arqument verilib. Hər arqument 2 faktla əsaslandırılıb.<br>Məsələn:<br>Faktlardan biri qeyridəqiqdir – 19 bal Bir fakt və ya sitat zəif əlaqəlidir – 18 bal |
| 16-15 | - İki arqument hərəsi bir fakt və ya sitatla dəstəklənir.<br>- Fakt və ya sitat məzmunla əlaqəlidir. | Məsələn:<br>Bir yanlış fakt olarsa – 15 bal |

| | | |
|---|---|---|
| 14-9 | - Bir arqument, bir fakt və ya bir sitat verilib.<br>- Bir faktın/sitatın məzmunla əlaqəsi zəifdir. | Məsələn:<br>Fakt məzmunla zəif əlaqələdirilib – 13 bal Sitat uyğun abzasda, lakin əlaqələndirilmədən verilib – 12 bal<br>Sitat abzasla əlaqəlidir, lakin uyğun cümlələrlə bağlanmayıb -11 bal Sitat mətnin digər abzası ilə əlaqəlidir – 10 bal Mövuya uyğun, lakin məzmunla əlaqəsiz sitat verilib – 9 bal bal |
| 8-1 | - Arqument uyğun verilmir, lakin faktla dəstəklənmir. Yaxud mətn ümumi və əlaqəsiz fikirlərlə / faktlarla yazılıb. | Məsələn:<br>Arqument tezislə zəif əlaqəlidir – 7-5 bal Arqument anlaşılır, lakin natamamdır – 4-3 bal.<br>Arqument anlaşılmır -2-1 bal |
| | **D. Nitqin sintaqmatik təşkili və üslub vahidliyi** | |
| 20-18 | - Cümlələr səlis və aydındır.<br>- Mətnin lüğət tərkibi üsluba uyğundur.<br>- Sintaktik cəhətdən zəngindir. | (Üsluba uyğun mətn leksik tərkiblə - termin, bədii ifadə vasitələri, təsvir vasitələri, obrazlılıqla təmin edilib)<br>Məsələn: |

| | | |
|---|---|---|
| | | Bir uyğunsuzluq – 19 bal<br>İki uyğunsuzluq – 18 bal<br>3 uyğunsuzluq və yaxud<br>1 səhv – 17 bal |
| 16-15 | - Nitq əsasən səlisdir. Cümlələrin təsadüfən qeyri-səlislik müşahidə edilir.<br>- Mətnin lüğət tərkibi üsluba uyğundur, lakin bəzi ifadələr usluba uyğun seçilməyib.<br>- Sintaktik cəhətdən qənaətbəxşdir. | 2 səhv – 16 bal<br>3 səhv – 15 bal |
| 14-9 | - Sadə cümlələr aydındır, mürəkkəb cümlələrdə dolaşıqlıq müşahidə edilir.<br>- Mətnin lüğət tərkibi sxematikdir. - Üslub müəyyənləşdirilmir, lakin bəzi sözlərdən uyğun istifadə edilib. | 4 səhv – 14 bal və ilaxır... |
| 8-1 | - Cümlələr aydın deyil.<br>- Sözlərdən uyğun istifdə edilmir. | Cümlələr əsasən səhvlərlə yazılır. |
| | **E. Dil normaları** | |
| 20-18 | - Fonetik, leksik, qrammatik qaydalara riayət olunr.<br>- Punktuasiya qaydalarına riayət olunur. | 1 orfoqrafik səhvə yol verilə bilər – 20 bal 1 orfoqrafik, 1 qrammatik – 19 bal 1 orfoqrafik, 1 qrammatik, 1 üslub – 18 bal |
| 16-15 | - Fonetik, leksik, qrammatik qaydalar qismən pozulur.<br>- Punktuasiya qaydaları qismən pozulur. | 2 \ 2 \3 - 16 bal<br>2\ 3 \3 – 15 bal |
| 14-9 | - Fonetik, qrammatik, sintaktik və nitq etiketləri qaydalarında pozuntular çoxdur.<br>- Punktuasiya qaydalarında pozuntular çoxdur. | 3/3/3 – 14 bal<br>3/3/4 -13 bal<br>4//4/4 – 12 bal<br>5/4/4 – 11bal<br>5/4/5 -10 bal<br>5/5/5 -9 bal və s… |
| 6-1 | - Fonetik, qrammatik, sintaktik və nitq etiketləri qaydalarına riayət olunmur.<br>- Punktuasiya qaydalarına riayət olunmur. | 6 orfoqrafik səhvdən artıq. |

Ümumi bal: **100**

**Qeyd:** 30 baldan aşağı qiymətləndirilmiş esse yerinə yetirilməmiş tapşırıq hesab olunur.

## ŞAGİRD ESSESİ ƏSASINDA YOXLAMA VƏ QİYMƏTLƏNDİRMƏ NÜMUNƏSİ

Dil qaydaları üzrə səhvlər və uyğunsuzluqların seçilməsi üçün aşağıdakı üsuldan istifadə etmək olar.

**Leksik uyğunsuzluq / səhv – qırmızı**

**Qrammatik uyğunssuzluq / səhv – yaşıl**

**Orfoqrafik səhvlər – göy**

**Durğu işarəsi səhvləri - sarı**

### *KİÇİKLƏR DƏ XEYİRXAHLIQ EDƏ BİLƏR*

*Yaxşı, xeyirxah insan heç bir zaman yaxşılıq etmək fürsətini qaçırmır. Əli kimi, Səlim kimi. Yaxşı insanın bünövrəsi uşaqlıqdan qoyulur.*

*Əli və Səlimi birləşdirən cəhət xeyirxahlıq etməkləridir. Hər ikisi azyaşlı olmalarına baxmayaraq, onlar hər an hər kəsə kömək etməyə hazırdırlar. Hər bir insan yaxşılıq edə bilər. Yaş, var-dövlət bunlar hamısı yalnış olan məhdudiyyətlərdir.*

*Əli öz arzularının təməlini qoymaq üçün xeyirxah işlərə özünü öyrəşdirir. O, imkan daxilində hər kəsə kömək edərək gələcək həyatda daha vacib işlərə doğru gedir.*

*Səlim özünün həyatını gözə alaraq başqa birinin həyatını qurtarır. Səlim bunu bizə çatdırır ki, çox təvazökar və xeyirxah biridir.*

*Yaş sadəcə insanın yaşadığı müddətdir. Yaşın demək olarki ,insan həyatında heç bir əhəmiyyəti yoxdur.*

***Turqut Nəhmətli***

**211 nömrəli məktəb, V sinif şagirdi**

**Essenin təkmilləşdirilməsi üçün yoxlama üsulu**

Şagird mətni yaşıl rənglə seçib.

***Sahəni yaşıllaşdır***. Səhvlərimi qeyd edin, özüm düzəliş edim.

***Sahəni saralt***. Səhvlərimin sayını yazın, özüm tapıb düzəldim.

***Sahəni qızart.*** Səhvlərimin hamısını düzəldin.

**Müəllimin qeydləri**

1. Hansı mənbəyə istinad edildiyi məlum deyil. Əli və Səlimin kim olduğu açıqlanmayıb. Məzmun aydındır, amma detalların dəqiqləşdirilməsinə ehtiyac var.

2. Mətnin birinci cümləsi fikri dəqiq ifadə etmir. Xeyirxah insan yaxşılıq etmək üçün fürsət axtarırmı? Bu fikrin üzərində düşün.

3. “Yaxşı insanın bünövrəsi uşaqlıqdan qoyulur” cümləsini sözlərin daha doğru istifadəsi baxımından necə təkmilləşdirə bilərsən?

4. Əli və Səlimin yaxşılıqlarının sübutu açıqlanmayıb. Faktları dəqiqləşdir.

5. “Səlim bunu bizə çatdırır ki, çox təvazökar və xeyirxah biridir.” Yardımçı fikir olaraq cümləni məzmuna və əsas tezisə uyğun təkmilləşdir.

6.Yekun qənaəti – essenin sonuncu cümləsini tezisə uyğun olaraq təkmilləşdir.

7.“Yalnış” sözü səhv yazılmışdır, düzəlt.

8.“Demək olarki” sözündə səhv var, düzəlt.

### *KİÇİKLƏR DƏ XEYİRXAHLIQ EDƏ BİLƏR*

*Xeyirxah insan heç bir zaman köməyini əsirgəmir: Səlim kimi, Əli kimi. Səlim “Təcli qan axtarılır”, Əli isə “Xeyirxah Əli” hekayəsinin kiçik qəhramanlarıdır. İnsanın yaxşılıq etməyinin bünövrəsi uşaqlıqdan qoyulur.*

*Əli və Səlimi birləşdirən cəhət xeyirxahlıq etmələridir. Hər ikisi azyaşlı olmalarına baxmayaraq, onlar həmişə hər kəsə kömək etməyə hazırdırlar. Hər bir insan yaxşılıq edə bilər. Yaş, var-dövlət - bunlar hamısı yanlış olan məhdudiyyətlərdir.*

*Əli kasıb sinif yoldaşına maddi kömək göstərir. O öz arzularının bünövrəsini uşaqlıqdan qoyur. O, böyüyəndə biznesmen olub imkansızlara kömək etmək istəyir.*

*Səlim yaxın dostunun atasına qan verərək onun həyatını xilas edir. Onun bu hərəkəti kiçikyaşlıların da yaxşılıq edə biləcəyini sübut edir.*

*Yaş sadəcə insanın yaşadığı müddətdir. Yaşın insanın keyfiyyətlərinin formalaşmasında böyük əhəmiyyəti yoxdur*.

**Balın hesablanması:**

| **Aspektlər** | **Qeydlər** | **Bal** |
|---|---|---|
| **Mövzu və məzmun vəhdəti** | Məzmun aydındır, amma detalların dəqiqləşdirilməsinə ehtiyac var. | **17** |
| **Struktur və həcm** | Struktur tamdır. Həcm tələbi dəqiq qoyulmayıb. Əsas hissənin bir az daha artıq yazılması uyğun olardı. . | **18** |

| | | |
|---|---|---|
| **Arqumentləşdirmə** | Tezis yardımçı fikirlərlə sona qədər dəstəklənir. 2 arqument gətirilib. Hər arqument üçün bir faktdan istifadə edilib. | **16** |
| **Nitqin sintaqmatik təşkili və üslub vahidliyi** | Üslub vahidliyi qorunur. Mətnin birinci cümləsi fikri dəqiq ifadə etmir.<br>Dörd cümləni fikrin ifadəsi baxımından təkmiklləşdirmək lazımdır.<br>Mətnin dili sxematikdir. Əsasən sadə cümlələrdən istifadə edilib. | **14** |
| **Dil qaydalarına riayət** | 2 üslub, 1 qrammatik uyğunsuzluq, 2 orfoqrafik, 1 durğu işarəsi səhvi qeydə alınır. | **16** |

**Cəmi: 81 bal**

**Qeyd:** Summativ qiymətləndirmə vasitələri müxtəlif tapşırıqlardan ibarət olduğu halda esse yazı işinin digər tapşırıların tutumu ilə müqayisədə balını müəyənləşdirib 20, 25, 50 və digər ballarla qiymətləndirmək olar.

## HEKAYƏ NECƏ QURULUR

**Standart: 3.1.1**

Nitq fəaliyyətinin vacib növlərindən biri də hekayə yazmaqdır. Bu fəaliyyət şagirdlərin fantaziya üfüqlərini genişləndirir, özünüifadə üçün imkan yaradır. Təlim zamanı hakayə yazdırmağın müxtəlif yolları var: tematik rəsmlər əsasında hekayə, verilmiş ekspozisiyaya görə hekayənin davam etdirilməsi, şəxsi təəssüratlar və müşahidələr əsasında hekayə, eşitdikləri və gördükləri əsasında hekayə və s..

**Şagirdlərə verilə biləcək tövsiyələr**

1. Hekayəniz üçün ideyalar toplayın

Hekayə yazmaq üçün ilham hər an gələ bilər. Buna görə də maraqlı ideya ağlınıza gələndə qeyd etmək üçün özünüzlə bir qeyd dəftəri gəzdirin. Əgər siz hekayəni təcili yazmalısınızsa, onda beyin həmləsi edin. Həmçinin təcrübələrinizə əsasən bir hekayə yaza bilərsiniz.

Əgər heç bir ideya ağlınıza gəlmirsə, başqa hekayələrdən müxtəlif epizodları birləşdirin. Əgər sizə hekayənin adı təqdim olunub və bu başlığa uyğun hekayə yazmaq tələb olunubsa, bu başlığın hərfi mənasına fikir verməyin. Məsələn, hekayənin adı “Açıq qapı”dır. Başlığa metaforik yanaşın. Siz beyninizin qapısından və ya kitabların açdığı

qapılardan danışa bilərsiniz. Mövzuya daha maraqlı giriş etməyə çalışın. Bu zaman hekayəniz daha kreativ alınacaq.

2. Hekayənin əsas hissələrini müəyyənləşirin.

**Giriş:** personajları təqdim edin, zaman, məkan, hava haqqında məlumat verin.

**Hadisələrin başlanması –** hadisələrin kulminasiyaya doğru inkişafı, konfliktlərin yaranmasıdır.

**Kulminasiya –** hekayənin ən gərgin hissəsi, konfliktlərin düyün nöqtəsidir.

**Hadisələrin enişi:** hekayəniz sonluğa yaxınlaşır, konfliktlər aydınlaşır.

**Hadisələrin açılması** – konfliktlərin səbəbi və nəticəsinin məlum olmasıdır.

**Sonluq:** hadisələrin sonluğunun tam aydın verilməməsi hekayəni daha yaddaqalan edər. Bədii priyomdan istifadə edərək oxucuları nəticəyə istiqamətləndirmək olar.

3. Real qəhrəmanlardan ilhamlanmağa çalışın: əgər personajları yaratmaqda çətinlik çəkirsinizsə, real həyata müraciət edin. Siz tanıdığınız və ya müşahidə etdiyiniz digər insanları obraz olaraq hekayənizə daxil edə bilərsiniz.

4. Obraz yaratmaq: hekayənin inandırıcı olması üçün obrazın real olması vacib şərtdir. Maraqlı və real obraz yaratmaq çətin prosesdir. Amma aşağıdakı tövsiyələr sizə kömək edə bilər:

- Obrazların siyahısını hazırlayın və onların səciyyəvi xüsusiyyətlərini yazın (tutduqları mövqe, sevimli rəng, sevimli yemək və s.). Bu məlumatları hekayənizə əlavə etmək məcburiyyətində deyilsiniz, sadəcə olaraq bu, sizə daha real personaj yaratmaqda kömək olacaq.
- Obrazların mükəmməl olmamasına diqqət yetirin. Hər bir obrazın bəzi mənfi xüsusiyyətləri, problemləri olması daha məqsədəuyğundur.

5. Hekayənizin zaman çərçivəsini məhdudlaşdırın: hekayədə baş verən hadisələr qısa müddətdə (missal üçün, bir saat, bir gün, bir həftə və s.) baş vermiş hadisələr olmalıdır. Həmçinin bir və ya iki süjetdən və iki-üç personajdan istifadə edin.

6. Hekayənin kimin dilindən nəql edəcəyinizi qərarlaşdırın. Hekayəni nəql etməyin 2 alternativ variantı var: subyekt birinci şəxs (mən) və ya üçüncücü şəxsdir (o). Birinci şəxsin dilindən hadisəni ya personajlardan biri danışır, ya da təhkiyəçi müəllifin özüdür. Hadisələr təhkiyəçinin nəzər nöqtəəsindən əks olunur. Üçüncü şəxsdə aparılan təhkyədə isə subyekt (təhkiyəçi) obyektivin (kamera önündə olduğu kimi) önünə keçir – hadisələr “hər şeyi görən” biri tərəfindən təqdim edilir. Buna tanrıvari baxış da deyilir.

Fikirlərin sistemləşdirilməsi: hekayənin əsas elementlərini qeyd etdikdən sonra hadisənin ardıcıllığını müəyyənləşdirmək lazımdır. Sizin hekayəniz giriş, hadisələrin

başlanması, inkişafı, kuliminasiya, hadisələrin açılmasını əhatə etməlidir və siz hansı epizodu hansı hansı hissədə təsvir edəcəyinizi planlaşdırmalısınız. Bunu etməklə siz yazı prosesini daha da asanlaşdıracaqsınız.

**Bədii əsərin məzmununun təhlili xəritəsi**

| | **Mövzu** | **Problem** | **İdeya** |
|---|---|---|---|
| **Hansı mənanı ifadə edir?** | Əsərin bəhs etdiyi təzahürləri ifadə edir (hadisə, insanlar, ətraf mühit və s.) | Müəllifii düşündürən əbədi və ya dövrün aktual (yerli, qlobal) suallarıdır. | Müəllifin mövqeyini ifadə edir. |
| **Hansı suallara cavab verir?** | Əsərdə nədən bəhs olunur? | Mətn hansı suallar üzərində düşünməyə sövq edir? | Bu barədə müəllif nə düşünür? |
| | Əsas qəhrəman kimdir? | Təzahürlərin səbəbi nədir? | Bu vəziyyətdən çıxış yolu nədir? |
| | Nə, harada və nə zaman baş verir? | Müasir cəmiyyət nəyə diqqət verməlidir? | Bu vəziyyətdən hansı nəticələri çıxarmaq lazımdır? |
| **Hansı xüsusiyyətlərə malikdir?** | Əsərdəki hadisələr haqqında “reportaj”, məkan, qəhrəmanlar, onların hisslərinin təsviri, fikirlərinin ifadəsi verilir. | Medalın iki üzü kimi fərqli fikirlər ifadə olunur, hər birinin təhlili verilir. | Müəllifin şəxsi fikirləri, obrazlara, hadisələrə münasibəti ifadə olunur. |
| | Subyektiv və ya obyektiv prizmadan nəzərdən keçirilir. | Qəhrəmanlar və hadisələr ilə əlaqəli deyildir, qlobal və ya dövrün aktual dini, sosial, psixoloji, siyasi konfliktlərini əhatə edir. | Yaxşıdır /pisdir; doğrudur/ yanlışdır; faydalıdır / zərərlidir kimi qiymətləndirilə bilər. |
| | Faktları sadalayır: kim, nə, niyə etdi? | Kolliziyalarda üzə çıxır. | Mətnin problemi ilə əlaqədar müəllif mövqeyini nümayiş etdirir: bu, cəmiyyətə necə təsir edir? |

## ƏMƏLİ YAZI İŞLƏRİNİN TƏŞKİLİ METODİKASINA DAİR

Əməli yazılar insanın ömrü boyunca işgüzar həyatında mühüm rol oynayır. Hələ kiçik yaşlarından insanlar müəyyən əməli yazı növlərindən gündəlik həyatlarında istifadə edirlər. Yaşından, savadından asılı olmayaraq hər kəsin müəyyən məqsədlərələ məktub yazmaq ehtiyacı ola bilər. Təhsil almaq, mədəni-mənəvi inkişaf, ictimai fəaliyyət məqəsdi ilə şagirdlər ərizə yazmaq tələbi ilə rastlaşırlar. Bu inkişaf prosesində bəzən izahat yazmaq kimi tələbat da qarşıya çıxa bilir.

İnsanın işgüzar həyatı boyunca isə rəsmi-işgüzar yazışmalar daha böyük əhəmiyyət kəsb edir. Bu səbəbdən əməli yazı bacarığının formalaşdırılması ibtidai sinifdən başlayaraq ümumtəhsil müddətində Azərbaycan dili fənninin standartlarında qarşıya qoyulmuş təlim məqsədlərindən biridir.

| Sinif | Standart | Məzmun |
|---|---|---|
| **I** | **3.1.7** | Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilmiş sadə əməli yazılar (məktub, açıqca) yazır. |
| **II** | **3.1.6** | Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən sadə əməli yazılar (məktub, açıqca, elan, ərizə) yazır. |
| **III** | **3.1.5** | Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən əməli yazılar (məktub, açıqca, elan, ərizə, dəvətnamə) yazır. |
| **V-XI** | **3.1.4** | Müxtəlif əməli yazılar (ərizə, tərcümeyi-hal. Elan, məktub, teleqram, izahat, arayış, protokol, hesabat, akt, rəy, məruzə) yazır. |

**Əməli yazılar yazırıq: "mən işgüzar adamam"**

Dövlət və ya hökumət təşkilatlarının tərtib etdiyi və xüsusi qaydada, yəni rəsmi şəxsin imzası, möhür və s. ilə təsdiq edilən sənədlər rəsmi sənədlər adlanır. Dövlətin

konstitusiyası, qanunları, qərarları, fərmanları; hökumətin sərəncamları, nazirlərin əmrləri və s.ən mühüm rəsmi sənədlərdir.

İşgüzar sənədlər isə xüsusi dövlət əhəmiyyəti daşımır, ancaq bu və ya digər konkret məsələ ilə bağlı tərtib edilir. Afişa, annotasiya, anons, akt, arayış, bildiriş, elan, ərizə, izahat, məktub, reklam, rəy, protokol, teleqram, tərcümeyi-hal və s. işgüzar sənədlərə aiddir. İşgüzar sənədlərin müəyyən hissəsini hər bir şəxs özü hazırlamağı bacarmalıdır. Onlardan bəzilərinə nəzər salaq:

**Bəzi şəxsi sənədlər**

**Ərizə və izahat** — bu sənədlər hər hansı bir texnikanın istifadəsi olmadan əllə yazılaraq, adətən, şəxsi xarakter daşıyır. Belə sənədlər bir müəssisənin daxilində qüvvədə olaraq, daxili istifadə üçün sənədlər adlanır.

**Diqqət edin!**

1. Xahiş edərkən feilin qarşısında "çox", "artıq dərəcədə" kimi ifadələr işlətmək olmaz.
2. Aşağıdakı sözlər işgüzar sənədlərin tərtibi qaydalarına uyğun deyil: "mənim getməyim lazım olduğu üçün", "başım ağrıdığı üçün..."
3. Ərizədə aşağıda göstərilmiş ifadələrin işləndiyi cümlə tiplərindən istifadə etmək uyğun deyil:

"Cənab dekan!", "Hörmətli dekana"; "Öncədən təşəkkür edirəm.", "Xahiş edirəm, imtina etməyəsiniz.", "Hörmətlə...."

**Diqqət!**

*Əməli yazı dərslərində "Mən işgüzar adamam" başlığı altnda rollu oyunlar təşkil etməklə daha maraqlı edə bilərsiniz.*

Əməli yazı növlərinin tədrisi zamanı dərslərdə situasiyalar yaratmaqla müxtəlif tapşırıqlardan istifadə etmək tövsiyə olunur.

**Tapşırıq 1.** Ərizənin quruluşunu bərpa edin.

(Ərizənin cümlələrinin ardıcıllığını pazlmaqla tapşırıq hazırlayın. Şagird ardıcıllığı bərpa etsin.)

**Tapşırıq 2.** İki ərizə variantını müqayisə edin. Onlardan birində səhv var. Mətnin təshih edilmiş hissəsini tapın və onun dəyişdirlməsi səbəbini izah edin. (Verilmiş təlimata əsasən tapşırıq hazırlayın.)

**Tapşırıq 3.** Mətni oxuyun, səhvi tapın və təshih edin.

(Məzmunla, stukturla bağlı səhvlərin yol verildiyi ərizə nümunəsi hazırlayın.)

**Tapşırıq 4.** Verilmiş sözlərdən istifadə etməklə cümləni bərpa edin. (Aşağıda verilmiş sözlərin işlənə biləcəyi ərizənin əsas mətnini hazırlayın və həmin sözlərin yerini boş buraxın).

**Verilmiş sözlər:** səbəbindən , əlaqədar olaraq, üçün.

**Tapşırıq 5.** Aşağıda göstərilmiş səbəblərən istifadə edərək ərizə yazın:

a) dərsin vaxtının dəyişdirilməsi b) sinfin dəyişdirilməsi c) olimpiadada iştirak d) dərnək üzvü olmaq e) dərsdə iştirak edə bilməmək.

Tapşırığı yerinə yetirərkən nəzərə alınmalıdır:

1) ərizənin yazılma səbəbi – xahişin ifadə edilməsi;
2) informativ və leksik uyğunluq: nə, nə zaman, hansı səbəbdən xahiş etdiyinizi elan edin; nitqin rəsmi-işgüzar üslubu vasitələrindən istifadə edin.
3) ərizənin məzmununun verilmiş forma və struktura uyğunluğuna diqqət edin.

**İzahat**

**Diqqət edin!**

İzahatı "Sizə bildirmək istəyirəm ki.... " "İzah etmək istəyirəm ki, ...." ifadələri ilə başlamaq uyğun deyil.

**Tapşırıq 6. İzahatın strukturunu bərpa edin.**

(Bütün cümlələrinin ardıcıllığı pozulmuş izahat nümunəsi hazırlayın.)

**Tapşırıq 7.** İzahatın iki variantını müqayisə edin. Onlardan birində səhv var.

Mətnin təshih edilmiş hissəsini tapın və düzəlişin səbəbini izah edin.

(Təlimat əsasında tapşırıq hazırlayın.)

**Tapşırıq 8.** Mətni oxuyun, səhvi tapın və təshih edin.

(İşgüzar yazının tələblərinin pozulduğu izahat mətni yazın.)

**Tapşırıq 9. Verilmiş sözlərdən istifadə edərək cümləni bərpa edin.**

(İzahat mətninin əsas hissəsinə aid 3 cümlə yazın.)

**Verilmiş sözlər**: əlaqədar olaraq, nəticəsində, üçün

**Tapşırıq 10.** Aşağıda verilmiş vəziyyətlərə uyğun izahat yazın:

a) şagirdin dərsə gecikməsi b) məktəbli formasının olmaması c) summativ qiymətləndirmədə iştirak etməmək d) müəllimlə şagird arasında baş vermiş insident.

Tapşırığın həlli zamanı nəzərə alınmalıdır:

1) izahatın yazılması səbəbi – intizamın pozulması səbəbinin göstərilməsi;
2) Məlumat və leksik cəhətdən uyğunluq: nə, nə zaman, niyə baş verməsi haqqında məlumat verin; rəsmi-işgüzar üslubun qaydalarını gözləyin.
3) İzahatın məzmununun verilmiş forma və struktura uyğunluğu.

**Məktubun strukturu**

Əməli yazı növləri haqqında kargüzarlıq normativləri sənədlərindən ətraflı məlumat almaq olar. Məktub daha sərbəst məzmuna malik olduğu üçün kompozisiya ilə bağlı tövsiyələr vermək olar.

**Giriş**

Məktub, adətən, standart ifadələr və tərtibat tələb edir. Kursun mövzusu müxtəlif xarakterli məktubların yazılmasına həsr olunur. Burada məktub tərtibatını bəzi standartlarını təqdim edirik.

**Salamlaşma:**

Əgər siz müraciət olunan şəxsin adını bilmirsinizsə adı:

Hörmətli cənablar (və ya xanımlar)

Hörmətli cənab (xanım)

Hörmətli redaksiya!

**Əgər siz adresatı bilirsinizsə və onunla işgüzar münasibətdəsinizsə:**

Hörmətli d-r Sadıqov (d-r = doktor)!

Hörmətli Mehriban Məmmədova!

Əgər şəxs sizin dostunuzdursa (rəfiqənizdirsə): Əziz Gülnarə!

**Təşəkkür (imza):**

Tezliklə cavab verə bilsəniz, Sizə minnətdar olarıq.

4) Yaxın müddətdə cavab verəcəyinizə ümid edirik.
5) Mümkün olduqca bizə tez məlumat verməyinizi xahiş edirik.
6) Sizin razılığınızı gözləyirik (təsdiqinizi).

**Daxil olan məktuba cavab məktubunda giriş sözlər:**

**...** bağlı məktubunuza görə təşəkkür edirik.

... bağlı məktubunuza cavab olaraq...

Sizin xahişinizə cavab olaraq...

... bağlı məktubunuza istinad edərək Sizə bildirirk ki, ...

**Təşəkkür (imza) formal** olduğu halda:

Hörmətlə,..

Ən yaxşı arzularla, ...

**Daha az formal:**

Hörmətlə Sizin (göndərən şəxsin adı)...

Səmimiyyətlə Sizin (göndərən şəxsin adı) ...

**Məlumatlandırma xarakterli ifadələr**

Biz Sizə məlumat verməyə şadıq...

Təəssüf ki, biz məlumat verməliyik ki, ...

Biz Sizə ... təkliflə müraciət edirik.

Biz Sizə məlumat vermək istəyirik ki,..

Biz istəyirik ...

Biz Sizə təklif edirik, ...

Məktubda təsdiq olunur ki, ...

Qeyd etməyi vacib (lazım, məqsədəmüvafiq) hesab edirik ki,...

Yuxarıda qeyd edilənlərlə bağlı olaraq...

Bununla bağlı olaraq ...

Bundan başqa ...

Əlavə olaraq ...

Sizin xahişinizlə əlaqədar olaraq ...

Əks təqdirdə biz məcburuq ki, ...

Məsələ bundadır ki, ...

Yaranmış vəziyyətdə ...

İlk növbədə ..

Əlavə edilmiş sənədlər

Məktuba əlavə olunur ...

**Xahiş**

Xahiş edirik, (bizə məlumat verin...)

Sizə ... bağlı xahişlə müraciət edirik,

Əgər Siz ... , minnətdar olarıq.

**Əməli yazının qiymətləndirilməsi nümunəsi**

| Meyarlar | IV | III | II | I |
|---|---|---|---|---|
| Srtuktur | Əməli yazının növünün strukturuna uyğundur. Hissələrinin hamısı verilir. | Struktura uyğundur. Hissələrin hamısı verilir, lakin 1 səhvə yol verir. | Stuktur əməli yazının növünə əsasən uyğundur. Hissələrdən biri verilmir, yaxud səhv yazılır. | Strukturda 2 və daha artıq mühüm səhvya yol verir. |
| Məzmun | Məzmun əməli yazının növünə uyğundur. | Məzmun əməli yazının növünə uyğundur, 1 səhvə yol verir. | Məzmun dəqiq ifadə edilmir (məsələn, izahatda səbəb göstərilmir). | Məzmun anlaşılmır. |

| | | | | |
|---|---|---|---|---|
| Üslub | Rəsmi-işgüzar üslub tamamilə qorunur. | Üslub qorunur, bir və ya iki məqamda pozulur. | 2-dən artıq pozuntu var. (yazı növünə görə dəyişə bilər). | Üslub uyğun deyil. |
| Dil qaydaları | Orfoqrafik, durğu işarələri və qrammatik qaydalara riayət olunur. | Bir orfoqrafik, bir durğu səhvi var. | 2 orfoqrafik, 2 durğu, 1 qrammatik səhv var. (yazı növünə görə dəyişə bilər) | Əsasən səhvlərlə yazılır. |

**Qeyd:** Müxtəlif əməli yazı növlərinin xüsusiyyətləri və həcminə görə göstəricilər dəyişə bilər. Cədvəl kiçik həcmli yazı növləri (ərizə, izahat, teleqram, elan, açıqça və s.) üçün tərtib olunub. Məktub, rəy kimi sərbəst və geniş həcmli əməli yazı növlərinin qiymətləndirilməsi yaradıcı yazıların qiymətləndirilməsi meyarlarına əsasən aparılır.

**Nəzərə alın!**

Vəsaitdə təklif edilmiş qiymətləndirmə cədvəlləri tövsiyə xarakterlidir. Müxtəlif əməli yazı növlərinə uyğunlaşdırılaraq istifadə oluna bilər.

**ESSE**

**Mişel Ekem de Monten, "Təcrübələr" əsərindən**

## KƏDƏR HAQQINDA

Bütün dünya sözləşiblmiş kimi xüsusi diqqətə alsa da, mən bu hissə ən az qapılan insanlardanam. Ona geyindirdikləri müdriklik xeyirxahlıq və vicdan donu əcaib, dəhşətli görünüşdədir! İtalyanlar hiyləgərlik və qəddarlığı bu kəlməylə daha uğurlu şəkildə ifadə etmişdirlər. Çünki hər zaman zərər gətirən bu hiss şüursuzdur, həmçininn xırdaçı və dəyişməzdir. Stoiklər müdriklərə bu hissə qapılmağı yaraşdırmırlar.

Misir çarı Psammenit haqqında belə rəvayət edilir ki, fars çarına məğlub olduqdan sonra əsir düşmüş qızını qul paltarında su ardınca göndərildiyini görür. Yanında dayanmış bütün dostları həmin dəqiqə hönkürüb ağlamış və zarımışdılar, o özü isə inanılmaz dərəcədə təmkinli qalmış, nəzərlərini yerə dikərək bir kəlmə söz söyləməmiş, həmçinin bu sakitliyini oğlu edama apardığı zaman da saxlamışdır. Önündə qovularaq keçən əsirlərin içində öz silahdaşlarından birini görəndə o, başına döyməyə başlamış və kədərini ifadə etmişdir.

Bunu yaxın zamanda bizim zadəganlardan birinin başına gələnlər ilə müqayisə etmək olar. Triyentdə olduğu zaman o, bütün nəslinin fəxri və arxası olan böyük

qardaşının vəfatı haqqında məlumat alır. Müəyyən müddətdən sonra o, həmçinin ümid yeri olan kiçik qardaşının da ölümündən xəbər tutur. Bu iki zərbəni nümunəvi möhkəmliklə qarşıladıqdan sonra yaxınlarından biri öldüyü zaman bədbəxtlik onu sındıra bildi, mənəvi möhkəmliyini itirərək qəmə və qüssəyə təslim oldu. Və bu, belə düşünməyə əsas verir ki, sanki canlı olduğunu sonuncu zərbəni aldıqda xatırladı. Lakin həqiqətdə isə bu ona görə baş verdi ki, kədər üçün bir neçə göz yaşı damlası da bəs edərdi ki, onun səbrini daşırsın.

Psimmenit Kambizin də oğlunun və qızının faciəsinə səbrlə dözdüyü halda dostlarının birinin başına gələn faciəni ürəyinə daha yaxın tutması görüntüsünü də heç bir əlavə etmədən bu şəkildə izah etmək mümkündür. Psammenit demişdir: "Mənə dəyən ilk iki zərbəni ifadə edə biləcək üsul olmadığı üçün bu sonuncu kədər gözümdən axa bildi”.

Burada qədim rəssamın fəndini xatırlamaq yerinə düşər ki, o, İfiqeniyanın edamını izləyənlərin hər birini bu günahsız və cazibədar qızın ölümündən necə təsirləndiklərini təsvir etmişdirsə də, atasına gəlincə, onun kədərinin ifadəsinin mümkün olmadığını nəzərə çarpdırmaq üçün üzünü qapalı göstərərək öz istedadının imkanlarının son həddini nümayiş ettirməyə nail olmuşdur. Şairlərin bədəxt Niobeya ananın əvvəlcə yeddi oğlunu, sonra isə qızlarını itirərək nəticədə sərt qayaya dönməsi düşüncəsini yaratmaları da bunun ifadəsidir.

Onlar bu obrazları bədbəxtliklərin bizim gücümüzü işğal edərək üzərimizdə hökm etdiyi vəziyyətimizdə tutqun, lal və kar hislərimizi ifadə etmək üçün yaratmışdırlar.

Və həqiqətən, həddindən artıq iztirab gözə görünmədən ruhumzu bürüyür, yeni təəssüratlar altında özümümü iflic olmuş vəziyyətdə hiss edirik. Müəyyən müddətdən sonra isə göz yaşı və şikayətlərlə yoluxub ruhumuzun qandalları necə atdığını, doğrulub özünü yüngül və azad hiss etdiyini görürük.

{Və nəhayət, qüssə çətinliklə səsin yolunu açdı.)

Korol Ferdinandın Venqriya korolu İohanın dul qadını ile Bdev uğrunda apardığı müharibədə alman hərbçisi Reyşax hər kəsin gözü önündə böyük şücaətlə döyüşən atlının cəsədi gətirilərkən hamı ilə bərabər bu atlının kimliyinə maraq göstərərək təəssüfləndiyi anda atlının dəbiqəsi çıxarıldıqda məlum oldu ki, bu, onun öz oğluymuş. Bu zaman onun ətrafındakı hər kəsin ağladığı anda tək o, bir kəlmə söz söyləmədi. Bir damla yaş axıtmamış, bütün bədəni boyunca dikələrək orada dayananlarla bərabər durub nəzərləri ölü bədənə dikili qalmış, kədərin gücü həyat hissini donduraraq onu yerə düşməyə qoymamışdı..

{Yandığını təsvir edə bilənlər zəif atəşlə yanır.}

Sevgiliər ehtirasın iztirabllarını təsvir etməyə çalışaraq danışırlar:

(Təəssüf ki, sevgi məni bütün hislərimdən məhrum edib.  Lesbiya, səni görmək yetər ki, mən şüurumu itirəm, nə isə söyləyə bilməyəm. Mənim dilim quruyur, zərif atəş bütün bədənimə yayılır, qulaqlarım öz-özünə küylə qapanır və gözlərim qaralır).

Beləliklə, bizi canlı və yandırıcı ehtiras bürüyəndə şikəyət etmək və yalvarmaq iqtidarında olmuruq, bizim ruhumuz dərin fikirlərlə ağırlaşır, cismimiz isə heysizləşir və sevgidən iztirab çəkir.

Bu dəfə də burada gözlənilməz mümkünsüzlük ləzəztin ən qaynar çağında hədsiz çılğınlıq səbəbindən sevgililərin vücudunu vaxtsız bürüyən buz soyuqluğu şəklində təzahür edir.  Sezdirmə və düşüncəyə yer qoymuş hər cür ehtiras güclü ehtiras deyil.

{Yalnız kiçik qüssə danışır, böyüklər laldır.)

Gözlənilməz sevinc və ya məmnunluq da hissizləşdirir bizi.

{Elə ki, o mənim gəldiyimi gördü və heyrət içində gördü ki, ətrafımda troya döyüşçüləri var, böyük möcüzədən dəhşətə gələrək dondu, həyat atəşi onun sümüklərini tərk etdi, o yıxıldı və uzun müddətdən sonra özünə gəldi.)

Kanna ətrafındakı məğlubiyyətdən sonra sağ qalaraq dönən oğlunu görərkən gözlənilməz sevincdən ölən o rumlu qadından başqa, sevincdən ölən Sofokl və tiran Dionisdən başqa, nəhayət, Roma senatının təltifi haqqındakı məktubu oxuyaraq Korsika adasında ölən Talvadan başqa, bizim əsrə aid nümunələri də göstərə bilərik: belə ki, səbrsizliklə gözlədiyi Milan işğalının elanını eşidən Papa X Lev  qızdırmaya yaxalandı və tezliklə öldü. İnsanın boşluğunun daha tutarlı misalını gətirmək üçün qədimdən qeyd edilmiş bir hadisəni göstərəcəyik, məhz Diodor Dialektik elmi mübahisədə ona qarşı qoyulmuş arqumentə cavab verə bilmədiyi üçün tələbələri və dinləyicilər önündə dərin xəcalətdən ölmüşdür..

Mənə gəlincə, mən iztirabın şiddətinə çox da həssas deyiləm. Məni fikrimdən yayındırmaq asan deyil, təbiətim belədir, daimi təfəkkür sayəsində günbəgün daha çox bərkiyirəm, sərtləşirəm.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

**Azərbaycan dilində**


1. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı, 2013
2. Azərbaycan dili və onun tədrisi metodikası kafedrası üzrə proqramlar (Bakalavr və magistr hazırlığı üçün). Azərbaycan respublikası təhsil nazirliyi, bakı slavyan universiteti, Bakı – 2008
3. Bayramov Akif, Məhərrəmov Ziyəddin, Mustafa İsgəndərzadə. Azərbaycan dili və nitq mədəniyyəti (ali məktəb tələbələri üçün dərs vəsaiti). Bakı, "ULU", 2015
4. Bəşir Əhmədov. Azərbaycan dili təliminin qanunları, prinsipləri və metodları, Bakı, 2007, Mütərcim
4. Bəylərova Aytən. Bədii dildə üslubi fiqurlar. Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu, «Nurlan», Bakı, 2008
5. Cəfərova Dilruba. Azərbaycan dili dərslərində nitq və yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi /”Kurikulum”, 2020, №3948, səh. 77-79
6. Cəfərova Nabat. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası (dərslik), Bakı-2016, ADPU-nəş.
7. Emosional intellekti inkişaf etdirən texnikalar. http://www.tipii.edu.az/az/article/523-emosional-intellekti-inkisaf-etdiran-texnikalar
8. Esse – düşünməyi öyrədən janr. http://www.tipii.edu.az/az/article/199-esse-dusunmayi-oyradan-janr
9. Hacıyev Asif. Dilin nitq fəaliyyəti zəminində tədrisi // “Azərbaycan dili və ədəbiyyat tədrisi” jur., 2007, № 4, s. 41-44
10. Hacıyev Asif. Azərbaycan dili kurikulumu haqqında bəzi qeydlər // “Kurikulum” jur., 2011, № 1, s. 45-51
11. Hacıyev Asif. Ümumtəhsil məktəblərində Azərbaycan dili təliminin məzmunca işlənilmə məsələləri // “Azərbaycan dili və ədəbiyyat tədrisi” jur., Bakı: 2014, № 1, s.31-37
12. Hacıyev Asif. Yazı bacarıqlarının yaradılması və inkişafı ümumtəhsil məktəblərində Azərbaycan dili təliminin əsas istiqamətlərindən biri kimi // Azərbaycan dili və ədəbiyyat tədrisi, Bakı: 2015, № 3, s.8-11
13. Qrammatik səhvlar müəllifə münasibəti necə dəyişir? http://www.tipii.edu.az/az/article/255-qrammatik-xatalar-muallifa-munasibati-neca-dayisir

14. Kazımov Q.Ş. Müasir Azərbaycan dili (ali məktəblər üçün dərslik), Bakı-2010, “Elm və Təhsil”

15. Kərimov Y.Ş. İbtidai siniflərdə ana dilinin tədrisi metodikası. Bakı, 1997

16. Kərimov Y. Ana dilinin tədrisi metodikası (dərslik), “Kövsər ”, Bakı-2011,2015

17. Kərimov Y. Ana dili tədrisi metodikasının nəzəri problemləri, Bakı, 2005

18. Məmmədov A. Azərbaycan dilinin tədrisi tarixi, Bakı-2011

19. Mətn və onun tipləri. http://www.tipii.edu.az/az/article/238-matn-va-onun-tiplari

19. Müxtəlif təlim metodlarının müqayisəli xarakteristikası. http://www.tipii.edu.az/az/article/316-muxtalif-talim-metodlarinin-muqayisali-xarakteristikasi

20. Nəhmətova Könül. "Yaradıcı yazı alqoritminin səmərəli təşkili metodu" / "Azərbaycan müəllimi" qəzeti, N.27 – 2017

21. Nəhmətova Könül. Esse yazı işinin təşkili metodikası / “Kurikulum”, 2020, №2, səh. 57-65

22. Oxu təlimi (Müəllimlər üçün vəsait). http://www.tipii.edu.az/az/article/374-oxu-talimi-muallimlar-ucun-vasait

23. Oxuyub-anlama strategiyaları. http://www.tipii.edu.az/az/article/288-oxuyub-anlama-strategiyalari

24. Sinkveynin tətbiqi məqamları və nümunələr. http://www.tipii.edu.az/az/article/237-sinkveynin-tatbiqi-maqamlari-va-numunalar

25. Sözlü-məntiqi təfəkkürün inkişaf səviyyəsinin tədqiqi üçün "Artıq sözü tapın". metodikasıhttp: //www.tipii.edu.az/az/article/364-sozlu-mantiqi-tafakkurun-inkisaf-saviyyasinin-tadqiqi-ucun-quot-artiq-sozu-tapin-quot-metodikasi

26. Şəlalə Nəbiyeva. Ana dili tədrisi metodikasının aktual problemləri (Metodik vəsait), Azərbaycan dövlət pedaqoji universiteti, Bakı,2010

27. Şərqiyyə Paşayeva. Ana dili tədrisində nəzəri və praktik məsələlər. “Təhsil”, Bakı-2007

**Türk dilində:**

1. Ataöv Türkkaya. Bilimsel Araştırma El Kitabı, Sevinç Matbaası, Ankara, 1982

2. Demiray Kemal. Sözlü ve Yazılı anlatım, Kompozisiyon. İnkilap ve Aka Kit, 1970

3. Karasar Niyazi. Bilimser Araştırma Yöntemi, Ankara, Nobel Yayın Dağıtım, 1991

4. Özdemir Emin. Güzel ve Etkili Konuşma Sanatı, İstanbul, Remzi Kitabevi, 2000

5. Özdemir Emin. Sözlü ve Yazılı Annlatım Sanatı Kompozisyon. İstanbul. Remzi Kitabevi, 2008

6. Özdemir Emin. Yazınsal Türler, Ankara, Bilgi Yayınevi, 1999

7. Toklu M. Osman. Dilbilime Giriş, Ankara, Akçağ, 2003

8. Türk dili – sözlü ve yazılı anlatım. İstanbul, Mutlu Matbaacılık (Hasan Mutlu), 2016

9. Türk dili, yazılı ve sözlü anlatım. Malatya, İnönü Universiteti Yayınevi, 2017

20. Yörük Yaşar. Güzel Konuşma-Yazma Kılavuzu, Ünal Matbaası, Ankara, 1977

**Rus dilində**

1. Абзац. https://petr-panda.ru/copywriting-terms/abzac/

2. Абзац.https://dic.academic.ru/dic.nsf/enc_literature/16/%D0%90%D0%B1%D0%B7%D0%B0%D1%86

3. И.М.Лейфман «Карточки для дифференцированного контроля знаний по литературе 11 класс часть 1

4. Как написать рецензию. https://www.sunhome.ru/help/1120

5. Как написать эссе. https://natalibrilenova.ru/kak-napisat-esse/

6. Как оформить эссе. http://ru.solverbook.com/stati/esse/kak-oformit-esse/

7. Как работать над сочинением-рецензией. https://edunews.ru/school/info/kak-napisat-recenziyu.html

8. Лейфман И.М. «Карточки для дифференцированного контроля знаний по литературе 11 класс часть I.- М.Материк –Альфа, 2004

9. Международная программа ПИСА: Примеры заданий по чтению, математике и естествознанию. https://www.innove.ee/wp-content/uploads/2019/02/Pisa2009-vene.pdf

10. Методические рекомендации  по написанию эссе. Государственное автономное образовательное учреждение среднего ik образования Республики Коми, «Ухтинский медицинский колледж», Ухта, 2013

11. Повторяем приемы сжатия текста. https://mtvrus.ru/zadanie-1-kak-pisat-szhatoe-izlozhenie/

12. ПОПС-формула: что собой представляет и как используется на уроках. . https://multiurok.ru/files/pops-formula-chto-soboi-priedstavliaiet-i-kak-ispo.html

13. Секреты редактирования. https://marketing.wikireading.ru/10658

14. Соловьева Н.Н.  «Сочинение без шпаргалки пособие для школников и абитуриентов»

15. Соловьева Н.Н. «Сочинение без шпаргалки пособие для школников»

16. Соловьева Н.Н., кандидат филологичесих наук, доцент.

17. Соловьева Н.Н., кандидат филологических наук, доцент.

18. Сочинение… без шпаргалки. – М.: Материк – Альфа, 2004.

19. Сочинение… без шпаргалки. – М.: Материк-Алфа 2004.

20. Уроки развития речи: Дидактические материалы для учащихся по прграмме «Речь»: 6 кл. /Под общ. ред. Г.И.Канакиной, Г.В. Пранцавой. – М.: Гуманит. Изд.центр ВЛАДОС, 2000

21. Уроки развития речи: Дидактические материалы для учащихся по прграмме «Речь»: 6 кл. /Под общ. ред. Г.И.Канакиной, Г.В. Пранцавой. – М.: Гуманит. Изд.центр ВЛАДОС, 2002

22. Уроки развития речи: методические пособие для учителей-словесников по программе «Речь» 5 кл.

23. Уроки развития речи: методические пособие для учителей-словесников по программе «Речь» 6 кл

24. Уроки развития речи: методические пособие для учителей-словесников по программе «Речь» 6 кл. /Под общ. ред. Г.И.Канакиной, Г.В. Пранцавой. – М.: Гуманит. Изд.центр ВЛАДОС, 2000

25. Уроки развития речи: методические пособие для учителей-словесников по программе «Речь» 6 кл. /Под общ. ред. Г.И.Канакиной, Г.В. Пранцавой. – М.: Гуманит. Изд.центр ВЛАДОС, 2002

26. Уроки развития речи: методические пособие для учителей-словесников по программе «Речь» 6 кл. /Под общ. ред. Г.И.Канакиной, Г.В. Пранцавой. – М.: Гуманит. Изд.центр ВЛАДОС, 2003

27. Уроки развития речи: методические пособие для учителей-словесников по программе «Речь» 8 кл.

28. Уроки развития речи: методические пособие для учителей-словесников по программе «Речь» 8 кл. /Под общ. ред. Г.И.Канакиной, Г.В. Пранцавой. – М.: Гуманит. Изд.центр ВЛАДОС, 2002

29. Цукерман Г.А. Оценка читательской грамотности. Москва, 2010. http://2020strategy.ru/data/2011/07/15/1214720557/4.pdf

30. Что такое рецензия и как ее писать. https://rus.1sept.ru/article.php?ID=199900801

31. Что такое тезис и примеры тезисов для сочинения. https://ktonanovenkogo.ru/voprosy-i-otvety/tezis-chto-ehto-takoe-primery-tezisov-sochinenij.html

31. Что такое эссе и как его писать. https://studwork.org/spravochnik/oformlenie/esse/esse-kak-ego-pisat

32. Что такое эссе, как его написать самому – примеры. https://xn----7sbbaar5acc1ard1a0beh.xn--p1ai/chto-takoe-ehsse

**İngilis dilində**

1. A Visual Guide To Essay Writing: 2007 Valli Rao, Kate Chanock, Lakshmi Krishnan https://www.tcd.ie/disability/assets/doc/pdf/essayWritingVisualGuide.pdf
2. Academic Essay Writing For students at Charles Darwin University: https://www.cdu.edu.au/sites/default/files/acike/docs/academic-essay-writing-resource.pdf
3. Academic writing: the essay 2012: https://www.researchgate.net/publication/263863946_Academic_writing_the_essay
4. Basic Essay and Paragraph Format: https://www.uvu.edu/writingcenter/docs/handouts/writing_process/basicessayformat.pdf
5. Essay Examples: https://examples.yourdictionary.com/essay-examples.html
6. Essay Structure: https://writingcenter.fas.harvard.edu/pages/essay-structure
7. Essay Wrıtıng: https://www.anu.edu.au/files/guidance/Essay%20Writing%20Booklet%20%28FINAL%29%20Web%20Version.pdf
8. Essay Writing Workbook: http://kent.edu.au/kent/wp-content/uploads/2014/04/Essay-Writing-Workbook-T1-2014.pdf
9. Essay Writing, 2016 THE UNIVERSITY OF NEWCASTLE: https://www.newcastle.edu.au/__data/assets/pdf_file/0004/333760/Essay-Writing-lv-from-web.pdf
10. Essay: Introduction, Types of Essays, Tips for Essay Writing: https://www.toppr.com/guides/english/writing/essay/

11. General Essay Writing Tips: https://www.internationalstudent.com/essay_writing/essay_tips/
12. How to Write a Good Essay: https://bowvalleycollege.libguides.com/essays
13. How to Write Great Essays: https://www.nclor.org/nclorprod/file/e3476e91-6740-d289-c98d-fce107874ddb/1/157685521X.pdf Lauren Starkey, 2004 LearningExpress